# Həmrəylik Günü və Yeni iliniz mübarək!


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 290 (30694) 30 dekabr 2024-cü il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Təyyarə qəzasının təfərrüatları tam araşdırılacaq, sual doğuran məsələlərə aydınlıq gətiriləcək

## Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibə verib.**

**Jurnalist: Salam, cənab Prezident.**

**Prezident İlham Əliyev:** Salam.

**Jurnalist: Təəssüf ki, ötən günlərdə bizi dərindən sarsıdan hadisə baş verdi. Dekabrın 25-də Bakı-Qroznı istiqaməti üzrə marşrutu yerinə yetirən AZAL-a məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması və bundan sonra hadisələrin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik.**

**Prezident İlham Əliyev:** Mən bu barədə Sankt-Peterburqa MDB Zirvə görüşünə uçarkən məlumat aldım, məlumatlandırıldım, dərhal göstəriş verdim və təyyarə geri – Bakıya döndü. Bakıya gələn kimi burada hava limanında operativ müşavirə keçirdim. Hələ Bakıya qayıdarkən mənim göstərişimlə Dövlət Komissiyası yaradılmışdır və müvafiq qurumların nümayəndələrindən ibarət heyət Aktau şəhərinə dərhal ezam edilmişdir. Çünki onlar dərhal işə başlamalı idilər. İlk növbədə, təyyarənin qalıqlarının vəziyyəti ilə tanış olmalı idilər, yerində müşahidə aparmalı idilər, video və fotomateriallar əldə etməli və onları ictimaiyyətə təqdim etməli idilər.

Eyni zamanda, Azərbaycan həkimlərindən ibarət qrup ezam edilmişdi. Baxmayaraq ki, Qazaxıstan tərəfi yaralıları sağaltmaq və onlara tibbi xidmət göstərmək üçün əlindən gələni əsirgəmirdi. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan Baş Prokurorluğu cinayət işi açmışdır və bilirəm ki, həm Qazaxıstanda, həm Rusiyada oxşar addımlar atılmışdır.

*(ardı 2-ci səhifədə)*

## Həmrəyliyimizin möhtəşəm zirvələri

**Otuz ildən çoxdur ki, bu əlamətdar günü qeyd edirik. Ancaq vurğulamaq zərurəti var ki, soydaşlarımızın həmrəyliyini indiyədək heç zaman belə qürurla yada sala bilməmişik. Çünki üstümüzdə ağır bir yükə çevrilmiş işğal problemi var idi, qaçqın-köçkün dərdi, sözümüzün, səsimizin eşidilməməsindən yaranan ürək göynərtisi, yurd həsrətindən yaranan sızıltı buna imkan vermirdi. Ancaq xalqın heç zaman ölməyən ümidi və liderin qətiyyətinə inamı bizə bu il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü ürək açıqlığı ilə qeyd etmək imkanı verdi.**




Əsas məsələyə keçmədən xatırladım ki, bu il Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla ev sahibliyi edib. Həmin tədbirə hazırlıq dövründə və konfransın keçirildiyi günlərdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız Bakının yanında idilər. Məhz həmin birlik və dünya azərbaycanlılarının yumruğa çevrilmiş gücü Fransa başda olmaqla bəzi dövlətlərin və siyasi dairələrin bəd niyyətlərinin heçə endirilməsini təmin etdi. Doğrudur, həm ölkəmizdəki, həm də xaricdəki politoloq və tarixçilər bu uğurun müəllifi kimi ancaq Prezident İlham Əliyevi tanıyırlar. Haqlıdırlar. Ancaq onlar unutmasınlar ki, dünya azərbaycanlılarının Bakı ətrafında birləşərək yumruğa çevrilməsinin də təşəbbüskarı məhz cənab İlham Əliyevdir.

*(ardı 10-cu səhifədə)*

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2024-cü il dekabrın 25-də Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Rusiya Federasiyasının hava məkanında kənar fiziki və texniki müdaxiləyə məruz qalaraq idarəetməni itirmiş vəziyyətdə Qazaxıstan Respublikasının Aktau şəhəri istiqamətinə yönləndirilmişdir. İnsan tələfatı və xəsarət alanlar olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirmiş və sərnişinlərin bir qismi xilas edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Bakı–Qroznı (Rusiya Federasiyası) reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycanın Milli Qəhrəmanı" adı ilə:**

Kşnyakin İqor İvanoviç (ölümündən sonra)
Kalyaninov Aleksandr Georgiyeviç (ölümündən sonra)
Əliyeva Hökumə Cəlil qızı (ölümündən sonra)

**1-ci dərəcəli "Rəşadət" ordeni ilə:**

Əsədov Zülfiqar Sərdar oğlu
Rəhimli Aydan Vaqif qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

## 2024 – diplomatik uğurlar və siyasi sabitlik ili

### *Azərbaycan 2025-ci ilə daha geniş üfüqlərdən boylanır*



**2024-cü ili Azərbaycan üçün bütün sahələrdə uğur ili kimi qəbul etmək olar. İl ərzində ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində əlaqələrini və diplomatik təmsilçilik şəbəkəsini genişləndirən ölkəmiz regionda və qlobal miqyasda milli maraqlarının, eləcə də sülh və təhlükəsizliyin təmini məsələlərində rolunu və mövqeyini daha da gücləndirdi. 2024-cü il ərzində daxili sabitlik və davamlı inkişafa arxalanan Azərbaycan tərəfindən qlobal çağırışlara çevik və effektiv reaksiyaların verilməsi, beynəlxalq yardım fəaliyyətləri, beynəlxalq iqtisadi əməkdaşlıq, qlobal əhəmiyyətli tədbirlərin uğurla keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edib.**

### Sabit ada

Arxada qoyacağımız ilin siyasi yekunları ilə bağlı XQ-yə açıqlama verən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev bildirdi ki, ümumiyyətlə, 2024-cü il dünyanın təlatümlü bir mərhələdən keçməsi ilə yadda qalacaq: "Bu mərhələyə təkqütblü dünyadan çoxqütblü dünyaya keçid dövrü də deyilir. Adətən, belə dövrlər ya böyük müharibələrlə, ya da siyasi, iqtisadi, humanitar böhranlarla müşayiət olunur. Xüsusilə, belə mərhələyə hazırlığı olmayan, çevik diplomatiyası, xarici siyasət strategiyasından məhrum ölkələr daha böyük itkilərlə üzləşirlər. Coğrafi cəhətdən, eləcə də əhalisi çox olmayan, amma strateji mövqeyə və əhəmiyyətə malik dövlətlər ciddi təhlükələrə, təhdidlərə məruz qalırlar. Nəzərə alaq ki, Azərbaycan da strateji nöqteyi-nəzərdən olduqca əhəmiyyətli bir dövlətə çevrilib, hazırda onun ətrafında iki böyük müharibə gedir. Yaxın Şərqdə və Rusiya və Ukrayna arasında davam edən müharibələri nəzərdə tuturuq. Yəni, Azərbaycan ətrafında müşahidə edilən ciddi dəyişikliklərin fonunda 2024-cü ildə atdığı bütün addımları hərtərəfli hesablamağa məcbur idi. Bu mənada, ölkəmiz diplomatik yöndən hazırlıqlı tərpəndi".

*(ardı 15-ci səhifədə)*

## 2025-ci ildə də ölkənin maliyyə sabitliyi qorunacaq

Səhifə ⇨ 13

### Yeni ilin mübarək, Xankəndi!



Səhifə ⇨ 14

### TAP: "Köhnə qitə"nin yeni qaz marşrutu




Səhifə ⇨ 13

### "Böyük manipulyator"




Səhifə ⇨ 11

### İli necə qarşılasan, elə də yola salarsan



Səhifə ⇨ 7

# Prezident İlham Əliyev təyyarə qəzasında həlak olan ekipaj üzvlərinin vida mərasimində iştirak edib

**Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı–Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.**

*AZƏRTAC*








# Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib

**(əvvəli 1-ci səhifədə)**

Təbii olaraq ilkin versiyalar üzərində iş başladı. Əlbəttə, son versiya “qara qutu”lar açılandan sonra bəlli olacaq. Ancaq ilkin versiyalar da kifayət qədər əsaslıdır və faktlara söykənir. Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qroznı şəhərinin yaxınlığında xaricdən zədə almış və idarəetməni demək olar ki, itirmişdir. Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bu, təyyarəyə yetirilən birinci xətərdir. Eyni zamanda, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də böyük dərəcədə zədələnmişdir və dərhal, elə həmin gün bizim heyətimiz Aktau şəhərində artıq o videomaterialları təşkil edəndə ictimaiyyət də bu məsələ ilə məlumatlandırıldı. Füzelyajın dəlik-deşik olması, əlbəttə, göstərir ki, bilmirəm, ilkin olaraq kimin tərəfindən atılmış quş versiyası tamamilə gündəlikdən çıxarıldı. Ola bilər ki, təyyarə zədə alanda, zərbə alanda pilot bunu quşların təyyarə ilə toqquşması kimi qəbul edə bilərdi. Çünki, yəqin ki, heç kimin ağlına gələ bilməzdi ki, bizim üçün dost olan ölkədə bizim təyyarəyə yerdən atəş açılsın.

Ancaq təəssüflər olsun ki, Rusiyanın bəzi dairələri bu versiya üzərində dayanmağa üstünlük vermişdilər. Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir. Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz. Ona görə öz günahını etiraf etmək, dost ölkə sayılan Azərbaycandan vaxtında üzr istəmək və bunu ictimaiyyətə bildirmək – bütün bunlar görüləsi tədbirlər idi və addımlar idi. Əfsuslar olsun ki, birinci 3 gün ərzində biz Rusiyadan cəfəng versiyalardan başqa heç nə eşitməmişik.

Təbii ki, qəzanın təfərrüatları tam araşdırılacaq. Bundan mənim şübhəm yoxdur. Onu da bildirməliyəm ki, Azərbaycan ilk gündən beynəlxalq ekspertlərdən ibarət qrupun bu işlə məşğul olmasının tərəfdarı idi. Rusiya tərəfi rəsmi qaydada bizə təklif etmişdi ki, Dövlətlərarası Aviasiya Komitəsi bu işi araşdırsın. Biz isə qəti şəkildə bundan imtina etdik. Səbəb də aydındır. Çünki sirr deyil ki, bu qurum daha çox Rusiya məmurlarından ibarətdir və qurumun başında Rusiya vətəndaşları dayanır. Burada obyektivlik amilləri tam təmin edilməyə bilərdi. Əgər qəza baş verəndən dərhal sonra biz Rusiya tərəfindən ədalətli və adekvat addımlar görsəydik, bəlkə də, buna etiraz etməzdik. Amma biz gördük ki, burada məsələni ört-basdır etmək cəhdləri göz qabağındadır.

Ona görə biz həm Qazaxıstan tərəfi ilə sıx təmasda olarkən bu mövqeyimizi bildirdik, həm də Rusiya tərəfinə mövqeyimizi bildirdik ki, ancaq beynəlxalq ekspertlərdən ibarət işçi qrup yaradılmalıdır və



yaradılmışdır. Orada təyyarənin istehsalçı şirkəti – “Embraer”in nümayəndələri, Braziliyanın müvafiq qurumlarının nümayəndələri, Azərbaycan, Qazaxıstan və Rusiyanın, o cümlədən Dövlətlərarası Aviasiya Komitəsinin nümayəndələri də var. Ancaq aparıcı rollarda yox, sadəcə olaraq, işçi qrupun tərkibində olan üzvlər kimi. Yenə də deyirəm, “qara qutu”lar açılandan sonra və daha detallı məlumat əldə etdiyimiz halda məsələnin tam təfərrüatları üzə çıxacaq və bu gün hələ ki, sual kimi qalan bir çox məsələlərə aydınlıq gətiriləcək. Məsələn, təyyarə nə üçün Qroznı şəhərinə enə bilmədi? Radioelektron mübarizənin təsiri nə dərəcədə təyyarənin idarə olunmasına təsir göstərmişdir? Havada endirilən zərbə və təyyarənin yanında olan partlayışın nəticələri nə dərəcədə təsirli oldu?

Çünki onu da bildirməliyəm ki, bu, açıq-aydın faktı inkar etmək və burada gözdən pərdə asmaq cəhdləri həm cəfəngiyyatdır, həm də ağılsızlıqdır. Çünki xoşbəxtlikdən ekipajın qəhrəmanlığı sayəsində elə hadisə baş verdi ki, təyyarə enə bildi, qəza enişi olsa da, təyyarə enə bildi. Sərnişinlərin bir çoxu xilas edildi, onların ifadələri var. Təyyarəni deşən qəlpələrin sərnişinlərə və ekipaj üzvlərinə yetirdiyi xəsarət göz qabağındadır. Bunu hansısa quşlarla bağlamaq, yaxud da ki, qaz balonunun partlaması kimi qələmə vermək həm ağılsızlıqdır, həm də vicdansızlıqdır.

Ona görə də “qara qutu”lar açılandan sonra bilinəcək ki, nə üçün təyyarə enə bilməyib? Dəqiq nə vaxt təyyarəyə yerdən atəş açılıb? Nə üçün yaxında olan hava limanlarına təyyarə eniş cəhdi etməyib, daha yaxın Minvod və Mahaçqala hava limanları idi. Təyyarə Aktauya göndərildimi, yoxsa bu, obyektiv seçim idi? Müxtəlif fərziyyələr var. Bəziləri hesab edir ki, təyyarə bilərəkdən yerdəki xidmət tərəfindən, Qroznı tərəfindən göndərildi ki, çünki təyyarə artıq idarəolunmaz vəziyyətdə idi və ehtimal böyük idi ki, təyyarə dənizə düşəcək. Belə olan halda, ört-basdır cəhdləri uğurla nəticələnəcək və dırnaqarası quş versiyası əsas versiya kimi təqdim ediləcək.

Bəzi mütəxəssislərin fikirlərinə görə, Aktau ona görə seçilmişdir ki, orada açıq məkandır və yaşayış yerləri hava limanından uzaqdır və təyyarə ekipajı fərz edə bilərdi ki, bu, qəza enişi olacaq və bunun üçün daha uyğun yer seçmişdi. Ancaq digər tərəfdən, yaxın hava limanları olan halda, təyyarə idarəolunmaz vəziyyətdə olan halda daha uzaq məsafəyə, özü də dənizin üzərindən uçmaq daha riskli idi. Yəni, bütün bu suallara hələ ki, cavab yoxdur.

Biz Azərbaycan tərəfi və şəxsən mən maksimum ədalətli olmağa çalışırıq. Biz hansısa tam aydın olmayan məsələləri, bu məsələlər aydınlaşmadan bu barədə fikir söyləmək istəmirik. Ancaq açıq-aydın olan məsələlərdə biz tam qətiyyətlə öz fikrimizi deməliyik, deyirik və deyəcəyik. Mən qəza baş verən gün burada – hava limanında öz çıxışımda söylədim ki, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu məsələ ilə, bu istintaqın gedişatı ilə bağlı məlumatlandırılacaq və məlumatlandırılır.

**– Cənab Prezident, bəs təyyarə ekipajının fəaliyyətini necə qiymətləndirirsiniz?**

– Çox yüksək. Bu gün mən vida mərasimində iştirak etdim, həlak olan ekipaj üzvlərinin yaxınlarına başsağlığı verdim. Bu gün ekipaj üzvlərinin təltifi ilə bağlı mənim sərəncamım olacaq. Mən onların fəaliyyətini, peşəkarlığını, fədakarlığını çox yüksək qiymətləndirirəm. Pilotlar və bütün ekipaj böyük qəhrəmanlıq göstərdilər. Pilotlar həm peşəkarlıq, həm qəhrəmanlıq göstərmişlər ki, idarəedilməz vəziyyətdə olan təyyarəni müxtəlif üsullarla idarə etsinlər. Baxmayaraq, təbii ki, pilotlar təcrübəli pilotlar idi və bilirdilər ki, onlar bu qəza enişindən sağ çıxa bilməyəcəklər. Ancaq sərnişinləri xilas etmək üçün onlar maksimum böyük qəhrəmanlıq göstərmişlər və məhz bunun nəticəsində təyyarə qəzasında sağ qalanlar var. Məhz bunun nəticəsində füzelyajın bir hissəsi yanmayıb və məhz bunun nəticəsində bu gün biz tam açıq-aydın deyə bilərik ki, təyyarə Rusiya tərəfindən vuruldu. Bax bu, faktdır və bu faktı heç kim dana bilməz. Yenə də biz demirik ki, bu, qəsdən edildi, amma bu, edildi.

Pilotlar və ekipaj üzvləri – onlar həm peşəkarlıq, həm soyuqqanlılıq göstərmişlər. Xüsusilə mən qadın ekipaj üzvlərini qiymətləndirməliyəm. Onlar özləri stres vəziyyətində idilər. Ancaq sərnişinləri sakitləşdirmək, təyyarənin içində xaos vəziyyəti yaratmamaq üçün görün, onlar nə qədər böyük insani davranış göstərmişlər. Onların fəaliyyəti, yenə də deyirəm, Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndiriləcək. Allah ölən ekipaj üzvlərinə və bütün həlak olanlara rəhmət eləsin və biz sağ qalanlara Allahdan şəfa diləyirik. Sağ qalanların böyük hissəsi artıq Bakıdadır. Onlar Qazaxıstanda dərhal müalicə almışlar. Bəziləri hələ ki, müalicə alır və imkan olan kimi onlar da Azərbaycana təxliyə ediləcəklər.

**– Cənab Prezident, Siz Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə zəng etdiniz. Müzakirə olunan məsələlər barədə fikrinizi bilmək istərdik. Ümumiyyətlə, məsələ ilə bağlı birgə fəaliyyət aparan Azərbaycan və Qazaxıstan hökumətləri rəsmilərinin bu birgə fəaliyyətini necə qiymətləndirirsiniz?**

– Bəli, mən, ilk növbədə, Prezident Tokayevə minnətdarlığımı ifadə etmək üçün zəng etdim. Çünki biz bilirdik və məlumat əldə etmişdik ki, qəza baş verən kimi Qazaxıstan xilasediciləri dərhal hadisə yerinə yetişdilər və insanları o dağılmış füzelyajdan çıxartmağa başlamışdılar. Öz həyatlarını risk altına atmışdılar. Çünki onlar bilmirdilər ki, növbəti partlayış olacaq, yoxsa yox. Çünki təyyarənin bir hissəsi yanmışdı və bu hissə də yana bilərdi. Amma buna baxmayaraq, onlar da əsl qəhrəmanlıq göstərmişdilər. Eyni zamanda, həkim personalının fəaliyyəti də çox qiymətli idi. Çünki yaralı sərnişinlər dərhal tibb məntəqələrinə aparıldılar və buna görə də Prezident Tokayevə mən təşəkkürümü bildirdim.

Qazaxıstanlı qardaşlarımızın, bacılarımızın həmrəylik nümayişi də mən bilirəm ki, Azərbaycan xalqının qəlbində çox böyük iz buraxmışdır. Adi vətəndaşlar bizim Aktaudakı konsulluğa gələrək gül qoydular, öz münasibətlərini bildirdilər, bizimlə həmrəy olduqlarını bildirdilər. Əsl dostluq, qardaşlıq belə olar. Eyni zamanda, mən Prezident Tokayevlə söhbət zamanı Azərbaycanın istintaqla bağlı mövqeyini də bildirdim və bax, sizə dediyim məsələləri də onun diqqətinə çatdırdım ki, biz beynəlxalq ekspertizanın tərəfdarıyıq və heç cür bu məsələni Dövlətlərarası Aviasiya Komitəsinin sərəncamına verə bilmərik. Bu mövqe də anlayışla qarşılandı. Təbii olaraq, bizim dövlət qurumlarımızın nümayəndələri, komissiyanın üzvləri və rəhbərləri, prokurorluq orqanlarının nümayəndələri daim təmasdadırlar. Qazaxıstan da öz növbəsində dövlət komissiyası yaratmışdır və Prezident Tokayev söhbət zamanı bu barədə mənə məlumat vermişdi. Onlar da, təbii olaraq istəyirlər və çalışırlar ki, məsələ tam təfərrüatları ilə açılsın.

Eyni zamanda, mən Prezident Tokayevə də başsağlığı verdim, çünki qəza nəticəsində 6 Qazaxıstan vətəndaşı həlak olmuşdu. O da mənə başsağlığı vermişdi. Yəni, bu nə qədər ağır hadisə olsa belə, eyni zamanda, bir sınaq məsələsi idi. Yəni, bu sınaqdan kim necə çıxacaq? Mən şadam ki, yenə də bu faciəyə baxmayaraq, görürəm və əminəm ki, Qazaxıstanda da eyni fikirdədirlər. Bizim dostluğumuz, qardaşlığımız bu ağır vəziyyətdən sonra daha da gücləndi.

**– Qəzadan sonra AZAL şirkəti Rusiyanın bəzi şəhərlərinə uçuşları dayandırdı. Bəs, bu qərarın verilməsi hansı zərurətdən irəli gəldi və hazırda işlər necə gedir?**

– Bu göstərişi mən vermişəm və bunun əsas səbəbi təbii ki, təhlükəsizlik məsələləridir. Çünki Rusiyanın bir çox şəhərlərində vaxtaşırı hava məkanı bağlanır, orada xüsusi əməliyyat rejimi tətbiq edilir. Onlar buna “kavyor əməliyyatı” deyirlər və birinci sualda dediyim məsələlərə qayıdarkən onu da bildirməliyəm. Bir şeyin də üstü açılmalıdır ki, o “kavyor əməliyyatı” nə vaxt elan edildi? Çünki bizdə olan məlumata görə, artıq təyyarəmiz xarici təsirə məruz qaldıqdan sonra o “kavyor əməliyyatı” elan edilmişdi. Yəni, əgər bu belədirsə, bir daha göstərir ki, yerli xidmətlər bu məsələni ört-basdır etmək üçün etdilər.

AZAL-ın uçuşlarına gəldikdə, AZAL Rusiyanın yeddi şəhərinə öz uçuşlarını dayandırdı, müddətsiz olaraq. Eyni zamanda, biz Rusiya aviaşirkətlərinin üç Rusiya şəhərindən Azərbaycana uçuşlarını da dayandırmışıq. Deməli, toplam 10 şəhərlə bizim hava bağlantımız indi dayandırılıb və yenə də deyirəm, burada, ilk növbədə, təhlükəsizlik məsələləri ön plandadır. Biz sərnişinlərimizin təhlükəsizliyini həmişə ön sırada olan məsələ kimi qəbul etmişik və beləliklə, bu vəziyyət elan edildi. Biz nəyi ediriksə açıq-aydın edirik və yenə də deyirəm, bu qərar qəbul edildi və nə vaxt bu uçuşlar bərpa ediləcək, yoxsa yox, xüsusilə Qroznı şəhərinə bərpa ediləcək, yoxsa yox? Çox güman ki, yox. Amma bunu həyat göstərər və Rusiya hava məkanının təhlükəsizlik məsələləri də əlbəttə ki, nəzərə alınacaqdır.

**– Cənab Prezident, bəs, ümumilikdə, Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələbləri nədən ibarətdir?**

– Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur.

Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək.

**– Çox sağ olun, cənab Prezident. Suallarımıza ətraflı şəkildə cavab verdiyiniz üçün minnətdarıq.**

– Sağ olun.

# "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 786 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci hissə üzrə:

1.1. 1.1-ci bənd üzrə:

1.1.1. birinci abzasa "(bundan sonra – qeyri-yaşayış binası)" sözlərindən sonra "və nəqliyyat, rabitə, energetika və digər mühəndis-kommunikasiya obyektlərinin (bundan sonra – infrastruktur obyekti)" sözləri əlavə edilsin;

1.1.2. 1.1.1-ci yarımbəndə hər dörd halda "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə olunsun və həmin yarımbənddə "2025-ci il" sözləri "2026-cı il" sözləri ilə əvəz edilsin;

1.1.3. 1.1.2-ci yarımbəndə birinci, üçüncü və dördüncü hallarda "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə olunsun və həmin yarımbənddə "onun" sözü "onların" sözü ilə əvəz edilsin;

1.1.4. 1.1.3-cü yarımbənd üzrə:

1.1.4.1. 1-ci abzasda "15 (on beş)" sözləri "30 (otuz)" sözləri ilə, "isə," sözü ", habelə infrastruktur obyektinə münasibətdə" sözləri ilə əvəz olunsun və həmin abzasa hər iki halda "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə edilsin;

1.1.4.2. 2-ci abzasa "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə edilsin;

1.1.5. 1.1.4-cü yarımbəndə "binası" sözündən sonra "(infrastruktur obyekti)" sözləri əlavə edilsin;

1.1.6. 1.1.5-ci yarımbəndin 1-ci abzasına "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə edilsin;

1.1.7. 1.2-ci (hər iki halda) bəndə, 1.4-cü bəndin birinci abzasına, 1.4.1-ci, 1.4.2-ci yarımbəndlərə, 1.5-ci və 1.6-cı (hər iki halda) bəndlərə ismin müvafiq hallarında "binası" sözündən sonra ismin müvafiq hallarında "(infrastruktur obyekti)" sözləri əlavə edilsin;

1.2. 1.9-cu bəndə "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə edilsin.

**2.** 3.1-ci və 3.4-cü bəndlərə "binalarının" sözündən sonra "(infrastruktur obyektlərinin)" sözləri əlavə edilsin.

**3.** 4-cü hissə üzrə:

3.1. 4.1-ci bəndə "binasının" sözündən sonra "(infrastruktur obyektinin)" sözləri əlavə edilsin;

3.2. 4.2-ci və 4.3-cü bəndlərə "binalarının" sözündən sonra "(infrastruktur obyektlərinin)" sözləri əlavə edilsin.

**4.** 5-ci hissə üzrə:

4.1. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. bu Fərmanın 1.1-ci bəndinə uyğun olaraq istismarına icazə verilmiş qeyri-yaşayış binasının və infrastruktur obyektinin yerləşdiyi torpaq sahəsi üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınmasını hüquq sahibinin müraciəti əsasında "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddətdə təmin etsin;";

4.2. 5.2-ci bəndə ismin müvafiq hallarında "binaları" sözündən sonra ismin müvafiq hallarında "(infrastruktur obyektləri)" sözləri əlavə edilsin.

**5** 6-cı hissənin birinci abzasında "Agentliyinin tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyəti" sözləri "Agentliyi" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. beynəlxalq təcrübə və müasir texnoloji həllər nəzərə alınmaqla magistral boru kəmərlərinin, yüksəkgərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin, suların və digər mühafizə zonalarının hüdudlarının dəyişdirilməsi ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**7.** Dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər dövlət vəsaitləri hesabına inşa edilmiş və 2023-cü il iyunun 1-dək tikintisi başa çatmış infrastruktur obyektləri ilə bağlı "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 1.1.1-ci yarımbəndinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə müraciət edilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

# "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 124-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 124-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 20.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Məcəllənin 3.0.10-1-ci maddəsində "proqram" dedikdə "Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 156 nömrəli Sərəncamının 1-ci hissəsində göstərilmiş Yüksəkixtisaslı Miqrant Proqramı nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 124-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 230 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.2-ci bəndə "Məcəllənin" sözündən sonra "20.1-ci maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

3.2. 5.20-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.21-ci bənd əlavə edilsin:

"5.21. həmin Məcəllənin 3.0.10-1-ci maddəsində "proqram" dedikdə "Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 156 nömrəli Sərəncamının 1-ci hissəsində göstərilmiş Yüksəkixtisaslı Miqrant Proqramı nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

# Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin funksiyalarının Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ötürülməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində zəruri tədbirlər görsün;

1.2. üç ay müddətində:

1.2.1. bu sərəncamın 1-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.2. bu Sərəncamın 1-ci hissəsinə uyğun olaraq, müvafiq səlahiyyətin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ötürülməsi ilə əlaqədar dövlət əmlakı ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Dekabrın 29-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın dekabrın 21-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunması məsələsinə baxılıb. MSK Seçki Məcəlləsinin tələblərini əsas götürərək, 1 saylı Şərur–Sədərək, 3 saylı Babək–Şahbuz–Kəngərli, 7 saylı Səbail, 8 saylı Binəqədi birinci, 16 saylı Yasamal ikinci, 20 saylı Nərimanov ikinci, 46 saylı Sumqayıt beşinci, 47 saylı Sumqayıt–Abşeron–Qaradağ, 51 saylı Şirvan, 56 saylı Şabran–Xaçmaz, 66 saylı Saatlı, 68 saylı Sabirabad–Şirvan, 72 saylı Cəlilabad kənd, 81 saylı İmişli, 86 saylı Ağcabədi, 95 saylı Zərdab–Kürdəmir–Ucar, 112 saylı Zaqatala və 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edib.

Media subyektləri nümayəndələrinin də iştirak etdiyi iclasda, həmçinin bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə məlumat verilib, namizədlərin irəli sürülməsi, qeydə alınması və müşahidəçilərin akkreditasiyası ilə bağlı statistik göstəricilər elan olunub və cari məsələlərə baxılıb.

***XQ***

# Azərbaycan və Rusiya prezidentlərinin telefon danışığı

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı dövlət başçıları "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı məsələlərin müzakirəsini davam etdiriblər.

**Prezidentin Mətbuat Xidməti**

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 253-1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948; Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 244 nömrəli və 19 dekabr tarixli 253 nömrəli Fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.19-cu bənddə "253-1.2.1" rəqəmləri "253-1.2" rəqəmləri ilə əvəz edilsin;

3.1.2. 4.24-1-ci bənd ləğv edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.11-ci bənddən "274," rəqəmləri çıxarılsın;

3.2.2. 5.20-ci bənddə "və 272-ci" sözləri ", 272-1, 274 və 274-1-ci" sözləri ilə əvəz edilsin;

3.2.3. aşağıdakı məzmunda 5.22-1-ci bənd əlavə edilsin:

"5.22-1. həmin Məcəllənin 272-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və ya Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi baxır;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**1.** Azərbaycan Respublikası Milli Məclisi yanında Toponimiya komissiyası aşağıdakı tərkibdə təşkil edilsin:

| | |
|---|---|
| Akimova Elnarə Seydulla qızı | Milli Məclisin deputatı, filologiya üzrə elmlər doktoru |
| Cəfərov Nizami Qulu oğlu | Azərbaycan Atatürk Mərkəzinin müdiri, akademik |
| Ələkbərov Əziz Yusif oğlu | Milli Məclisin deputatı, filologiya üzrə fəlsəfə doktoru |
| Həbibbəyli İsa Əkbər oğlu | AMEA-nın prezidenti, akademik |
| Hüseynova Mahirə Nağı qızı | Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, filologiya elmləri doktoru |
| İsgəndərov Anar Camal oğlu | Milli Məclisin Elm və təhsil komitəsinin sədri, tarix elmləri doktoru, professor |
| İsmayılov Elçin Mirhüseyn oğlu | AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Toponimika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent |
| Quliyev Musa İsa oğlu | Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, tibb üzrə fəlsəfə doktoru |
| Məmmədov Hikmət Baba oğlu | Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor |
| Nağısoylu Möhsün Zellabdin oğlu | AMEA-nın müşaviri, akademik |
| Rüstəmxanlı Sabir Xudu oğlu | Xalq şairi, filologiya üzrə elmlər namizədi |
| İskəndərov Cavid Nizami oğlu | Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin inzibati ərazi və bələdiyyə məsələləri üzrə qanunvericilik sektorunun müdiri. |

**2.** Komissiyanın işinin təşkili Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinə tapşırılsın.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 603.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri həyata keçirirlər;

1.2. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun 15-1-ci maddəsinin birinci, ikinci (hər iki halda) və üçüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirir;

1.3. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.15-ci maddəsində, 3.5-ci maddəsinin birinci cümləsində, 6.1-ci maddəsində (ikinci halda), 6.2-ci maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində, 6.2-1-ci maddəsinin birinci cümləsində, 6.2-2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 6.5-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 7.3-cü və 12.3-cü maddələrinin ikinci cümlələrində, 12.4-1-ci maddəsində (hər iki halda), 15.1-ci maddəsinin birinci və dördüncü cümlələrində, 15.2-1-ci maddəsinin birinci cümləsində, 17.1.4-cü (hər iki halda), 21.3-cü, 21.6-cı, 21.8-ci və 21.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 6.1-ci maddəsində, 6.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 12.3-cü maddəsinin ikinci cümləsində, 12.4-1-ci maddəsində (ikinci halda) və 15.1-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 2.0.15-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti nəzərdə tutulur;

1.6. həmin Qanunun 3.5-ci maddəsinin birinci cümləsində, 6.2-ci maddəsinin birinci (birinci halda) və üçüncü cümlələrində, 6.2-2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 6.5-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 7.3-cü maddəsinin ikinci cümləsində, 12.4-1-ci maddəsində (birinci halda), 15.1-ci maddəsinin dördüncü cümləsində və 17.1.4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;

1.7. həmin Qanunun 6.2-1-ci və 15.2-1-ci maddələrinin birinci cümlələrində, 17.1.4-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 21.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri nəzərdə tutulur;

1.9. həmin Qanunun 21.6-cı, 21.8-ci və 21.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.1.2. həmin Qanunun 12.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sisteminin Əsasnaməsini altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti:

3.1. sahibi və operatoru olduğu vahid elektron informasiya sistemindən səmərəli istifadə imkanlarının artırılması məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə texniki və təkmilləşdirici tədbirlər görsün;

3.2. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə sahibi və operatoru olduğu vahid elektron informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

**4.** "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I); 2024, № 1, maddə 34, № 2, maddə 153; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 260 nömrəli Fərmanı) 2-ci hissəsinin ikinci abzasından "171-ci maddəsinin "a" bəndinin dördüncü abzasında," sözləri çıxarılsın.

**5.** "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 13 dekabr tarixli 328 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1097 (Cild I) aşağıdakı məzmunda 1.8-1-ci bənd əlavə edilsin:

"1.8-1. həmin Qanunun 15-1-ci maddəsinin birinci, ikinci (hər iki halda) və üçüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirir;".

**6.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8.18-ci bəndin ikinci abzasına "çağırılan" sözündən sonra ", habelə müddətli həqiqi hərbi xidmətə və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan boyun qaçıran" sözləri əlavə edilsin;

6.2. 11.10-cu bəndə "vəsiqələri" sözündən sonra ", o cümlədən həmin şəxslərin sərhədkeçmə nəzarəti və qeydiyyatı" sözləri əlavə edilsin.

**7.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 260 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 5-ci hissə üzrə:

7.1.1. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.2-ci, 2.0.15-ci maddələrində, 3.5-ci maddəsinin birinci cümləsində, 6.1-ci maddəsində (ikinci halda), 6.2-ci maddəsinin birinci (hər iki halda) və üçüncü cümlələrində, 6.2-1-ci maddəsinin birinci cümləsində, 6.2-2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 6.5-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 7.3-cü maddəsinin ikinci cümləsində, 8.6-cı maddəsində (birinci halda), 12.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 12.4-cü (birinci halda) və 12.4-1-ci (hər iki halda) maddələrində, 15.1-ci maddəsinin birinci və dördüncü cümlələrində, 15.2-1-ci maddəsinin birinci cümləsində, 15.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 17.1.4-cü (hər iki halda), 21.3-cü, 21.6-cı, 21.8-ci, 21.9-cu, 31.1-ci, 33.4-cü, 34.5-ci (ikinci halda), 35.2-ci, 40.1-ci, 45.4-cü maddələrində, 45.5-ci maddəsinin ikinci (ikinci halda) və üçüncü (ikinci halda) cümlələrində və 45.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

7.1.2. 5.2-ci bənddən "6.2-ci maddəsində ikinci halda," sözləri çıxarılsın;

7.1.3. 5.2-1-ci bəndə "həmin Qanunun" sözlərindən sonra "6.1-ci maddəsində, 6.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 12.3-cü maddəsinin ikinci cümləsində, 12.4-1-ci maddəsində (ikinci halda), 15.1-ci maddəsinin birinci cümləsində və" sözləri əlavə edilsin;

7.1.4. 5.2-2-ci bənddə "və 7.3-cü maddələrində" sözləri "maddəsində və 7.3-cü maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

7.1.5. 5.3-cü bənddə "və 6.5-ci maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

7.1.6. 5.4-cü bənddən "6.2-ci maddəsində birinci halda,", "6.5-ci maddəsində birinci halda," və "15.1-ci," sözləri çıxarılsın;

7.1.7. 5.13-cü bənddə "8.6-cı maddəsində və 15.3-cü maddəsinin birinci cümləsində" sözləri "6.2-1-ci maddəsinin birinci cümləsində, 8.6-cı maddəsində, 15.2-1-ci və 15.3-cü maddələrinin birinci cümlələrində, 17.1.4-cü maddəsində (ikinci halda)" sözləri ilə əvəz edilsin;

7.1.8. aşağıdakı məzmunda 5.13-1 – 5.13.4-cü bəndlər əlavə edilsin:

"5.13-1. həmin Qanunun 2.0.15-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti nəzərdə tutulur;

5.13-2. həmin Qanunun 3.5-ci maddəsinin birinci cümləsində, 6.2-ci maddəsinin birinci (birinci halda) və üçüncü cümlələrində, 6.2-2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 6.5-ci maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 7.3-cü maddəsinin ikinci cümləsində, 12.4-1-ci maddəsində (birinci halda), 15.1-ci maddəsinin dördüncü cümləsində və 17.1.4-cü maddəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;

5.13-3. həmin Qanunun 21.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri nəzərdə tutulur;

5.13-4. həmin Qanunun 21.6-cı, 21.8-ci və 21.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.";

7.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.38-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.0.38. vahid elektron informasiya sistemi vasitəsilə çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatını və uçotunu aparmaq, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət vermək və çağırışdan azad etmək, onların müraciətlərini qəbul etmək və cavablandırmaq, hərbi xidmətlə, eləcə də hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə çağırışla bağlı sənədləri (qərar, arayış və sair) elektron formada təqdim etmək, həmçinin hərbi-nəqliyyat vasitələrinin uçotunu aparmaq;".

**8.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 9, maddə 1000) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nın 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. adına "Əlillik" sözündən sonra "və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq yekun tibbi müayinənin aparılması" sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq yekun tibbi müayinənin aparılması".

**9.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 634 (Cild I); 2024, № 4, maddə 385, № 6 (I kitab), maddə 654, № 8, maddə 943, № 10, maddə 1140) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.3.5-1-ci yarımbəndə "şəhadətləndirilməyə" sözündən sonra ", o cümlədən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq aparılan yekun tibbi müayinəyə" sözləri əlavə edilsin;

9.2. aşağıdakı məzmunda 2.7-1-ci və 2.7-2-ci bəndlər əlavə edilsin:

"2.7-1. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.2.2–15.2.5-ci maddələrində nəzərdə tutulmuş qərarların qəbul edilməsi üçün həmin Qanunun 15.3-cü maddəsinə əsasən barələrində yekun tibbi müayinə aparılmalı olan müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi müayinəsinin nəticələrinə dair sənədlər, habelə bu Əsasnamənin 2.7-2-ci bəndi nəzərə alınmaqla həmin şəxslərin tibbi şəhadətləndirilməsinə dair yekun qərarlar üzrə məlumatları onların rəsmiləşdirildiyi gün "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsisteminə daxil edir.

2.7-2. Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq aparılan yekun tibbi müayinəyə dair sənədlər üzrə məlumatları onların rəsmiləşdirildiyi gün "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsisteminə daxil edir.".

**10.** "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718 (Cild I); 2024, № 6 (I kitab), maddə 660) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 7.2.2-ci yarımbənd ləğv edilsin;

10.2. 7.2.3-cü yarımbənddə "1-ci və 2-ci" sözləri "1–4-cü" sözləri ilə əvəz edilsin;

10.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.3.1. aşağıdakı məzmunda 3.1.14-2-ci yarımbənd əlavə edilsin:

"3.1.14-2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq yekun tibbi müayinənin aparılması sahəsində işin optimallaşdırılması barədə Nazirliyə təkliflər vermək;";

10.3.2. 4.4-cü bənddə "4 (dörd)" sözləri "5 (beş)" sözləri ilə, "3 (üç)" sözləri "4 (dörd)" sözləri əvəz edilsin.

**11.** "Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 371 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 11, maddə 1239 (Cild I) 1-ci hissəsində "1990" rəqəmləri "1995" rəqəmləri ilə, "35-dək" sözləri "30-dək" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin çoxlu sayda insanın həlak olması ilə nəticələnən faciəvi qəzası barədə xəbəri dərin hüznlə qarşıladım. Əminəm ki, bu dəhşətli hadisəyə səbəb olan bütün hallar hərtərəfli araşdırılacaq.

Bu kədərli məqamda yaxınlarını itirənlərə və bütün Azərbaycan xalqına Çex Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

**Hörmətlə,**

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

*

**Əziz İlham Heydər oğlu!**

AZAL aviaşirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində insanların faciəvi şəkildə həlak olması xəbərini Belarus Respublikasında dərin hüzn və kədərlə qarşıladılar.

Belaruslular Azərbaycan xalqına üz vermiş fəlakətin ağrı-acısını və əvəzolunmaz itkinin kədərini bölüşürlər.

Hörmətli İlham Heydər oğlu, belə bir ağır vaxtda Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi dəstək sözlərimi qəbul etməyinizi xahiş edir, xəsarət alanlara isə tezliklə sağalmalarını arzulayıram.

**Hörmətlə,**

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Aktau şəhəri yaxınlığında baş verən faciəvi təyyarə qəzası nəticəsində çox sayda insanın həlak olması və yaralanması barədə xəbəri dərin hüznlə qarşıladıq.

İcazə verin, bu faciəvi hadisə ilə əlaqədar Körfəz Əməkdaşlıq Şurası adından Azərbaycan hökumətinə və xalqına, o cümlədən həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verim.

Biz bu ağır günlərdə Azərbaycan hökumətinin və xalqının yanındayıq, yaralananların tezliklə sağalmalarını diləyirik. Azərbaycana davamlı sülh və əmin-amanlıq arzulayırıq.

**Hörmətlə,**

***Casim Məhəmməd ƏL-BUDEYVİ,***
***Körfəz Əməkdaşlıq Şurasının Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu!**

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində baş verən faciə ilə əlaqədar peterburqlular adından həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Onlara bu əvəzolunmaz itkinin ağrı-acısının öhdəsindən gəlmək üçün mənəvi güc, mətanət və dözüm arzulayır, bütün yaralananlara tezliklə şəfa tapmalarını diləyirəm.

Bu ağır günlərdə dost Azərbaycan xalqının dərdinə şərik olur və dəstəyimi ifadə edirəm.

**Hörmətlə,**

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının***
***Sankt-Peterburq şəhərinin qubernatoru***

*

**Hörmətli İlham Heydər oğlu!**

Qazaxıstanın Aktau şəhəri yaxınlığında təyyarə qəzası nəticəsində Azərbaycan vətəndaşlarının həlak olması ilə əlaqədar Rusiyanın yevangelist xristianlar ittifaqı adından və şəxsən öz adımdan ən dərin hüznlə başsağlığımı ifadə edirəm.

Biz dindarlar belə ağır məqamlarda birliyin və dualarla dəstək verilməsinin vacibliyini daha çox anlayırıq. Həlak olanların yaxınları və xəsarət alanlar üçün kilsələrimizdə və evlərimizdə dualar edirik. Uca Yaradan həyatını itirənlərin ailələrinə səbir, yaralananlara şəfa versin.

Sizinlə birlikdə kədərlənirik, dualarımız xalqınızladır.

Tanrı şəfaya, köməyə, qayğıya və təsəlliyə ehtiyacı olan hər kəsin yanında olsun!

**Hörmətlə,**

***Sergey RYAXOVSKİ,***
***Rusiya Federasiyasının baş yepiskopu,***
***Rusiya Federasiyası İctimai Palatasının üzvü,***
***Rusiya Prezidenti yanında Dini Birliklərlə***
***Qarşılıqlı Fəaliyyət Şurasının üzvü***

*

**Hörmətli İlham Heydər oğlu!**

Dekabrın 25-də baş verən təyyarə qəzası ilə əlaqədar Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Azərbaycan xalqına Ukrayna müsəlmanları, Ukrayna Müsəlmanları Ruhani İdarəsinin kollektivi adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Uca Yaradandan yaralıların tezliklə sağalmalarını diləyirik. Allah ölənlərə rəhmət eləsin, doğmalarına və yaxınlarına səbir versin.

Tanrı ölkələrimizə sülh, firavanlıq və rifah nəsib etsin.

**Hörmətlə,**

***Şeyx Əhməd TƏMİM,***
***Ukrayna Müsəlmanları Ruhani İdarəsinin sədri,***
***Ukraynanın ali müftisi***

*

**Zati-aliləri!**

"Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə bağlı xəbər bizi dərindən kədərləndirdi və sarsıtdı. Bu qəza nəticəsində həyatını itirən insanlara görə kədərimizi ifadə edirik.

Belə bir çətin dövrdə bizim düşüncələrimiz və dualarımız həlak olanların ailələrinin və Azərbaycan xalqının yanındadır. Qəza zamanı yaralananların tezliklə sağalmalarını diləyirik.

Azərbaycana istənilən dəstəyi göstərməyə hazır olduğumuza əmin olmağınızı xahiş edirəm.

**Hörmətlə,**

***Roland PRAYS,***
***Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru***

*

**Hörmətli cənab Prezident!**

Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qazaxıstanda qəzaya uğraması nəticəsində həlak olanların yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verirəm.

Bu ağır itkinin kədərini bölüşürəm, yaralananların tezliklə sağalmalarını arzulayıram.

**Hörmətlə,**

***Mais MƏMMƏDOV,***
***Rusiyanın Novosibirsk vilayəti Qanunvericilik***
***Məclisinin sədr müavini***

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə

# Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti

**Əziz soydaşlar, dəyərli həmvətənlər!**

Sayına və intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanmağa haqqı çatan qüdrətli Azərbaycan xalqını milli-mənəvi bütövləşməyə çağırış günü münasibəti ilə hər birinizi səmimi qəlbdən salamlayırıq. Tariximizə və mədəniyyətimizə dərin kök salmış Həmrəylik Günü dil, əqidə, əməl birliyimizin rəmzinə çevrilmişdir. Biz bu günü qeyd edərkən xalqımızın əsrlər boyu yaratdığı milli dəyərlərə sadiqliyimizi, onları daha da artıraraq gələcək nəsillərə ötürmək əzmində olduğumuzu ifadə edirik.

Bəşər sivilizasiyasının inkişafının indiki mərhələsi dünyanın siyasi mənzərəsinin sürətlə dəyişməsi, millətlərin tarix səhnəsində oynadıqları rolların keyfiyyətcə yeniləşməsi ilə fərqlənir. Həyat sübut edir ki, etnik-siyasi baxımdan mütəşəkkil qüvvəyə çevrilə bilməyən xalqlar ümumdünya inkişafında tutduqları mövqeləri tədricən itirir, getdikcə zəifləyərək öz hüquq və mənafelərini həyata keçirmək imkanlarından məhrum olurlar.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə otuz üç il öncə başlanmış milli-mənəvi bütövləşmə hərəkatı getdikcə daha geniş vüsət alır. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız ümummilli məqsədlərimizin gerçəkləşməsi naminə milli birliyin misilsiz əhəmiyyət daşıdığını dərindən dərk edirlər. Azərbaycan icmaları və diaspor təşkilatları inkişaf edib möhkəmlənir, soydaşlarımızın və həmvətənlərimizin siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işində yaxından iştirak edirlər.

Dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin güclənməsinə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına qayıtmasına dəstək verilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Ötən bir ildə Azərbaycan Respublikası yeni böyük uğurlara nail olmuşdur. Ölkəmizin siyasi, iqtisadi və hərbi potensialı daha da artırılmışdır. Əhalinin yaşayış səviyyəsi yüksəlmişdir. Dövlətimizin beynəlxalq mövqeləri daha da möhkəmlənmişdir.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edildikdən sonra ölkəmizin bütün ərazisində azad və ədalətli Prezident və parlament seçkilərinin keçirilməsi dövlətimizin sülh və sabitlik şəraitində demokratik inkişafında yeni mərhələ açmışdır.

Dünya miqyaslı tədbir olan COP29 konfransının Bakıda keçirilməsi ölkəmizin iqlim dəyişmələri probleminin həlli üçün göstərilən beynəlxalq səylərdə liderliyini təsdiq etmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Qahirədə keçirilən Zirvə görüşündə Azərbaycanın yekdil qərarla D-8 təşkilatına üzv qəbul edilməsi dövlətimizin xarici siyasətinin yeni böyük uğuru olmuşdur.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının ümid və istinad yeri, ata-baba yurdu olduğundan Asiyada, Avropada, Amerikada və başqa qitələrdə yaşayan soydaşlarımız doğma Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, dövlətimizin milli mənafelərə uyğun olan müstəqil siyasət yeritməsindən, dünya birliyinin sayılıb-seçilən üzvlərindən birinə çevrilməsindən məmnunluq duyurlar.

Yeni tarixi dövrün astanasında Azərbaycan xalqı yeni imkanlara və nailiyyətlərə hazırdır. Keçmişdə qarşılaşdığımız çətinliklər bizi daha güclü etmişdir. Şübhə yoxdur ki, xalqımızın yeni dövrdə davamlı yüksəlişinin yolu on milyonlarca soydaşımızın və həmvətənimizin milli-mənəvi birliyinin möhkəmlənməsindən keçir.

Azərbaycanın dünyaya daha yaxından tanıdılması, xalqımızın qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, milli hüquqlarımızı qorumaq, hər sahədə bir-birinə dəstək olmaqdır.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Sizi ümummilli qayələrimizin gerçəkləşməsi naminə sıx birləşməyə çağırır, xalqımızın mənafelərinin qorunması uğrunda mübarizəyə səsləyirik. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə can sağlığı, ailə səadəti, firavanlıq arzulayır, doğma Azərbaycanımıza nurlu gələcək diləyirik!

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**
**Milli Məclisi**

***(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 29 dekabr tarixli iclasında qəbul edilmişdir).***

# Təyyarə qəzasında həlak olan 3 ekipaj üzvü II Fəxri xiyabanda dəfn olunub

**Bakı–Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan 3 ekipaj üzvü - gəmi komandiri İqor Kşnyakin, pilot Aleksandr Kalyaninov və stüardessa Hökumə Əliyeva bu gün dekabrın 29-da II Fəxri xiyabanda dəfn olunub.**





Dəfn mərasimində dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Xatırladaq ki, AZAL-a məxsus Bakı–Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsindəki 67 nəfərdən 38-i həlak olub, 29-u sağ qalıb.

Hər iki pilot da daxil olmaqla, 3 ekipaj üzvü həlak olub, iki ekipaj üzvü isə sağ qalıb. Dekabrın 26-da Azərbaycana 14 yaralı və 4 nəfərin meyiti gətirilib. Dekabrın 29-da isə 3-ü ekipaj üzvü olmaqla, 24 nəfərin nəşi ölkəyə gətirilib.

Hadisədən sonra Prezident İlham Əliyevin tapşırığı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Baş nazir Əli Əsədovun rəhbərliyi ilə Dövlət Komissiyası yaradılıb.

Qeyd edək ki, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar Prezident İlham Əliyev dekabrın 26-sının Azərbaycanda matəm günü elan olunması barədə Sərəncam imzalayıb.

***XQ***

# Türk dövlətlərinin 9 aylıq iqtisadi uğurları

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dövlətləri Təşkilatının Katibliyi ilə birgə 8 dildə təqdim etdiyi "Türk iqtisadi icmalı"nın 2024-cü ilin 9 ayı üzrə buraxılışı nəşr edilib.**

Mərkəzin nəzdində fəaliyyət göstərən Türk Dünyası Araşdırma Mərkəzinin hazırladığı 3 rüblük hesabatda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin və müşahidəçi üzvlərin iqtisadi göstəriciləri geniş təhlil edilir. Nəşrdə son iqtisadi inkişaf göstəricilərinə əsaslanaraq TDT üzvlərinin iqtisadi potensialı və qlobal iqtisadiyyata təsiri qiymətləndirilir.

Bildirilir ki, 2024-cü ilin 3rübü ərzində TDT üzvlərinin birgə ÜDM-i, təxminən,



1,456 trilyon ABŞ dolları təşkil edib. Bu da eyni dövrdə proqnozlaşdırı faizinə bərabərdir. Üzv dövlətlər orta hesabla 4,5 faiz ÜDM artımı nümayiş etdirərək qlobal 3 gaiz artımı üstələyiblər. 9 ayda qlobal ticarət həcmi, təxminən, 24,75 trilyon ABŞ dolları qiymətləndirilir. İlin sonuna bu göstəricinin 33 trilyon ABŞ dollarına çatacağı proqnozlaşdırılır.

Hesabat dövründə Azərbaycan 4,7 faiz ÜDM artımı əldə edib. Sənaye sektorunda artım 1,3 faiz olub. Eyni zamanda, 4,89 milyard ABŞ dolları həcmində müsbət ticarət balansı qeydə alınıb. Azərbaycan enerji sektoruna, xüsusən bərpa olunan enerji layihələrinə investisiya yatırmaqla iqtisadiyyatını şaxələndirməyi və neft ixracından asılılığı azaltmağı hədəfə alıb.

Hesabatın sonynda qeyd edilir ki, Türk dövlətləri arasında ticarət dövriyyəsinin 2024-cü ildə 45 milyard ABŞ dollarını keçəcəyi proqnozlaşdırılır ki, bu da iqtisadi əlaqələrin dərinləşdiyini və regiondaxili ticarətin inkişaf etdirilməsi istiqamətində uğurlu səyləri göstərir. TDT üzv dövlətləri qlobal orta göstəricilərlə müqayisədə yüksək iqtisadi artım tempi nümayiş etdirir, kollektiv potensialdan istifadə etməklə innovasiyaları təşviq edir, iqtisadi təsirlərini artırmağı və uzunmüddətli, dayanıqlı rifah əldə etməyi hədəfə alır.

**XQ**

# Ulu öndərin bütöv millət arzusu

**Rafael HÜSEYNOV,**
**Milli Məclisin sədr müavini, akademik**



**Ölkə-ölkə, qitə-qitə yayılmış bütün soydaşlarımızın ortaq bayramı – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilayrıcına, bitən illə başlanacaq yeni ilin sərhədinə təsadüf edir və bu, çox rəmzidir. Sərhəd həm ayırandır və əslində həm də birləşdirəndir. Bu dövlətlə o dövləti, bu ərazi ilə digər ərazini ayıran sərhədlər həm də o dövlətlərin və ərazilərin bir-biri ilə təmas nöqtələridir. Tarixin və taleyin hökmü ilə dünya xəritəsinin hər nöqtəsinə səpilmiş azərbaycanlıların sayı indi altmış milyon civarındadır və soydaşlarımızı bir-birindən uzaq salan sərhədlər ildən-ilə sanki daha artıq yox olur, millətimizin sıra nəfərləri bir-birinə ruhən, qəlbən daha artıq yaxınlaşdıqca həm xalqımız bir az da bütövləşir, bu yovuqlaşmanın çevrəsi genişləndikcə elə ortaq yuvamız – dünyamız da yığcamlaşır, daha ahəngdar olmağa doğru gedir.**

Vətəni – bu gözəl Azərbaycanı ən çox kim sevir? Dünyada nə elə bir cihaz ixtira olunub, nə elə bir qurğu var ki, sevginin həddini, dərəcəsini ölçə bilsin. Amma hər halda həqiqətin yaratdığı bir meyar var. Həmin ülgü də budur ki, vətəni və milləti ən çox və ən səmimiyyətlə sevənlər adətən bu yurdu və xalqı böyük edəcək işlər görmüş olanlardır. Vətəni və milləti böyük edəcək işlər görmək üçünsə gərək ən əvvəl özün böyük olasan.

XX yüzilin son çərəyindəki millətimizi indinin azərbaycanlıları ilə tutuşduranda etiraf edilməli ən bariz həqiqət budur ki, keçən əsrin sonuna nisbətən biz bu gün daha bütövük, daha vəhdətdəyik və durmadan artan birliyimizin təməllərini 1990-cı illərin əvvəllərindən başlayaraq unudulmaz Heydər Əliyev yaradıb. Bunu sadəcə tarixi araşdıran, həmin yaxınlaşma və bütövləşməni mərhələ-mərhələ sənəd və qaynaqlardan öyrənmiş bir insan kimi deyil, o illərdə Ulu Öndəri bir çox xarici səfərlərdə bilavasitə müşahidə etmiş, onun millət quruculuğu, bütöv millət yaradıcılığı səmtindəki fədakar çalışmalarına arxalanaraq təsdiqləyirəm.

Heydər Əliyev elə qadir şəxsiyyət idi ki, onun uca boyu Azərbaycanın çağdaş tarixinin bütün yüksəkliklərindən görünür və hər zaman da görünəcək.

Böyük azərbaycanlı Heydər Əliyev ömrü boyu qüdrətli, möhtəşəm Azərbaycan dövlətini qurmaq yolunda çalışdı. Müasir Azərbaycan, müstəqil Azərbaycan, qüdrətli Azərbaycan dövləti onun ömrünün mənası, şah əsəri idi. Bu müdrik insan bir gerçəyi bütün varlığı ilə dərk etmişdi ki, sarsılmaz, möhtəşəm Azərbaycan dövləti qurmağın yolu millət quruculuğundan, sözündə, düşüncəsində, əməlində birlik olan millətdən başlayır və Heydər Əliyev üçün Azərbaycan əslində bütün dünya idi. Harada bir azərbaycanlı vardısa, orada Heydər Əliyev üçün Azərbaycan vardı. O, sevgi dolu ürəyi ilə bütün dünya boyu dolaşırdı, səhər-şəhər, məmləkət-məmləkət gəzərək hər bir azərbaycanlıya üz tuturdu. O çalışırdı ki, ən əvvəl azərbaycanlılar özlərini tanısınlar, özlərini bir millət olaraq dərk etsinlər. Ona görə ölkə-ölkə gəzirdi və hər bir azərbaycanlıya üz tutaraq özünü, torpağını, millətini, yurdunu, müstəqil dövlətini tanı və sev deyirdi: *"Azərbaycandan kənarda yaşayan azərbaycanlıların ürəkləri gərək daim Azərbaycanın ürəyi ilə vursun. Hər bir kəsin nəbzi gərək Azərbaycanın nəbzi ilə vursun. Gərək hər bir kəs harada yaşamağından asılı olmayaraq, şəxsi vəziyyətinin ağır, ya çətin, yüngül, yaxud da yaxşı olmasından asılı olmayaraq öz ana vətəni haqqında düşünsün. İndi azərbaycanlılar artıq bilirlər və daha da artıq bilməlidirlər ki, azərbaycanlıların, nəhayət, müstəqil dövləti var – Azərbaycan Respublikası. Azərbaycanlılar üçün ana vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır. Harada yaşayırsan-yaşa, amma Azərbaycan haqqında düşünməlisən, Azərbaycanın müstəqilliyi haqqında düşünməlisən, Azərbaycanın ərazi bütövlüyü haqqında düşünməlisən, Azərbaycan xalqının bugünü, gələcəyi haqqında düşünməlisən".*

Heydər Əliyevin sözü kəsərli və qətiyyətli söz idi. Onun sözündə və səsində içərisinin hüdudsuz gücü cəmlənirdi. Ona görə bu səsi eşidənlər, bu sözləri dinləyənlər ona inanır, iman gətirir, ardınca getməyə hazır olurdular.

Söyləyirlər ki, Heydər Əliyevin siyasi rəqiblərinə tövsiyə edirlərmiş ki, çalışın onunla beş dəqiqədən artıq bir otaqda tək qalmayın. Çünki bu şəxsiyyətlə beş dəqiqədən artıq yalqız qalsanız, istər-istəməz onun təsirinə düşəcək, hansı səmti göstərsə, o yolla getməyə vadar qalacaq, hansı təklifi irəli sürsə, icra etməyə məcbur olacaqsınız. Həqiqətdirmi, ya Heydər Əliyevə heyranlıqdan yaranmış rəvayətdir? 1990-cı illərdə Heydər Əliyevin Prezident kimi xarici səfərlərində onun müxtəlif dünya şəhərlərində fərqli yaş nəsillərinə mənsub soydaşlarımızla görüşlərini izləyərkən görürdüm ki, onlar yarım saat, bir saat, bəzənsə daha uzun çəkən görüşlərdən sonra artıq dəyişiblər, başqa adamdırlar, Heydər Əliyev cazibəsi onların hər birinin varlığına sirayət edib.

Heydər Əliyev dünya boyu səpələnmiş azərbaycanlılarla, Azərbaycan Respublikasında yaşayan vətəndaşlarla ömrü boyu üzüzə, ürək-ürəyə, göz-gözə oldu, içərisinin bütün sevgisi ilə onlarla təkbətək qaldı. Əlbəttə ki, bu millət onun cazibəsində olmalı idi. Əlbəttə, bu millət onun ardınca getməli idi. Əlbəttə, bu millət onu sevməli idi!

Heydər Əliyev dünya boyu hər azərbaycanlıya ata və millət öndəri kimi üz tuturdu, "Mən səninliyəm", "Azərbaycan səninlədir", "Biz sənə hayanıq, dayağıq", – deyirdi. Bunları söyləyirdi ki, dünyanın hər guşəsindəki hər bir azərbaycanlı özünü inamlı, qətiyyətli, arxalı hiss etsin. Amma Heydər Əliyev onu da söyləyirdi və hər bir azərbaycanlıya bununla da əlavə güc verirdi ki, "Biz sənsiz bütöv deyilik, Azərbaycan sənsiz tam deyil". Heydər Əliyev hər bir azərbaycanlıya üz tutaraq onları ilhamlandırırdı, hər birinə millət quruculuğunda vəzifə daşıdığını aşılayırdı, "Biz sənə güvənirik", – deyirdi.

Heydər Əliyev mahir dirijora bənzəyirdi. Əslində şəkillənmiş, tarixdə özünü təsdiqləmiş hər bir millət də böyük bir orkestri xatırladır. Heydər Əliyev bu Azərbaycan orkestrini, dünya azərbaycanlılarının hamısının birgə yaratdığı möhtəşəm millət orkestrini ömrü boyu ustalıqla idarə edə bilən dirijor kimi düşüncələrdə hər zaman yaşayacaq və daim misilsiz örnək olaraq qalacaq: *"Adətən keçmiş zamanlardan insanlar öz ölkəsindən gedib başqa ölkədə yaşayanda deyirlər ki, onlar qürbətdədirlər. "Qürbət" sözü də bir az qəmgin sözdür. İnsanlar bəzən qürbətdə olanda vətənin həsrətini çəkirlər. Hər bir xalq yalnız öz çərçivəsinə qapılaraq öz içində yaşasa, dünyanı görməsə, dünya ilə əlaqəsi olmasa, çox inkişaf edə bilməz. Dünyanın indi həyatı belədir ki, hər bir ölkədən nəsə götürmək olar. Hər bir ölkənin təcrübəsindən nəsə əldə etmək olar. Bunları deməklə mən onu əsaslandırmıram ki, siz niyə, məsələn, Azərbaycandan, yaxud da ki, Türkiyədən gəlib Avropada yaşayırsınız, Belçikada yaşayırsınız, Almaniyada yaşayırsınız. Hərənizin bura gəlməyə bir səbəbi var. Vətənə görə də ürəyiniz də darıxır. Mən bilirəm, bu da təbiidir. Amma eyni zamanda mən yenə də qeyd edirəm, burada, Brüsseldə mən bir-iki saat bundan öncə gəlmişəm, indi gəlib burada azərbaycanlılarla görüşəndə özümü bir az da yaxşı hiss edirəm ki, demək, burada bizim öz soydaşlarımız, öz həmvətənlərimiz var. Bunlar burada Azərbaycan haqqında həqiqəti Avropada, ayrı-ayrı ölkələrdə yaymağa qadirdirlər. Ona görə də Azərbaycanın xeyrinə, yəni Azərbaycanın müstəqilliyinin, Azərbaycanın bugünkü həyatının və gələcəyinin naminə sizin hər birinizin burada gördüyünüz kiçik, ya böyük iş Azərbaycan üçün qiymətlidir. Şübhəsiz ki, hər bir insan öz vətəninə bağlı olur və insan öz vətəninə, millətinə, dininə, dilinə nə qədər bağlı olsa, o, mənəviyyatca o qədər də yüksək olur. Güman edirəm ki, siz Avropada yaşayaraq eyni zamanda vətəninizə bağlısınız, dədələrinizin, babalarınızın, ulu babalarınızın ruhuna bağlısınız, onların verdiyi nəsihətlərə bağlısınız və indi kim harada işləyir, kim harada yaşayırsa, Azərbaycanı unutmur və Azərbaycanı yad edir, Azərbaycanı təbliğ edir".*

Bir insanın həyatı da, bir millətin taleyi də pillələrə bənzəyir. İnsan da ömrü boyu pillə-pillə qalxır. Ancaq bəzən hər qalxmağın günlərin birində qaçılmaz enişi də insanı haqlayır. Millətin taleyinin də yüksəlişləri ilə bərabər yoxuşları da, büdrəmələri də qarşıya çıxır.

Heydər Əliyev – bu mətin öndər ömrü boyu yüksəkliyə doğru can atdı və millətini də yüksəltməyə çalışdı. Amma bilgin öndər millətinin bölünmüş olmasının tarixi təfərrüatlarından başqalarından da artıq agah idi. O, bir yandan ixtisasca tarixçi, digər tərfdən də fəaliyyətdə olan tarix qurucusu idi. Millətinin dünya boyu dağılmasının bütün mərhələlərinin üst qatdakı və batindəki gizlinclərinə bir sıra hallarda alimlərdən də çox bələd idi. Çünki o, hamının əli çatan mənbələrdən savayı xüsusi xidmət orqanlarında 25 illik çalışmağı sayəsində hər kəsin əli yetməyən xeyli qapalı məxəzlərdən də məlumatlı idi. Yaxşı bilirdi ki, 1920-ci ildə ilk Azərbaycan Cümhuriyyəti devriləndən sonra siyasi mühacirlərimiz İrana, Türkiyəyə, Fransaya, digər məmləkətlərə, irili-xırdalı şəhərlərə pənah aparıblar. Keçmiş Dövlət Təhlükəsizlik Komitəsində Heydər Əliyevlə bağlı arxiv materiallarını, bilavasitə onun apardığı işləri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi olarkən açıq mətbuata çıxmamış və birbaşa Azərbaycan mühacirətinə aid sənədləri ard-arda öyrənərkən buna da yəqin kəsilmişəm ki, Azərbaycan mühacirətini onun qədər dərindən bilən ikinci şəxs olmayıb. Nə bir dövlət adamı, nə bir tədqiqatçı alim, nə bir kəşfiyyatçı! Heydər Əliyev Azərbaycan mühacirlərinin əksərinin taleyindən xəbərdar idi və bir çoxu ilə şəxsən tanışdı. Azərbaycan dövlətinə rəhbərlik etməyə başlayanda Sovetlər İttifaqından, olsun ki, müəyyən mənada Azərbaycanın özündən də incik düşmüş bir çox qərib soydaşımızı yurdumuza təzədən qaytarmağa, millətimizə yenidən qovuşdurmağa səylər qoymuşdu. Bilirdi ki, İkinci Dünya müharibəsi dövründə azərbaycanlıların neçəsi ən müxtəlif ölkələrdə qalıb, talelərini o yerlərlə bağlayıblar. Sovet İttifaqında belələrinə düşmən kimi yanaşırdılar. Ancaq Heydər Əliyev əbədilik qürbətə məhkum o qəbil azərbaycanlıların da neçəsinin ayağının vətənə açılmasına xeyirxah köməklərini əsirgəmədi.

Cənubi Azərbaycandan çıxmış və bir neçə qitədə həyatını davam etdirən on minlərlə soydaşımız də hələ sovet dövründən onun diqqət mərkəzində idi və gününə görə o, SSRİ-nin ali rəhbərliyi üçün də bu istiqamətdə ən üstün ekspert mərtəbəsində qavranılırdı.

Düşüncə, yaş nəsli, siyasi baxışları sarıdan xeyli fərqli olan tam müxtəlif təbəqələrə aid insanları qovuşdurmaq üçün təkcə Azərbaycan ideyası yetərli deyildi. O ideyanı beyinlərə yeridə, ürəklərdə oturda bilən müstəsna lider gərəkdi. Heydər Əliyevin bu millətə və Azərbaycana bağışladığı ən başlıca sərvətlərdən biri də bu oldu ki, o öz müqtədir varlığıyla Millət Atası surətini, sözdə deyil, əməldə Ulu öndər obrazını hər kəsin hafizəsinə həkk etməyi bacardı.

Millət, ardınca getməyə layiq olan bir böyük öndərin varlığını duydu, onun böyüklüyünü dərk etdi və ardınca getməyə qərar verdi.

Heydər Əliyev də dünyanın sıra-sıra ölkələrindəki azərbaycanlılara üz tutanda heç də onların hamısını Azərbaycana çağırmırdı. Gəlin, öz yurdunuzdur, öz torpağınızdır, öz millətinizdir, bir yerdə quraq-yaradaq deməyinə deyirdi, lakin bunu söyləyirdi ki, qaldığınız, yaşadığınız, həyatınızı qurduğunuz ölkələrdə da ucalın, yüksəlin, amma başqa millətlərin içərisində əriyib itməyin, azərbaycanlılığınızı hifz edin, öz milli qürurunuzu qoruyun, azərbaycanlı olaraq qalın: *"Biz Azərbaycanda müstəqil dövlət olaraq yaşayaraq dünyadakı bütün azərbaycanlılar haqqında düşünürük. Bizim bütün türklər haqqında düşünürük. Hamımız bir millətik, hamımız bir kökdən gəlmiş xalqıq. Azərbaycanda yaşayanlar da, Azərbaycandan kənarda yaşayanlar da, başqa ölkədə yaşayanlar da, İranda yaşayanlar da, Türkiyədə yaşayanlar da, Amerikada yaşayanlar, İngiltərədə yaşayanlar – hamımız birik. Və biz Azərbaycanda, bilirsiniz ki, ağır bir dövr yaşayırıq. Keçid dövrünü yaşayırıq. Özümüzün problemlərimiz çoxdur. Ancaq buna baxmayaraq, Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımız haqqında daim düşünürük. Daim onların həyatıyla maraqlanmağa çalışırıq və onlara öz qayğımızı, öz hörmətimizi göstərmək istəyirik.*

*Azərbaycanda gedən proseslər sizə məlumdur. Azərbaycan demokratiya yolu ilə gedir. Siz Amerikada yaşayırsınız. Deyirsiniz ki, Cəbrayıl qəzasındansınız, Sisyanda böyümüsünüz. Nə Cəbrayılda demokratiya olubdur, nə Sisyanda demokratiya, nə də Azərbaycanda demokratiya olub. Amerika 200 il bundan öncə öz müstəqilliyini əldə edəndən sonra addım-addım demokratiya yolu ilə gedib. Fransada 300 il bundan öncə demokratiya başlayıb, amma indi də çarpışırlar ki, demokratiya var, ya yoxdur. O birisi Avropa dövlətləri də. Azərbaycan indi bu qovğada, bu davada çapalaya-çapalaya eyni zamanda demokratiyanı tətbiq edir. Siz təsəvvür edin, o yol ki inkişaf etmiş ölkələr, millətlər yüz ilə gediblər, iki yüz ilə gediblər, siz istəyirsiniz ki, Azərbaycan beş ilə getsin, – gedə bilməyəcək. Əsas onda deyil. Əsas ondadır ki, hansı yolu tutmusan, o yolla gedirsən, yoxsa getmirsən? Azərbaycanda biz demokratiya yolunu tutmuşuq və bu demokratiya yolu ilə gedəcəyik".*

Milləti millət edən ən vacib keyfiyyətlərdən biri onun parlaq övladlarıdır. Böyük vətənpərvər Heydər Əliyev başqalarının uğurlarına sevinməyi, vətən balalarının nailiyyətləri ilə iftixar etməyi bacarırdı. O, dünyanın harasına gedirdisə, belə işıqlı yurddaşları axtarırdı. Çünki diaspor quruculuğu onun həyatının ən vacib məqsədlərindən biri idi. Diaspor quruculuğunda isə o, Azərbaycanın zəkalı övladlarına çox ümid bəsləyirdi. Dünyanın hansı ölkəsinə səfərə çıxırdısa, oradakı soydaşları toplayırdı, öyüd verirdi, tarix danışırdı, yol göstərirdi, anladırdı və bu əsnada içərisindəki gücü də onlara ötürür, onları da fikirlərinin daşıyıcısına çevirirdi. Həmin görüşlərdən sonra həmsöhbətlərinin hər biri diaspor quruculuğu, xaricdəki soydaşlarımızın bir-birinə yaxınlaşdırılması işində yaşadıqları məmləkətdə sanki Heydər Əliyevin elçisinə dönürdülər.

1997-ci ildə Ulu öndərin soydaşlarımızla Londondakı hərarətli görüşlərini xatırlayıram. O görüşlərin hər biri ustad dərsi idi. Bütün başqa məziyyətlərindən əlavə, o təhər fövqəladə millətsevərlik, vətənə bağlılıq dərslərini verə bilməkçün gərək Heydər Əliyev kimi ömür yaşayıb o cür yol keçmiş olaydın.

London Universitetinin professoru, dünya türkologiyasının azmanlarından sayılan ağsaçlı, müdrik Turxan Gəncəyi Heydər Əliyevin qarşısında çıxış edirdi. Almaniyada, İtaliyada, İranda, Türkiyədə, Böyük Britaniyada ən aparıcı universitetlərdə, ən sanballı elm mərkəzlərində, ən məşhur alimlər qarşısında saysız mühazirələr söyləmiş, dünya şərqşünaslığında öz məktəbini ayartmış, neçə-neçə şöhrətli avropalı alimin müəllimi olan Turxan bəy sanki ustad qarşısında imtahan verən şagird idi. Atası Zeynal Məmmədov XX yüzilin əvvəllərində millətimizin yüksəlişləri yolunda çalışanlardan, xalqımızın istiqlal içərisində yaşamasının bünövrələrini yaradanlardan olmuşdu və ona qanla keçən millətpərvərlik, vətənsevərlik əqidəsini Turxan Gəncəyi də həyatı uzunu şərəflə davam etdirmişdi. Turxan bəy danışırdı və onun həyəcanlı nitqi iftixar duyğusu ilə dolu idi. Həyatının mənası Azərbaycan və azərbaycançılıq olan bu görkəmli elm adamı kövrələrək deyirdi ki, mən indi, Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dönəmində yurdumuzun və xalqımızın gələcəyindən arxayınam. Arxayınam, ona görə ki, Azərbaycan istiqlalı, Azərbaycanın üçrəngli bayrağı Heydər Əliyevin qadir əllərindədir və o, Azərbaycanı çox uzaq və xoşbəxt sabahlara aparacaq.

Həmin görüşədək Turxan Gəncəyi Azərbaycan naminə çox işlər görmüşdü, amma Heydər Əliyevlə bu təmasdan sonra artıq o da Ulu öndərin ideyalarının İngiltərədə, Avropada məskunlaşmış intellektual Azərbaycan auditoriyasındakı mötəbər daşıyıcısına və ötürücüsünə çevrilirdi.

2001-ci ilin yanvarında Heydər Əliyev Avropanın rəmzi paytaxtlarından olan Strasburqda, Avropa Evi qarşısında Azərbaycan bayrağını ucaltdı, ölkəmiz qırxdan artıq dövləti birləşdirən Avropa Şurası Parlament Assambleyasında daimi üzv kimi sözünü deməyə başladı. 2000-ci illərdə Strasburqa səfərlərimiz mütəmadiləşdi, Parlament Assambleyası həqiqətlərimizi dünyaya çatdırmaq üçün daha bir əlverişli kürsüyə döndü. Oralara hər yolumuz düşəndə isə elə Turxan Gəncəyi kimi dünya türkologiyasında imzası ən üstünlərdən hesab edilən, bir-birindən qiymətli əsərləri və elmi-ictimai fəaliyyətləri ilə canlı tarix olan, Strasburqda yaşayıb-yaradan professor İren Melikofla hökmən görüşə can atardıq. Heydər Əliyevin İren xanımla bir neçə görüşü, son dərəcə maraqlı söhbətləri olmuşdu. Sözün bütün mənalarında dünyagörmüş, o çağlar yaşı 90-ı adlamış İren xanım Heydər Əliyevlə fikir mübadilələrini heç cür unuda bilmirdi və üstündən aylar və illər keçəndən sonra da hər dəfə biz onunla görüşə gedəndə istər-istəməz söhbəti dolandıraraq mütləq Ulu öndərin üstünə, onun söylədiklərinə gətirib çıxarırdı. Heydər Əliyevdən söhbət açanda o, sanki gəncləşir, içərisindəki şəfqət üzünə çıxırdı. Təsdiqləyirdi ki, Heydər Əliyevin aqil, uzaqgörən, çox səriştəli dövlət başçısı, canıyanan millət öndəri olması bir yana, türkoloji ilə bağlı söhbətlərimizdə elə incə məqamlara diqqət yönəldirdi ki, mən belə bəsirətliliyi heç bu sahənin alimləri ilə müzakirələrimizdə müşahidə etməmişəm. İren xanım bunu xüsusi məmnunluqla vurğulayırdı ki, Heydər Əliyev bir ardıcıl türkçüdür, amma türkçülüyündə də həmişə Azərbaycanın daha qabaq sıralarda olmasına çalışır. İren xanım söyləyirdi ki, məhz bizim türkologiya, şərqşünaslıq sahəsinə ömür həsr edən alimlərimizin də yol xəritəsi gərək elə Heydər Əliyevin işarələdiyi həmin xətt – Azərbaycanı daim iri planda, ön cərgədə göstərə bilmək inadcıllığı ola. İren xanımın qızı, yenə Fransada və dünyada tanınmış şərqşünas alimlərdən olan Şirin xanım yaşadığı Strasburqdan Heydər Əliyevin ziyarətinə o hələ Azərbaycan rəhbərliyinə gəlməzdən qabaq təşrif gətirmişdi, Naxçıvana uçmuşdu.

Çünki o da, anası da Heydər Əliyevin böyüklüyünü, Azərbaycan üçün əvəzedilməzliyini alimanə həssasiyyətlə anlayırdılar, Azərbaycanın gələcəyinin, diaspor quruculuğumuzun sabahının da bu şanlı adla, bu əzəmətli şəxsiyyətlə bağlı olduğunu dərk edirdilər.

Mənzilinin qapısını Fransanın, Almaniyanın, Avstriyanın tanınmış alimlərinin, elmə yeni gələn qabiliyyətli, ümid verən cavanlarının üzünə həmişə açıq saxlayan, Avropadakı azərbaycanlıları da bir-birinə yaxınlaşdıran əhəmiyyətli simalardan olan İren xanım ixtiyar çağında azərbaycanlıları bütövləşdirmək naminə Heydər Əliyev xəttinin və çağırışlarının Strasburqdakı könüllü əlaqələndiricisinə dönmüşdü.

Beləcə, Heydər Əliyev düşüncəsinin işığı, ondan saçan qığılcımlar ayrı-ayrı dəyərli Azərbaycan övladlarının beynində və könlündə alova çevrilir, onların vasitəsilə dalğa-dalğa yayılırdı.

*"Bizim üçün tarixi bir amil var: azərbaycançılıq. Ermənilər çalışırlar sübut eləsinlər ki, heç Azərbaycan milləti yoxdur, köçəri olublar. Amma bizim millətin azərbaycanlı kimi böyük, qədim tarixi var. Bizim dilimiz Azərbaycan dilidir. Azərbaycanda 1992-ci ildə bir böyük səhvə yol vermişdilər. Götürüb bizim dilimizi türk dili kimi yazmışdılar. Bəli, biz türkdilli millətlərə daxilik. Bizim, bəli, əcdadlarımız hamısı türkdillidir. Ancaq türkdilli xalqlar sonra şaxələniblər, hərəsi bir millətə çevrilibdir. Özbək də türkdillidi, qırğız da, qazax da. Tatarca da türk dilidir, türkməncə də, başqırdca da, uyğurca da türk dilidir. Hamısı türkdillidir, amma hərəsi bir millətdir, hərəsinin də öz dili var. Mən özbək dilini, ola bilər ki, müəyyən faizdə başa düşə bilərəm, ondan artıq anlamaram. Ancaq dilimizin əsli, özümüz biz bir kökdənik. Biz millət kimi bir kökdənik, dil kimi bir kökdənik. Amma əsrlər boyu bir kökün budağı olaraq, biz də ayrıca şaxə kimi inkişaf etmişik.*

**(ardı 7-ci səhifədə)**

# Ulu öndərin bütöv millət arzusu

(əvvəli 6-cı səhifədə)

*Özümüzün adımız var – Azərbaycan. Özümüzün dilimiz var – Azərbaycan dili. Və çox da gözəl dilimiz var. Çox belə ləzzətli dilimiz var. Siz bilirsiniz ki, mənim təhsilim ümumiyyətlə rus dilində gedib və gənc vaxtından bütün həyatım da rus dilində olub. Rus dilində oxumuşam, rus dilində işləmişəm. Moskvada böyük işlərdə işləmişəm. Rus dili mənim üçün ana dili kimi bir dildir. Amma nə qədər o dildən istifadə etmiş olsam da, Azərbaycan dili mənim üçün hər şeydən əzizdir. Çünki millətin milliyini saxlayan onun dilidir".*

...Tarixin səhifələrində sıra dağlar kimi Azərbaycanın dahi insanlarının boyu ucalır. Tale və zaman heç vaxt Azərbaycandan seçkin və ötkəm dühaları əsirgəməyib. Orta əsrlərdən üzü bu yana həmişə Azərbaycanın nurlu qafaları bol olub – kamil filosoflarımız, mahir şairlərimiz, qızıl əlli memarlarımız, əfsanəvi musiqiçilərimiz... Amma sanki böyük dövlət xadimləri sarıdan yetərincə yarımamışıq. Yalnız Şah İsmayıl Xətai və Nadir şah deyilsə, Heydər Əliyev keçmiş zamanlardakı heç kəslə müqayisəyə sığmır. Onun miqyasları, hamılıqla etiraf edilən milli rəhbər səviyyəsinə ucalması tariximizin nadir rast düşülən fenomenlərindəndir. Orta əsrlərdə ömür sürmüş, Azərbaycanı ucaltmış ulularımızın hər birinin adının yanında klassik dövrdə "nisbə" deyilən söz işlənib – həmin böyüyümüzün doğulduğu, boya-başa çatdığı, yaxud şöhrətə yetişdiyi kəndin, şəhərin, bölgənin, vilayətin, ya da içərisindən çıxdığı qəbilənin, tayfanın adı. Biri Təbrizi olub, biri Şirvani, biri Naxçıvani, biri Gəncəvi, biri Bakuvi, biri Marağalı, biri Beyləqanlı... Yalnız bir ulu soydaşımız var ki, o, tarixin doqquz əsr uzağından yüksəlir və adının yanında nə şəhərinin, nə kəndinin, nə bölgəsinin adını işlədib. O, risalələrində sabit imzası kimi hamımız üçün əziz olan bir kəlməni yerləşdirib: "Azərbaycan" sözünü. Bu, XI əsrin təkrarsız alimi, filosoflar qafiləsinin sarbanı Bəhmənyar Azərbaycanidir.

Azərbaycan tarixinin bütün dövrlərini göz önündən keçirərkən böyük soydaşımız Heydər Əliyevin adının yanında da işlənməyə ən yaraşan sözün "Azərbaycan" kəlməsi sözü olduğu qənaətinə gəlirsən.

"Heydər Əliyev" kəlmələri "Azərbaycan" sözünü, "Azərbaycan" sözü "Heydər Əliyev" kəlmələrini tamamlayırdı. Hətta Heydər Əliyevin tələffüzündə də "Azərbaycan" sözü heç bir Azərbaycan rəhbərinin dilində o gözəllikdə, o doluluqda, o şirinlikdə səslənməmişdi. Bunu gəlişigözəl söz kimi yazmırıq. Hamısının həm audio, həm video çıxışları qalıb. Biz müqayisə etmişik və qeyd etdiyimiz fikri həmin tutuşdurmaların nəticəsi kimi ifadə edirik. Kimin şəkki varsa, qaldırsın səs və görüntü arxivlərimizi, bir-bir dinləsin. Bəlkə də gözlənilməz olan bir nəticə ilə qarşılaşacaqsınız – şahid olacaqsınız ki, hətta bəziləri nəinki cazibəli "Azərbaycan" kəlməsini sevdirəcək tərzdə ifadə etmirlər, hətta sözü təhrif edərək dilə gətirirlər. Adları sadalamıram – 1920-1930-cu illərdən başlayaraq Heydər Əliyevəqədərki dövrəcən olanların hamısının nitqində bircə "Azərbaycan" kəlməsinə diqqət yönəldərək dinləyin. Heyrətlənəcəksiniz və növbəti dəfə Heydər Əliyevin əlçatmaz zirvə olması düşüncəsi ilə razılaşacaqsınız.

Sözlərimizin ən sevimlisi olan "Azərbaycan" Heydər Əliyevin nitqində sanki əlavə tutum qazanırdı.

1990-cı illərin əvvəllərində, Azərbaycanın müstəqilliyin aşırımlı yolları ilə irəlilədiyi ilk çətin illərdə dünyanın bir qisim ölkələrində istiqlalını təzəcə bərpa etmiş Azərbaycanı kifayət qədər tanımayanlar az deyildi. Ancaq Sovet İttifaqının liderlərindən olmuş Heydər Əliyevin adı dünyaca məşhur idi. Heydər Əliyevə görə Azərbaycanı tanıyırdılar və Heydər Əliyevlə Azərbaycan olduğundan da böyük görünürdü. Beynəlxalq aləmdə şəxsiyyətinə olan rəğbət, maraq və diqqət bahasına Heydər Əliyev vətəninə və dövlətinə hələ az olan diqqəti, marağı, rəğbəti də artırmağı bacardı: *"Bir müstəqil dövlət kimi Azərbaycanın indi Avropada, Asiyada, Amerikada, digər ölkələrdə də təbliğ olunmağa çox ehtiyacı var. Təəssüflər olsun ki, keçmiş vaxtlarda Azərbaycandan kənarda bizi az tanıyırdılar. Hətta, məsələn, mən sizə deyə bilərəm, 30-40 il bundan öncə Azərbaycan Sovetlər İttifaqının tərkibində idi. Rusiyanın başqa şəhərlərində Azərbaycanı bəziləri o qədər də tanımırdılar. Bəzən deyəndə ki, "mən azərbaycanlıyam", soruşurdular ki, gürcüsən, yaxud ermənisən? Yəni belə təsəvvürləri vardı ki, Qafqazda ancaq gürcülər, ermənilər yaşayır. Mən özüm də bununla rastlaşmışam. Təxminən 1948-ci ildə mən Leninqradda təhsil alırdım, orada görüşüb danışırdıq. Sual verirdilər: "Hansı millətdənsən?" "Mən azərbaycanlıyam" deyirdim. "Gürcüsən?" Deyirdim, "yox, gürcü deyiləm, azərbaycanlıyam". Ermənisən? Deyirdim, "yox, erməni deyiləm, azərbaycanlıyam". Bunlar mənim özümün gördüyüm şeylərdir. Ancaq bu, bir mənim müşahidələrim deyil, belə hallar çox olubdur. O vaxt ola bilər ki, biz Sovetlər İttifaqının tərkibində idik, qapalıydıq. Mümkündür ki, bu, bir tərəfdən azərbaycanlıların özünəməxsus xüsusiyyəti ilə də bağlı idi. Çünki azərbaycanlılarda o xüsusiyyət də var ki, onlar öz evinə, obasına, yurduna, yerinə çox bağlıdır. Gedib kənarda yaşamağa çox da can atmırlar, yaxud da azərbaycanlı kənarda yaşayanda da bir azdan yenə öz yuvasına qayıtmaq istəyir. Ancaq indi müstəqil Azərbaycan dövləti kimi respublikamızın, xalqımızın bütün ölkələrdə, dünyada təbliğ olunmasına ehtiyacımız var və sizlər də, Avropada yaşayan azərbaycanlılar, şübhəsiz ki, Azərbaycanı təbliğ edirsiniz. Azərbaycan haqqında həqiqəti yayırsınız və sizin ürəyiniz Azərbaycanla vurur. Mən bunu belə bilirəm. Bilin ki, Azərbaycanda da biz vətəndən kənarda, uzaqlarda yaşayan hər bir azərbaycanlı haqqında düşünürük, onlara qayğı göstərməyə çalışırıq".*

Böyük Heydər Əliyevin ictimai vicdanımız qarşısında ən əvəzsiz xidmətlərindən biri də bu oldu ki, 41 il Sibir buzlaqlarında tənha qalmış, sovet siyasi repressiyalarının qurbanı olmuş dahi Hüseyn Cavidi vətənə qaytardı.

Hüseyn Cavidin qızı Turan xanım söyləyirdi ki, 1937-ci ilin 4 iyun gecəsində NKVD bayquşları onların evində axtarış apararkən Cavidin bütün kitablarını, əlyazmalarını özləri ilə götürmüşdülər. Hətta Cavid xahiş edibmiş ki, bəzi əsərlərin makina çaplarından, əlyazmalarından nüsxələr var, qoyun, heç olmazsa birisi qalsın, razılaşmamışdılar. Cavidin vəfalı ömür-gün yoldaşı Mişkinaz xanım illər keçəndən sonra dost-tanış arasındakı söhbətlərlə bu gümanını da bölüşərmiş ki, bəlkə də həmin axşam axtarışa gələnlər arasında azərbaycanlılar olsaydı, rəhmə gələrdilər, Cavidin böyüklüyünə hörmət göstərər, bunca insafsız davranmazdılar, şairin son xahişinə əməl edərək hələ çap olunmamış əsərlərinin artıq makina nüsxələrindən birinin qalmasına rüsxət verərdilər. O axşam Cavidgilə gələnlər bir neçə nəfərmişsə də, aparılmış axtarışın protokolunda iki soyad əks olunub: Pavlov və Parşin.

Əslində o zaman NKVD-də, sonrakı Dövlət Təhlükəsizlik Komitəsində çalışanların əksəriyyəti ermənilər idi, qeyri-millətdən olanlar da az deyildi, azərbaycanlılarsa tək-tük, həm də sən deyən səlahiyyəti olmayan daha aşağı, erməni əməkdaşlara tabe vəzifələrdə. Qılıncı sağa-sola kəsib-doğrayan bu quruma daraşmış ermənilərin kirli əlləri ilə sovet rejimi Azərbaycan ziyalılığına müdhiş divan tutmuşdu.

Zaman elə gətirdi ki, sovet dönəmində həmin təşkilata Heydər Əliyev də rəhbərlik edəsi oldu və onun Dövlət Təhlükəsizlik Komitəsinə başçılıq etdiyi dönəmdə bu qapalı təşkilat sürətlə milliləşdirilməyə başlandı. Heydər Əliyev qısa bir zamanda DTK-nın sıralarını azərbaycanlı cavanlarla, vətənpərvər insanlarla zənginləşdirdi və bununla da respublika rəhbərliyindən daha çox Moskvaya bağlı həmin təşkilatın Azərbaycanazidd subyektiv addımlar ata bilmək fürsətlərini heçə endirdi, bütövlükdə bu qorxunc komitənin qorxunc antimilli xətti neytrallaşdırıldı. Sovet İttifaqında dissident ovu başlanan 1960-cı illərdə Azərbaycan ziyalılarından bir nəfər belə məsuliyyətə cəlb edilmədi, nə qədər alimimiz, şair və yazıçımız, aktyorumuz və rəssamımız ləkələnmək, həbsə atılmaq fəlakətindən məhz Heydər Əliyevin birbaşa səyləri ilə xilas oldu. Xaricdə yaşayan həmvətənlərimizlə siyasət də Heydər Əliyevin Dövlət Təhlükəsizlik Komitəsində aparıcı mövqe tutduğu əyyamlarda dəyişdi, sabahkı diaspora duyğularına bir çox münbit özüllər elə o çağlar araya-ərsəyə gətirməyə müvəffəq oldu.

...Heydər Əliyevin dünya azərbaycanlıları ilə görüşlərində dilindən əskik olmayan vəsiyyəti və nəsihəti idi ki, hər sahədə görünün, yaşadığınız ölkələrdə həmin cəmiyyətin ayrılmaz tərkib hissəsinə çevrilin, çalışın ki, ən üst qatda yer tutun, parlamentlərdə təmsilçilik qazanın, vəzifələrə yiyələnin. İsrarla deyirdi ki, yaşadığınız ölkənin yaxşı vətəndaşına çevrilin. Amma heç zaman unutmayın ki, siz azərbaycanlısınız. *"Mən istərdim ki, Avropada yaşayan azərbaycanlılar, bir Avropada yox, bütün dünyanın başqa ölkələrində yaşayan azərbaycanlılar hamısı birinci növbədə yüksək təhsilə malik olsunlar, yüksək mədəniyyətə malik olsunlar, yaxşı sənətə malik olsunlar, özləri üçün bəlkə indikindən də yaxşı şərait yarada bilsinlər. Siz azad, demokratik ölkələrdə yaşayırsınız. Bu azad, demokratik ölkələrdə yaşamaq həm çətindir, həm də asandır. Çətindir, çünki burada rəqabət də böyükdür. Burada hər millətdən adamlar var. Hərə çalışmaq istəyir, hərə özü üçün cəmiyyətdə yer tutmaq istəyir. Hərə özü üçün yaxşı iş yaratmaq istəyir. Ona görə bu, çətindir. Eyni zamanda, bu demokratik ölkələrin, o cümlədən siz yaşadığınız ölkələrin demokratik qanunları sərbəstliyə çox imkanlar verir. Yəni insanın istəyi olsa öz potensialını realizə etməyə, burada şərait var, imkanlar çoxdur və ona görə də hər bir insan burada özünə layiq yer tuta bilər. Və mən istəyirəm ki, azərbaycanlılar harada yaşayırlar-yaşasınlar, o əhalinin, cəmiyyətin aşağı təbəqəsində yox, orta təbəqəsində yox, yüksək təbəqəsində olsunlar. Bu, mənim istəyim, arzumdur. Doğrudur, azərbaycanlılar tarixən öz torpaqlarına çox bağlı olublar. Başqa bir ölkələrə getməyə çox meyilləri olmayıb. Hətta xatirimdədir, siz bunu tarixdən bilirsiniz ki, mən 1969-cu ildən 1983-cü ilə qədər – 14 il Azərbaycan Respublikasına rəhbərlik etdim. O vaxt Azərbaycan Respublikası Sovetlər İttifaqının 15 respublikasından biri idi. Mən o vaxt çalışırdım ki, bizim azərbaycanlılar və xüsusən gənclər tək Azərbaycanda qalmasınlar, Sovetlər İttifaqının başqa şəhərlərində, başqa respublikalarında yaşasınlar. Yəni azərbaycanlılar səpələnsinlər, oralarda da yayılsınlar. Öz torpağında onsuz da azərbaycanlı çoxdur və istəyim də bu idi ki, Azərbaycanın diasporu, Azərbaycanın lobbisi olsun. Mən o vaxt hətta Azərbaycan gənclərinin bütün Sovetlər İttifaqının hər yerinə yayılması üçün Moskvadan razılıq almışdım, ildə 800-900 gəncin Sovetlər İttifaqının Moskva, Leninqrad, Kiyev, Sverdlovsk və başqa şəhərlərindəki universitetlərə göndərilib orada təhsil almasına şərait yaradılmışdı. Mən o vaxt elə bir şərait yaratmışdım ki, Azərbaycan gəncləri gedib orada universitetlərə girmək üçün çətinlik çəkmirdilər. Çünki bəziləri rus dilini yaxşı bilmirdi, gedib imtahan verə bilməzdi. Bəziləri gedib imtahan verəndə müsabiqədən keçə bilmirdilər. Ancaq mən bunlara güzəştli şərtlər yaratmışdım və hər il 800-900 azərbaycanlı gənci göndərirdim ki, Sovetlər İttifaqının başqa şəhərləri, xüsusən Moskvada, Leninqradda, Kiyevdə böyük universitetlərdə oxusunlar. Nə üçün? Birinci, bunu mən etiraf etməliyəm ki, məsələn, Moskva universitetində təhsil o vaxt Bakı universitetinin təhsilindən yüksək idi. Mən istəyirdim ki, azərbaycanlılar daha da yüksək təhsil alsın. İkinci ona görə ki, gedib orada Rusiyanın vasitəsilə dünya mədəniyyətinə qoşulsun, dünya elminə qoşulsun, gəlib elə bircə öz evində, öz komasında, öz kəndində, öz şəhərində yaşamasın, dünyanı görsün. Əgər onda İsveçrə, Almaniya, Fransaya getmək imkanı yoxdusa, çalışırdım ki, heç olmasa Sovetlər İttifaqının bütün yerlərində olsunlar. Üçüncüsü də ona görə ki, qoy hər yerdə azərbaycanlı olsun. Hər yerdə azərbaycanlı olanda Azərbaycan Respublikasının dayağı da çoxalır. İndi isə hüdudlar açılıbdır, azərbaycanlı hər yerdə yaşaya bilər. İndi hər bir ölkədə nə qədər çox azərbaycanlı olsa, o qədər də yaxşı olar. Mən bununla onu demək istəmirəm ki, Azərbaycanda yaşayan adamlar çıxsınlar getsinlər başqa ölkələrdə yaşasınlar, yox. Ancaq kimi ki həyat, onun taleyi gətirib bir ölkəyə salıbdır, əgər orada yaxşı yaşayırsa, əgər orada yaxşı təhsil alıbsa, yaxşı işi varsa, bu, Azərbaycanın xeyrinədir. Ancaq bir şərtlə ki, milliyyətini unutmayasan, dinini unutmayasan, torpağı unutmayasan, ana vətəni unutmayasan. Amma onu da bilin ki, indi sizin arxanızda müstəqil Azərbaycan dövləti kimi bir dövlət var".*

...Unudulmaz Heydər Əliyev Bakıdan, Azərbaycandan, hər bir azərbaycanlıdan başlayaraq dünyanın dörd bucağındakı azərbaycanlılara doğru uzanan yollar yaratdı və dünyadan nigaran getmədi. O, arzusunda idi ki, yaratdığı bütün yollar davam etsin və dünyadan arxayın getdi ki, yaratdığı bütün yollar kimi, Bakıdan, Azərbaycandan, hər bir azərbaycanlıdan başlayaraq dünyanın dörd guşəsindəki hər bir azərbaycanlıya doğru uzanan yollar da qırılmayacaq, itməyəcək, hökmən davam edəcək. Əmin idi ona görə ki, dövlət sükanı özü kimi inandığı etibarlı əllərə keçirdi. Arxada qalan son iyirmi ildən artıq müddət də bu həqiqətin əlvan mənzərəsini ortaya qoymaqdadır.

...Füsunkar Bakımızın tən mərkəzindəki "İsmailiyyə" binası memarlıq incisi, bir mütənasiblik abidəsidir. XX yüzilliyin başlanğıcında bolşeviklər gəlirkən o binanın yuxarı qatında orta əsrlər müdrikinin ərəb əlifbası ilə ornament kimi yazılmış iki zərbüməsəl yerində idi, küçədən keçənləri ayaq saxlayaraq bu gözəlliyi seyrə dalmağa, həmin qocalmaz ibarələri oxumağa sövq edirdi.

Bolşeviklər İslamın qalığı deyərək çox yadigarları məhv etdikləri kimi, göz oxşayan naxışdan ibarət o hikmətli cümləri, göyçək nəqqaşlıq örnəyini də sındırıb dağıtdılar. Həmin atalar sözü qədər dərin hikmətlərdən biri belə idi: "Balalarınızın tərbiyəsini zamanın ixtiyarına buraxın. Çünki onlar sizdən daha əvvəl zamanın övladlarıdır".

Bu gün Azərbaycan dövlətinə uğurla rəhbərlik edən, Azərbaycanı ildən-ilə daha möhtəşəm zəfərlərə çatdıran Fateh Prezident İlham Əliyev Uca Heydər Əliyevdən irs qalan yolların hər birini ləyaqətlə davam etdirir, öz əlavələri, yenilikçi baxışları və heyrətamiz miqyasları ilə xarüqələr yaradır.

Prezident İlham Əliyev Ulu öndərin canının, varlığının bir parçasıdır, təbii ki, genetik olaraq, qan yaddaşı ilə Heydər Əliyevin bir çox fərasətləri, bacarıqları, istedadları da irsən ona nəsib olub. Amma Prezident İlham Əliyev həm də yeni zamanın, müasir dövrün övladıdır axı və Heydər Əliyevin təməlçisi, açıcısı olduğu bütün yolları davam etdirərkən Ulu Öndərin ülgülərini müəyyənləşdirdiyi azərbaycançılıq xəttini də dəyişən vaxtın tələb və istəklərinə uyğun olaraq cilalayır, yeni çalarla zənginləşdirir, daha geniş üfüqlərə doğru dikəldir.

Diaspor quruculuğunda inkişaf elə həddə yetişib ki, XXI əsrin başlanğıcındakı vəziyyətlə tutuşduranda sanki üçqat artıq zaman sovuşub.

...Unudulmaz Heydər Əliyevin dəmir kimi möhkəm, etibarlı yaddaşı vardı. Çoxlarında heyrət və heyranlıq oyadan bu qüvvətli hafizədə minlərlə insan surəti, rəqəmlər, hadisələr pozulmaz şəkildə həkk olunmuşdu. Amma Heydər Əliyevin hafizəsi bir başqa cəhətdən də seçilən idi. O, milli yaddaşa son dərəcə etibarlı idi. Milli yaddaşın əhatə elədiyi milli-mənəvi dəyərlərə bağlı idi və dünya boyu gəzib dolaşdıqca soydaşlarımıza da həmişə tövsiyə edirdi ki, milli dəyərlərə köklənin, milli rişələrdən aralı düşməyin. Millət müəllimi Heydər Əliyev qanımızda, ruhumuzda, varlığımızda nəbz olub çırpınan milli yaddaşı özlüyümüzü qorumağın zəmanəti adlandırırdı. Vətəndən uzaqlardakı soydaşlarımıza bu həqiqəti aşılayırdı ki, ən qəliz əhatədə, ən mürəkkəb şəraitdə də əriyib itməməyinizin "qızıl açar"ı milli-mənəvi yatırımıza bağlılıqdadır.

1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra Fransaya, Parisə ilk səfərində Heydər Əliyev çevrəsinə Parisdə yaşayan soydaşlarımızı toplamışdı və onlarla birgə Sen-Klu qəbiristanlığına baş almışdı. O məzarlıqda Azərbaycanın and yeri sayılası qiymətli övladları – Üzeyir Hacıbəylinin qardaşı Ceyhun Hacıbəyli və Azərbaycanın ilk Milli Parlamentinin – Məclis-i Məbusanın sədri olmuş Əlimərdan bəy Topçubaşov uyuyur. Heydər Əliyev o məzarları ziyarət etməklə əslində bir yaddaş dərsi, "Unudulmamalılarımızı, şərəfi uca tutulmalılarımızı yaddan çıxarmayın!" tapşırığı vermişdi.

Bütün yönlərdə unudulmaz Heydər Əliyev yolunun ən ardıcıl və sabit davamçısı və irəlilədicisi olan Prezident İlham Əliyev 2006-cı ilin son may günlərində Parisdə idi və o da Əlimərdan bəy Topçubaşovun məzarını ziyarətə gəlmişdi. O şanlı məzarlara ehtiramlı salamını verdi və tövsiyəsini də etdi ki, bu məzar üzərində Əlimərdan bəy Topçubaşovun Azərbaycana və Əlimərdan bəyin özünə yaraşan abidəsi ucaldılsın. Amma verdiyi bir başqa tapşırıq da riqqət oyadandır – dövlət başçımız 1934-cü ildən həmin məzarın üstündə olan, bir zaman Heydər Əliyevin də sığalladığı, daha əvvəlki onillərdə nəsil-nəsil soydaşımızın qarşısında baş əydiyi əski kitabəli başdaşını da Azərbaycana gətirməyi məsləhət bildi.

Həmin daş lap çoxdandır ki, Bakıdadır, indi burada da ziyarət olunur və hər dəfə də Prezident İlham Əliyevin bu nəcib hərəkəti ilə ardıcıllara ötürdüyü mühüm öyüdü yada salır: "Yurdun hər daşını qoruyun. Çünki yurdun hər daşında millətin yaddaşı yaşayır!"

Bunlarsa yenə unudulmaz Heydər Əliyevin qəriblikdəki vətən balalarına ünvanlanmış, onları əmələ, gərəkli işlər görməyə səsləyən köhnəlməz ərkli qınağı, xeyirxah nəsihətlərindəndir: *"Mən heç kəsi qınamıram. Ancaq azərbaycanlılar Avropada çox yaşayırlar. Təəssüflər olsun ki, onlarda, mən açıq deyirəm, incimeyin, vətənə münasibət, vətənə qayğı, vətən hissiyyatı zəifdir. Bilirəm, vətəndən ötrü ürəyiniz gedir. Bilirəm, çox istəyirsiniz, bunu bilirəm, amma əməli işdə nə edə bilirsiniz? Heç bir şey. Bəs niyə? Bizim üçün asandırmı orada? Ona görə də mən arzu edirəm ki, bizim həmvətənlərimiz, azərbaycanlılarımız öz azərbaycanlılıqlarını nəinki unutmasınlar, həmişə bu hissiyyatlarla yaşasınlar. Azərbaycan bir müstəqil dövlətdir, bu, tarixi bir hadisədir. Biz bütün dünya beynəlxalq təşkilatlarının üzvüyük. Bizimlə indi bərabərhüquqlu danışırlar.*

*Azərbaycanı gərək gücləndirək, elə möhkəmləndirək ki, bütün dünyada olan azərbaycanlılar daha da özlərini yaxşı hiss eləsinlər. Amma dünyada olan azərbaycanlılar da hansı ölkədə yaşamağından asılı olmayaraq, gərək Azərbaycan haqqında düşünələr. Müstəqil Azərbaycan Respublikası haqqında düşünsünlər".*

...Orta əsrlərdə babalar qalalar ucaldırdı. Hasarlar, bürclər tikirdilər ki, yurdu, xalqı yadellilərdən, düşmənlərdən mühafizə etsinlər. XX yüzilliyin son çərəyində, XXI əsrin başlanğıcında böyük azərbaycanlı və böyük azərbaycançı Heydər Əliyevin ən ali məqsədi, ən böyük amalı bir Azərbaycan qalası qurmaq idi. Elə bir qala ki, Azərbaycanı da, xalqı da ən yad nəfəslərdən, ən riyakar qüvvələrdən hifz edə bilsin. Heydər Əliyev dərin siyasətçi idi. Anlayırdı ki, tarix səhnəsində bu gün Azərbaycan hansı məkrli düşmənlə üzbəüzdür. O, yaxşı bilirdi ki, Azərbaycanın qarşı-qarşıya dayandığı erməni diasporası, əlləri çox uzun erməni lobbisi hansı imkanlara malikdir. Bunun qarşısına isə yalnız Azərbaycan qalası ilə çıxmaq mümkündür. Heydər Əliyev bunu hələ çox uzaq onillərdən bilirdi və ona görə də təməli elə onillər öncədən də görməyə başlamışdı. Hələ sovet dönəmində "Vətən" cəmiyyətinin yaranmasının təşəbbüsçüsü olmuşdu. "Vətən" cəmiyyəti bir körpüyə dönmüş, dünyanın dörd bucağına səpilmiş azərbaycanlılarla yurdumuz arasında rabitələri qurmağa başlamışdı və artıq müstəqillik dönəmində Heydər Əliyev bu işi daha böyük miqyasda həyata keçirməyə başladı. Əvvəlcə özü dünyanı qarış-qarış gəzdi, Azərbaycan icmasının təmsilçiləri ilə görüşdü, onları öz ətrafında cəmlədi, soydaşları sabahkı böyük niyyətləri üçün tənzimlədi. Bunun ardıncasa xəyala belə sığmayan növbəti addımını atdı. 1926-cı ildə Bakıda möcüzə sayılası hadisə baş vermiş – ilk türkoloji qurultay keçirilmişdi. Sovet repressiyaları başlananda həmin Birinci Türkoloji qurultaya toplaşmış parlaq Azərbaycan ziyalılarının hamısı məhv edildi. Heydər Əliyev 70 il sonra bu tarixi ədalətsizliyi də aradan götürdü – Türkoloji qurultayın ildönümünü keçirdi və ardınca da Azərbaycanda bir röya, əfsanə sayılacaq arzunu gerçəkləşdirdi. Ən müxtəlif ölkələrə səpilmiş azərbaycanlıları Bakıya çağırdı, dünya azərbaycanlılarının ilk qurultayını keçirdi. Bu, Heydər Əliyevin ucaltmaq arzusunda olduğu Azərbaycan qalasının ilk ən mühüm, ən vacib bünövrəsi idi. Ardınca xaricdə yaşayan soydaşlarla daimi əlaqə saxlayacaq bir komitəni təsis etdi. Bu komitə qısa zamanda xaricdə yaşayan, bütün dünya boyu səpilmiş azərbaycanlıların doğmaca evinə döndü. Heydər Əliyev elə bir Azərbaycan qalası yaratdı ki, ona daha heç vaxt zaval olmayacaq: *"İndi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması indi tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxmışdır. Bizim vəzifəmiz – Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, dünyada bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək indi artıq müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir. Biz böyük məmnuniyyətlə indi qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində, Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və bunlar azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Son illərdə bu proses sürətlə həyata keçirilir və güman edirəm ki, müstəqil Azərbaycanın varlığı məhz bu həmrəyliyin inkişaf etməsinin əsasını təşkil edir. Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar öz ölkələrinin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar, ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı – bütün azərbaycanlıları birləşdirən bizim milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir – ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, bizim xalqa məxsus olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimilyasiya prosesi də var. Gərək insanlar, – mən azərbaycanlılar haqqında danışıram, – yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, öz milli köklərinə sadiq olsunlar".*

Bu, unudulmaz Heydər Əliyevdən bizə saxlanc olan bir düsturdur. Milləti, onun yaddaşını, ruhunu qoruyub yaşatmağın, dünyadakı xalqlar sırasında həmişə öndə qala bilməyin düsturu.

...Yaşı bilinməyən dağlarımızın çərgəsində bir Heydərbaba dağı ucalır. Ustad Şəhriyar o dağa təzim etdi, "Heydərbabaya salam" yazdı. Amma Azərbaycan tarixinin bir başqa "Heydərbaba dağı" da var. Azərbaycan uşaqları, yeniyetmələr sevə-sevə Ulu Öndərə "Heydər baba" deyirlər.

"Heydər Əliyev dağı" Azərbaycan tarixinin bütün gələcəklərində ucalacaq və Azərbaycan xalqı – millətimiz də həmişə o dağa – böyük Heydər Əliyevə salamlar göndərəcək.

Heydər Əliyev ömrü boyu çalışdı ki, ölkəsinin sərhədləri keçilməz olsun, toxunulmaz olsun. Amma Heydər Əliyevin ən böyük arzusu idi ki, milləti sərhədsiz olsun, millətinin sıra nəfərləri arasında sərhəd qalmasın – onlar bir-birinə əl uzatsınlar, yaxın olsunlar, doğmalaşsınlar, qaynayıb-qarışsınlar, can deyib can eşitsinlər. Bu arzusuna yetmək üçün Heydər Əliyev ən möhkəm təməllər yaratdı, o bünövrə üzərində millətimiz ucalır, həmin özüllər üstündə dünya azərbaycanlıları yüksəlir. Bu millət dayaqları üzərində ucalan dünya azərbaycanlılarının – bütün millətimizin Heydər Əliyevin o böyük arzusunu sonadək həyata keçirmək, ən parlaq bir gerçəyə döndərmək vəfa borcudur.

# Azərbaycanlıların həmrəyliyi

## I MƏQALƏ

**Bizim müstəqilliyimizin bu günü və gələcəyi Azərbaycan xalqının birliyindən, Azərbaycan xalqının həmrəyliyindən, Azərbaycan xalqının öz müstəqilliyini qorumaq əzmindən asılıdır**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

### Qurtuluş məqsəd kimi

1993-cü ildə Azərbaycana cəmiyyət və dövlət kimi bir çox mənalarda qurtuluş lazım idi. Ölkə KİV-də həmin dövr kifayət qədər geniş təhlil edilmişdir. Lakin, bütövlükdə, cəmiyyət və dövlətlə yanaşı, hər bir Azərbaycan vətəndaşının qarşısında ciddi bir aktual məsələnin dayandığını bir də təkrar etməyə ehtiyac vardir. Həmin məsələ fərdi və kollektiv səviyyələrdə mənəvi, ideya, əxlaq, ideologiya və mədəniyyət özünəməxsusluğu kimi insanların və bütövlükdə, cəmiyyətin ciddi dəyişməsinə bağlı idi. Çünki 1991–1993-cü illərdə, təəssüf ki, Azərbaycan cəmiyyəti və dövləti parçalanmaya, qarşıdurmaya, bir-birini qəbul etməməyə sürükləyən çox hadisələr baş vermişdi. Politologiyada buna "siyasi, mənəvi, ideoloji xaos" deyirlər. Onun əsas nəticəsi isə birdir – fərdiçilik sarsılır və kollektiv formada mövcud olmaq şansı minimuma enir. Çünki bütövlükdə söhbət cəmiyyətin mövcud olub-olmaması probleminə reduksiya olunur.

Nəzəriyyədə və praktikada bu cür dərin böhrandan kollektiv formada çıxmağın başlıca parametrləri sırasında "həmrəylik" adlanan sosial, siyasi, ideya, mənəvi, mədəni və bütövləşdirici funksional xaraktersitikası olan fenomen-proses ayrıca yer tutur. İlk baxışdan aydın və sadə görünən bu terminin məna çalarları genişdir və onun məzmununun reallaşması kifayət qədər çətin gedişatdır. Tarix boyu hər bir cəmiyyət müxtəlif səviyyələrdə bu məsələ ilə rastlaşmışdır. Yanaşmalar və qiymətləndirmələr də fərqlidir. Bu o deməkdir ki, konkret tarixi dönəmdə ayrıca cəmiyyət üçün həmrəyliyin optimal nəticəverici nümunəsinin formalaşması statik deyil, dinamik prosesdir. Bunun üçün liderin düzgün seçim etmək qüdrəti gərəkdir. Həmin məqamda cəmiyyətin tarixi proseslərin kəsişmə sahəsində ideya sahəsində strateji düzgün olacaq birlik, həmrəylik nümunəsini seçmək imkanları ön plana çıxır. Qısa müqayisədə vurğulanan sonuncu tezisi izah edək.

### Habermasın narahatlığı

Yurgen Habermas müasir Qərb fəlsəfəsinin görkəmli nümayəndələrindəndir. O, Qərb cəmiyyətlərində dialoq və həmrəylik məsələlərini də araşdırmışdır. Bu problemlərə alman filosof kommunkasiya təlimi prizmasında yanaşmışdır. Yəni "insanların qarşılıqlı ünsiyyətlərinin yekun effekti olaraq toplum miqyasında birgəyaşamı ziddiyyətsiz təmin edə biləcək şərtlər hansılardır?" sualına fəlsəfi cavab axtarışı sadə və aksiomatik cavabı olan elmi problem deyildir.

Ayrıca, Y.Habermas tədqiqatında avropalılar üçün nikbin olmayan qənaətə gəlir: Avropa dövlətləri və xalqları hələ də real qalıcı həmrəyliyin modelini tapa bilməmişlər! Rusiyalı filosof N.V.Matraşilova Y.Habermasın həmrəyliklə bağlı fikirlərini Rusiyadakı real vəziyyət kontekstində təhlil edir və ürəkaçan qənaətə gələ bilmir. Hətta 2007-ci ildə dərc etdirdiyi "Müasir dövdə sivilizasiya və barbarlıq" adlı əsərində "Rusiya sivizlizasiya kimi geridə qalır" tezisini irəli sürür. Bu zaman əsas səbəblərdən biri kimi, cəmiyyətdə real həmrəyliyin, məqsəd birliyinin olmamasını göstərir.

Başqa fəlsəfi yanaşmaları da göstərmək olar, ancaq onların, bütövlükdə, başlıca sualı belədir: müasir cəmiyyətlərdə hər bir toplumun özünəxas nəticəverici həmrəylik nümunəsi vardır və hazırkı mərhələdə buna tək-tək toplumlar nail olmuşlar. Azərbaycanın müasir təcrübəsinə bu tezisin işığında baxanda azərbaycanlıların həmrəyliyinin müsbət nəticələrinin mövcudluğu faktını ilk qəbul etməliyik. Öncə, müasir mərhələdə "azərbaycanlıların həmrəyliyi" ifadəsinin tarixinə baxaq.

### 1989-cu il: Naxçıvandan başlayan həmrəylik hərəkatı

Maraqlı və əhəmiyyətlidir ki, azərbaycanlıların indi işlətdiyimiz anlamda həmrəylik nümunəsi daha çox nəzəri-konseptual çərçivədə deyil (təbii ki, Azərbaycan fikir tarixində hərməyliyin çox ciddi araşdırıldığını və ayrıca təlimlərin yaradıldığını (məsələn, "milli təsanüd") qətiyyən arxa plana atmaq olmaz), cəmiyyətimiz üçün çox aktual olan praktiki bir vəzifəni yerinə yetirmək canatmasından yaranmışdır. Məsələnin əsas olaraq praktiki müstəvidə qoyuluşu iki məqsədi güdür: birincisi, "həmrəyliyə" nəzəri-konseptual termin kimi deyil, konkret bir tarixi dönəmdə Azərbaycan üçün müsbət nəticələr verən praktiki proses, hərəkat kimi baxmaq, ikincisi, "həmrəyliyin" bu cür praktiki məzmunundan onun fəlsəfi və politoloji ümumiləşdirilməsinə nail olmaq. Bu iki aspekt vəhdət halında həmrəyliyin həm sosial-siyasi, mənəvi-mədəni funksiyasını, həm də kollektiv birliyin müstəqil dövlət quruculuğunda oynaya biləcəyi yüksək rolu ayrıca təhlil etməyi aktuallaşdırmaqda motivəedici ola bilər.

Yəni avropalılar və ya ruslardan fərqli olaraq, müasir mərhələdə azərbaycanlılar cəmiyyətimiz üçün fövqəladə əhəmiyyətli və aktual olan praktiki problemin həlli fonunda bu anlayışı konseptuallaşdırmışlar. Tədqiqatçılar tərəfindən vurğulanmayan bu məqam prinsipial əhəmiyyət daşıyır. Onun müxtəlif məna çalarları məqalənin gedişində aydınlaşacaqdır. İndi problemin fəlsəfi və politoloji anlamına baxaq.

### Həmrəyliyin Naxçıvan sinerjisi

Fəlsəfi olaraq bu fakta, ümumiyyətlə, milli müstəqil dövlət quruculuğunun Naxçıvan sinerjisinin tərkib hissəsi kimi baxmaq gərəkdir. Çünki öncədən strateji məqsəd Azərbaycanda müstəqil dövlət qurmaqdan ibarət olmuşdur. Həmrəyliyin təmini məsələsi də bu məqsəd üçün aktuallaşdırılmışdır.

Bundan başqa, həmrəyliyin Naxçıvan sinerjisinin konkret praktiki vəzifəsi və reallaşma mexanizmi vardı. Bu iki mühüm faktorun prizmasında onun əsas əlamətlərini araşdırmaq vacibdir.



Hər şeydən öncə, həmrəyliyin Naxçıvan sinerjisinin əsas əlamətlərindən biri kimi onun praktiki və millət üçün aktual olan problemi həll etmək məqsədini vurğulamalıyıq. 1989-cu ildə bu ideyanın feili ifadəsi SSRİ–İran sərhəd dirəkləri və texniki qurğularının sökülməsindən ibarət idi. Naxçıvanlılar bu məsələni 1989-cu il dekabrın sonlarında gündəmə gətirdilər və onu praktiki həyata keçirdilər. Bununla həmrəyliyin Naxçıvan sinerjisinin çox vacib başqa bir özəlliyi aydın olur: təməldən həmrəylik konseptlə ideyanın praktiki reallaşmasının vəhdətindən ibarət olmuşdur! Bu, müasir mərhələdə həmrəyliyin Azərbaycan təcrübəsinin olduqca əhəmiyyətli müsbət keyfiyyətidir!

Eyni zamanda, həmrəyliyin Naxçıvandan başlayan hərəkatlılığında tarixi kontekst aparıcı yer tuturdu. İnsanlar konkret olaraq Azərbaycanı bütöv görmək istəklərinin yerinə yetirilməsi üçün həmrəy olmağı əsas faktorlardan biri kimi təhtəlşüurda qəbul etmişdilər. Buna görədir ki, 1989-cu ildə qarşıda konkret fəaliyyət istiqaməti müəyyən edilmişdi: Cənubi Azərbaycanla Şimali Azərbaycan arasında əsrlərdir yaradılmış süni təcrid vasitələrini tarixin arxivinə atmaq. Ədalətli, hüquqi, tarixi, mənəvi əsası olan və Azərbaycan dövlətçiliyi ənənəsi kontekstində strateji xarakterli ülvi məqsəddir, deyilmi?! Bu məqam həmrəylik kontekstində Naxçıvan sinerjisinin tükənməz potensialını və dəyişməz ruhunu təşkil edir! Məhz buna görədir ki, həmrəylik Naxçıvandan bütün Azərbaycana və sonrakı mərhələdə Türk dünyasına konsept statusu ilə yanaşı, nəticəverici praktiki fəaliyyət proqramı kimi yayıla bildi! Bu da Azərbaycan təcrübəsinin, ümumiyyətlə. həmrəylik məsələsinə verdiyi qiymətli töhfələri sırasındadır.

Nəhayət, həmrəyliyin Naxçıvan sinerjisinin fəlsəfi məna çaları və anlamı olan bir maraqlı özəlliyini də vurğulamaq zəruridir. Məsələ onunla bağlıdır ki, əgər həmrəylik konsepti praktiki və millət üçün bu anda aktual olan vəzifədən qaynaqlanırsa, bu artıq toplum miqyasında insanların öncədən onu həyata keçirməyə hazır olduğunun göstəricisidir. Çünki söhbət hansısa nəzəri bir birləşmək modelini təfəkkürdə elmi olaraq dərk etməkdən getmir – vəzifə və məqsəd konkretdir: azərbaycanlılar indi bunu etməsələr, bütövlükdə xalq kimi mövcud olmaları şansı minimum olacaqdır!

Naxçıvanda 1989-cu ildə qarşıya qoyulan o vəzifə hansı idi? Həmin vəzifə belə müəyyənləşmişdi: "Cənubi və Şimali Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə sərhəd çəpərləri götürülməli və mühəndis-texniki qurğular sökülməlidir"! Əslində, təbii istəkdir!

Obrazlı desək, "Sərhəd hərəkatı"nı bütün Naxçıvan əhalisi və siyasi dairələri birmənalı dəstəkləyirdi. Bəlkə də məhz həmrəyliyin Şimalla Cənub arasında süni maneələri aradan qaldırmaq məzmunu aldığına görə, həmin dövrdə Naxçıvanda mövcud olan müxalif və hakim dairələr onu birgə dəstəklədilər, bu məsələdə həmfikir oldular (bəzi sovet təfəkkürlüləri çıxmaq şərti ilə). Bu prosesin hüquqi təsbiti və təsdiqini isə ulu öndər Heydər Əliyev həyata keçirdi. O dönəmdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olna Heydər Əliyev, 1991-ci il dekabrın16-da dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini bəyan etdi. Və dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Bununla bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qəbul etdiyi qərarda vurğulanırdı:

1. "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü elan olunsun və hər il bayram edilsin.

2. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.

3. 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Ali Sovetinə təklif verilsin.

4. Naxçıvan Muxtar Respublikasının şəhər və rayon məclislərinə tapşırılsın ki, bayram günləri demokratik təşkilatların iştirakı ilə təntənəli mərasimlər hazırlayıb həyata keçirsinlər.

5. Akademik Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan şöbəsinə, Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan vilayət şöbəsinə, Xalq Təhsili Nazirliyinə tapşırılsın ki, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Gününə həsr olunmuş elmi konfrans keçirsinlər.

6. Sərhəd çəpərlərinin bərpa edilməsi qanunsuz hesab edilsin və istehkam qurğularının ləğv edilməsini təmin etmək üçün deputat komissiyası yaradılsın".

Bu bəndlərdə azərbaycanlıların həmrəyliyi məsələsinə fəlsəfi aspektdə diqqət etsək görərik ki, yuxarıda vurğuladığımız və bu gün də aktual olan məqamların təməlində həmrəyliyin Naxçıvan sinrejisinin dövrün tələbləri konteksrtində aktuallaşdırdığı bir çox faktor dayanır. Elmi və tarixi baxımdan bu, adi fakt deyildir və heç də Azərbaycanın hər hansı bir regionunun mənəvi, tarixi, mədəni, ideya və ideoloji sərhədləri ilə məhdudlaşmır. Hərmyərliyin Naxçıvan sinerjisinn nəzəri və praktiki potensialı feili olaraq cəmiyyətin toparlanmasında istiqamətverici və stimullşadırıcı rol oynamışdır! Həmrəyliyin təməlinə tarixi ədalətlin bərpası və müstəqil dövlətçiliyin təmin edilməsi ruhu qoyulduğundan, bu təsir indi də davam edir. Onun əyaniləşmə formaları həmrəyliyin Azərbaycan və Türk dünyası miqyaslarında aldığı məzmunda özünü göstərməkdədir.

Həmrəyliyin vurğuladığımız xüsusiyyətlətindən fəlsəfi və siyasi-nəzəri konteksti strateji aspektdə güclü olan dörd nəticə ala bilərik.

Birincisi, həmrəyliyin Naxçıvan sinerjisinin həmin dövrdə həm də siyasi düşərgələri bir araya gətirməsi nümunə kimi genişləndirilib bütövlükdə Azərbaycanda birliyin modelinə daxil edilə bilər. Yəni siyasi lider kollektivi monolitləşdirən elə məsələləri aktuallaşdıra bilər ki, bütövlükdə cəmiyyətin bütün kəsimlərini birləşdirər. Bu baxımdan Vətən müharibəsi dönəmində azərbaycanlıların həmrəyliyinin məzmununda milli ideyanın reallaşması aparıcı yer tutmuşdur. Bu tezis fəlsəfi cəhətdən tədqiq edilməlidir.

İkincisi, II Qarabağ müharibəsində Prezident İlham Əliyevin bəyan etdiyi "tarixi ədalətin bərpası"nın ideya təməlində 1989-cu ildən formalaşan həmrəyliyin Naxçıvan sinerjisinin mənəvi, ideya, ruhsal və məqsəd özəllikləri ayrıca yer tutur.

Üçüncüsü, həmrəyliyin Naxçıvan sinerjisi faktiki olaraq sonrakı mərhələlərdə kollektiv miqyasda milli ləyaqətin yenidən dirçəlişinin stimullaşdırıcı mexanizmidir.

Dördüncüsü, tarixi baxımdan qısa bir müddətdə Avrasiya məkanında bir müstəqil dövlət həmrəyliyi regional miqyasdan ölkə miqyasına, oradan isə daha geniş əhatədə birgəyaşam məkanına (Türk dünyası) nəzəri və praktiki transformasiya edə bildi.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Hər şey yaxşı olacaq!

## *Yaxud qəzanın ibrət qeydləri*

**Dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı–Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsinin fiziki və texniki kənar müdaxilə nəticəsində qəzaya uğraması və çoxsaylı insan tələfatı dünyanın diqqətini Azərbaycana yönəltdi. Kaş belə diqqət olmayaydı. Kaş bu faciə yaşanmayaydı. Amma... Edəcək bir şey yoxdur.**

Dünyanın diqqəti Azərbaycana həm də ona görə yönəldi ki, qəzadan sağ çıxanlar oldu. Təyyarə qəzalarında bu, çox nadir rast gəlinən haldır. Məsələn, bir neçə gün əvvəl Cənubi Koreyada baş vermiş qəza nəticəsində 181 sərnişinin hamısı həyatını itirdi. Dəhşətdir həqiqətən. Havadasan gücün heç nəyə çatmır. Kim olursansa ol...

Dünyanın diqqəti ölkəmizə, eyni zamanda, o səbəbdən yönəldi ki, məlum təyyarə qəzasında Rusiya–Ukrayna müharibəsinin izləri var. Hər halda, hadisənin Rusiyanı hədəf seçən Ukrayna PUA-larının zərərsizləşdirilməsi gedişində baş verdiyi təsdiqlənib. O da aydındır ki, ortada öz işinə məsuliyyətlə yanaşmayanlar var. Onların hər biri cəzasını almalıdır və alacaq da.

"Embraer 190"a kənar müdaxilə raket hücumundan müdafiə sistemi olmuşdu. Rusiya–Ukrayna müharibəsindən söz düşmüşkən, bu savaşın miqyasının genişləndiyinin şahidiyik və mahiyyətcə üzləşdiyimiz təyyarə qəzası da fikrimizi təsdiqləyir. "Uzaq sahillərdə" filmini xatırlayaq. Qəhrəman Mixaylonun təbirincə desək, artıq müharibə bizim dağlara da gəlib çıxıb. Durum düşündürücüdür. Müharibə dünyanın düzənini pozur. Necə də düşünməyək?

...Əlbəttə, böyük faciə yaşadıq, üzüldük, sarsıldıq. Amma qəza xalqımızın monolitliyini bir daha göstərdi. Bəli, dünya Azərbaycandakı vəhdətə heyran qaldı. Bunu müxtəlif şərh və fikirlərdən də görmək mümkündür. Habelə, dünya ölkəmizdəki xalq-iqtidar birliyinin sarsılmazlığını da gördü. Gördü ki, vətəndaşlarımızın ölkə iqtidarına inamı və etimadı son dərəcə yüksəkdir. İnsanlarımız bir an belə qəza ətrafındakı oyunların hansısa nəticə verəcəyini düşünmədilər, tam əmin oldular ki, Prezident İlham Əliyevin prinsipiallığı və qətiyyəti nəticəsində əsl həqiqətlər üzə çıxacaq. Üzə çıxdı, hələ çox mətləblərə aydınlıq gələcək.

Bəli, "Embraer 190" olayı prinsipiallığımızı daha dolğun boyalarla ortaya qoydu. Azərbaycan qüdrətli ölkədir. Hadisə qüdrətimizi təsdiqlədi. Kimsədən heç nə ummadıq, kimlərəsə canayananlığının yersizliyini anlatdıq. Anlatdıq ki, əsl dövlət necə olmalıdır. Dövlətin hansı tərzdə işlədiyini, işləməli olduğunu göstərdik. Göstərdik ki, özlərini necə təqdim etmələrindən asılı olmayaraq, kiçiklər kiçik kimi qalmalıdırlar, onlara böyüklərin cərgəsində yer yoxdur. Saxtaların da yerlərinin harada olduğuna işarəmizi verdik.

Təyyarə qəzası dostu və düşməni tanımağımıza bir daha imkan yaratdı. Əslində,



bunu əvvəldən də bilirdik. Sadəcə, təkrar biliyin anasıdır deyirlər. Məlum qəza nəticəsində biliyimizi təkrarladıq. Kimlərin hansı tərzdə, hansı məqsədlə faciəyə münasibət göstərdiyini seyr etdik, başsağlığı adı altında nə kimi oyunbazlıq niyyətlərini ortaya qoyduqlarının fərqinə vardıq. Əvvəlki qənaətimizi möhkəmləndirdik. Qoy dost dostluğunda qalacaq. Düşmən düşmənliyindən əl çəkməsin, fürsətcillər də riyakarlıqlarında olsunlar. Özlərinin miskin və rəzil dünyalarında yaşasınlar. Bizim dünyamızda onlara yer yoxdur və olmayacaq.

Məlum qəza Azərbaycan övladlarının növbəti qəhrəmanlığına şahidlik etdi. Qəhrəmanlığın tam pafossuz, heç bir bəzək-düzəksiz olay olduğunu gördük, dünyaya göstərdik. Göstərdik ki, ən böyük vətənpərvərlik öz işini ustalıqla icra etməkdir, işinə məsuliyyətlə yanaşmaqdır. "Embraer 190"ın ekipaj heyətinin sayəsində yeni qəhrəmanlıq tariximiz yazıldı. Deməli, yalnız müharibə meydanında mübarizə aparmırıq, bütün meydanlarda varıq.

Nəhayət, "Hər şey yaxşı olacaq" demişdi igid təyyarə bələdçimiz Hökumə Əliyeva. Onun titrək səsində böyük ümid sorağı var. O səs ölümə meydana oxuyan çağırışdır. İnsan ağlının almayacağı müqəddəs bir çağırışdır o səs. Əlbəttə, ölümlə üz-üzəykən bu çağırışa cəsarət edən Vətən övladlarının yetişdiyi ölkə üçün hər şey yaxşı olmalıdır. Bəli, hər şey yaxşıdır və daha yaxşı olacaq. Buna əminik! Təyyarəmiz endi, Vətənimiz yüksəldi! Daim yüksəklərdə olaq!

***Əvəz RÜSTƏMOV***
***XQ***

# “Üzrxahlıq hüquqi məsuliyyətin etirafı sayılır”

## Tanınmış hüquqşünas məlum təyyarə qəzasını hüquqi aspektdən dəyərləndirir

**“Azərbaycan Hava Yolları” aviaşirkətinə (AZAL) məxsus “Embraer 190” təyyarəsinin qəzaya uğraması ilə bağlı məsələ həm yerli, həm də dünya gündəminin əsas mövzularından biri olaraq qalmaqdadır. “XQ” Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, professor İsaxan Vəliyevdən qəza ilə bağlı ictimaiyyəti narahat edən bəzi suallara aydınlıq gətirməsini xahiş etdi.**



**– İsaxan müəllim, bu gün cəmiyyəti narahat edən əsas məsələlərdən biri 2024-cü dekabrın 25-də sərnişin təyyarəsinin Rusiya Federasiyanın hava hücumundan müdafiə qurğuları vasitəsilə qəsdən vurulması barədə yayılan xəbərlərdir. Sizin bu məsələyə münasibətiniz necədir?**

– Azərbaycan–Rusiya dövlətləri arasında dostluq münasibətləri tarixi, siyasi, iqtisadi, mədəni və humanitar sahələri əhatə etməklə geniş və çoxaspektli əlaqələrə əsaslanmaqdadır. İki ölkə arasında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş münasibətlərdə yaxınlaşma siyasəti Prezident İlham Əliyevin dövründə də dinamik inkişaf etmiş və strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır.

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikası 24 sentyabr 1993-cü il tarixində keçmiş SSRİ ölkələrinin əksəriyyətinin üzv olduğu Müstəqil Dövlətlər Birliyinə qoşulmuşdur. Hazırda bu birlik keçmiş sovet ölkələri arasında iqtisadi, siyasi, təhlükəsizlik və mədəni sahələrdə qarşılıqlı əlaqələrin inkişafına yönələn platforma kimi fəaliyyət göstərir, həmçinin geosiyasi sabitliyin təmin edilməsi, praktiki baxımdan Rusiya ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan–Rusiya əlaqələrinin inkişafında 1994-cü il sentyabrın 20-də dünyanın bir sıra qabaqcıl ölkələrinin imzaladığı "Əsrin müqaviləsi"ndə Rusiyanın da yer almasını xüsusi vurğulamaq lazımdır. İki dövlət arasında münasibətlərin yüksək səviyyədə olmasına xidmət edən sənədlərdən biri də, 3 iyul 1997-ci il tarixli “Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında” Bəyənnamədir. Həmin sənəd ilə Azərbaycan və Rusiya dövlətləri sərhədyanı regionlarda dostluq, mehriban qonşuluq, millətlərarası anlaşma, sülh və sabitliyin möhkəmləndirilməsi və öz ərazisində bir-birinin dövlət suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş təşkilatlar, qruplar və ayrı-ayrı şəxslərin fəaliyyətinin qarşısının alınması üzrə qarşılıqlı fəaliyyətin davam etdirilməsi üçün tədbirlərin görülməsi öhdəliyi götürülməklə, strateji tərəfdaşlıq üşün hüquqi əsas yaratmışdır. Münasibətlərin sonrakı inkişafı strateji tərəfdaşlığı müttəfiqlik fəaliyyəti səviyyəsinə qaldırmış və bu özünü Rusiya və Azərbaycan arasında 2022-ci il fevralın 22-də Moskvada imzalanmış “Azərbaycan və Rusiya arasında Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyənnamədə öz əksini tapmışdır.

Bir həqiqəti də heç zaman yaddan çıxarmaq olmaz ki, 44 günlük Vətən müharibəsi zamanı Ermənistan tərəfinin KTMT-yə üzv dövlətlərin müharibəyə müdaxilə edərək onların tərəfindən vuruşmalarını təkid etmələrinə baxmayaraq, Rusiya Prezidenti Vladimir Putin bu prosesdə Azərbaycanın mövqeyini müdafiə edərək, müxtəlif medialara müsahibəsində bildirmişdir ki, baş verənlərin bu təşkilata heç bir aidiyyəti yoxdur. Ona görə ki, Ermənistanın özünə heç bir xarici təcavüz olmayıb. KTMT təşkilata üzv ölkəni xarici təcavüzdən qorumalıdır. Qarabağla bağlı baş verən hadisələrin öz spesifikası var. Bu hadisələrin hüquqi nöqteyi-nəzərdən Ermənistana heç bir aidiyyəti yoxdur. Ona görə də KTMT-nin bu əraziyə görə vuruşmalı olduğunu iddia etmək qəribədir. Rusiyanın Azərbaycan üçün dost dövlət olmasına dəlalət edən xeyli sayda normativ hüquqi akt və hərəkətləri misal gətirmək olar. Bu baxımdan ölkəmizə məxsus sərnişin təyyarəsinin Rusiya hava hücumundan müdafiə qurğuları vasitəsilə qəsdən vurulması faktı iki ölkə arasında strateji müttəfiqlik münasibətlərinə kölgə sala bilməz.

**– Hadisədən dərhal sonra Azərbaycan hökumətinin operativ reaksiyası, belə ağır məqamda dövlət başçımızın davranışı diqqətdən yayınmadı...**

– Azərbaycan Prezidenti İlham Əliyev bu hadisəyə qədər də ekstremal situasiyalarda çevik və qətiyyətli davranışı, təmkinli, prinsipial mövqeyi ilə diqqəti cəlb edib. Cənab Prezidentin hadisədən xəbər tutan kimi Sankt-Peterburqa səfərini yarımçıq qoyaraq geri qayıtmasını, Bakıda ekstern müşavirə keçirməsini, qəzanın başvermə səbəblərini araşdırmaq üçün Baş nazirlin rəhbərliyi ilə Dövlət Komissiyasının yaradılması barədə sərəncam verməsini yalnız təqdir etmək olar. Ümumiyyətlə, dövlət başçımız ölkəmizin milli mənafeyi, xalqımızın sosial-mənəvi durumu ilə bağlı məsələlərdə həmişə diqqətli və həssas davranıb. Baş vermiş qəza ilə bağlı onun bu yüksək şəxsi keyfiyyətlərinin bir daha şahidi olduq. Müşavirədə təyyarənin qəzaya uğraması ətrafında müxtəlif fikirlərin, fərziyələrin dolaşdığını nəzərə çatdıran İlham Əliyevin göstərişi ilə Azərbaycan tərəfi hadisənin bütün insəliklərinə qədər araşdırılması, bu prosesə beynəlxalq ekspertlərin cəlb edilməsi, eləcə də qəzada təqsiri olanların mütləq qaydada cəzalandırılması məsələsi qaldırıldı. Bundan ötrü Aktauya Azərbaycandan aidiyyatı nazirlik və idarələrin rəhbərləri, ekspert qrupu göndərildi. Bu, həmin vaxt cənab Prezidentin hadisəyə ən dəqiq yanaşması idi.

Dövlətin böyüklüyü onun ərazisinin böyük-kiçikliyi ilə ölçülmür. Burada dövlət başçılarının siyasi iradəsi, beynəlxalq sanbalı və şəxsi keyfiyyətləri, zəkası böyük rol oynayır. Vətənsevərlik, millətsevərlik isə İlham Əliyevin iş üslubuna çevrilmiş ən ali keyfiyyətdir.

İndi Azərbaycan, təbii ki, Rusiya tərəfindən maddi və mənəvi zərərə görə təzminatın ödənilməsini gözləyir. Bu məsələnin beynəlxalq konvensuyalara uyğun şəkildə həll olunacağına şübhəm yoxdur.

**– Rusiya və Azərbaycan liderlərinin telefon danışığında sərnişin təyyarəsinin vurulmasının səbəblərinin dəqiq araşdırılması, təqsiri olanların məsuliyyətə cəlb edilməsi məsələsinə də toxunulub. Dünya təcrübəsində bu qəbildən olan hadisələr necə tənzimlənir?**

– Bəli, dünyada belə hadisələr çox olub. Bəzilərini yada salaq: 2001-ci il oktyabrın 4-də Sibir Hava Yollarına məxsus “Tu-154t” təyyarəsi Qara dəniz üzərində Ukraynaya məxsus “S-200” zenit-raket kompleksi tərəfindən səhvən vurulub. Ukrayna bu faktı etiraf etdi və ölkənin müdafiə naziri həlak olanların ailələri və yaxınlarından üzr istədi. Ukrayna 2003-cü ildə Rusiya və İsrail ilə qəzada ölənlərin yaxınlarına təzminat ödənilməsi haqqında hökumətlərarası saziş imzaladı. Qəzada həlak olanların ailələrinə və zərərçəkmşi şəxslərə ödəniməsi üçün Rusiyaya 7,8 milyon dollar, İsrailə isə 7,5 milyon dollar ayrıldı.

2014-cü il iyulun 17-də Ukraynanın Donetsk vilayəti üzərində “Malaysia Airlines” aviaşirkətinə məxsus "Boeing-777" təyyarəsi Rusiyadan göndərilmiş "BUK-M" zenit-raket kompleksi vasitəsilə vuruldu. Birgə istintaq qrupu təyyarəyə raketin Kursk yaxınlığında yerləşən Rusiya hərbi hissəsindən atıldığı açıqlandıqdan sonra Hollandiya və Avstraliya rəsmi olaraq Rusiyanı təyyarəni vurmaqda ittiham etdilər. Lakin Rusiya həmin ittihamları indiyədək rədd edir.

2020-ci il yanvarın 8-də Ukrayna Beynəlxalq Hava Yolları aviaşirkətinə məxsus "Boeing-737" təyyarəsinin İran hərbi qüvvələri tərəfindən səhvən vurulduğu müəyyən edildi. Faktla bağlı İran İslam Respublikası dərin təəssüf hissi keçirdiyini bildirdi və faciə qurbanlarının yaxınlarına başsağlığı verdi.

**– Bəs, beynəlxalq təcrübədə bu cür hadisələr zamanı hüquqi məsuliyyət necə həll olunur?**

– Məsuliyyət məsələsinə gəldikdə, bu sahədə dövlətlərin beynəlxalq hüquqi məsuliyyətini nizama salan normalar bu günə qədər məcəlləələşdirilməmişdir. Bu səbəbdən də baş vermiş hadisədə təqsiri olan dövlətin və ya onun vəzifəli şəxslərinin beynəlxalq məsuliyyətə cəlb edilməsi mexanizmi mövcud deyildir. Göründüyü kimi, dövlətlər könüllü olaraq təqsirini etiraf etdiyi halda zərər çəkənlərə və onların ailə üzvlərinə kompensasiyaların ödənilməsi və zərərçəkmiş tərəfdən üzr istəməsi hadisənin hüquqi qiyməti kimi qəbul olunur.

Rusiya ərazisində baş vermiş “Embraer 190” təyyarəsinin qəzasında çoxsaylı insan ölümünə görə rəsmi Moskvanın üzr istəməsi məsələsinə gəlincə, artıq, bu, baş vermişdir. Doğrudur, istintaq hələ başa çatmayıb, Dövlət Komissiyasının yekun qərarı da hələ açıqlanmayıb. Amma buna baxmayaraq, Rusiya sivil dövlət kimi bu məsuliyyəti öz boynuna götürdü. Bu, belə də olmalı idi. Çünki ölkənin Prezidenti hüquqşünasdır, beynəlxalq qanunvericiliyi və təcrübəni yaxşı bilir. Axı bu faciəyə görə Rusiya Federasiyasının üzr istəməsinə əsas verən kifayət qədər dəlil və sübutlar göz qabağındadır.

**P.S.** Hüquq elmləri doktoru, professor İsaxan Vəliyevin dediklərinə əlavə olaraq bunu da oxucuların nəzərinə çatdırmağı zəruri sayırıq. Dünən Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda yerli telekanala müsahibəsində təyyarənin Rusiya tərəfindən vurulduğunun danılmaz fakt olduğunu bildirdi: “Baxmayaraq, təbii ki, pilotlar təcrübəli pilotlar idi və bilirdilər ki, onlar bu qəza enişindən sağ çıxa bilməyəcəklər. Ancaq sərnişinləri xilas etmək üçün onlar maksimum böyük qəhrəmanlıq göstərmişlər və məhz bunun nəticəsində təyyarə qəzasında sağ qalanlar var. Məhz bunun nəticəsində füzelyajın bir hissəsi yanmayıb və məhz bunun nəticəsində bu gün biz tam açıq-aydın deyə bilərik ki, təyyarə Rusiya tərəfindən vuruldu. Bax bu faktdır və bu faktı heç kim dana bilməz. Yenə də biz demirik ki, bu, qəsdən edildi, amma bu edildi”.

Prezident İlham Əliyev ona zəng edən rusiyalı həmkarı Vladimir Putinə sərnişin təyyarəsinin Rusiyasının hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qaldığını və idarəetməsini tam itirdiyini, Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirildiyini və yalnız pilotların şücaəti və peşəkarlığı sayəsində qəza enişi edə bildiyini deyib. Kremlin saytında məsələ ilə bağlı cinayət işinin başlanıldığı, Rusiya və Azərbaycanın baş prokurorluq əməkdaşlarının Qroznıda birgə işlədikləri qeyd olunub.



*XQ*

# Çal-çağırla yola salındılar...

## *Rusiya sülhməramlıları Qarabağdan iki ölkə rəhbərliyinin siyasi qərarı ilə vaxtından əvvəl çıxarıldı*

**Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan ərazisində Rusiya ordusunun 2 minə yaxın sülhməramlı hərbi kontingenti müvəqqəti yerləşdirilmişdi və onun funksiyasına münaqişə tərəfləri arasında atəşkəs rejiminə nəzarət etmək daxil idi. 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatına əsasən, sülhməramlı kontingentin Azərbaycanda qalma müddəti 2025-ci ilin noyabrında başa çatmalı idi. Fəqət, Ermənistanın və ona dəstək verən xarici güclərin anti-sülh, anti-Azərbaycan davranışları Xankəndidəki separatçı-revanşist rejimi “ürəkləndirir”, onu “dqr”ın müstəqil qurum kimi “ömrünü davam etdirməyə” həvəsləndirirdi.**

Azərbaycanla münasibətləri beynəlxalq hüquq müstəvisində, sivil qaydada nizama salmağı bacarmayan Ermənistandakı mövcud hakimiyyət Xankəndidəki qeyri-qanuni rejimə dəstəyini kəsməmişdi. Azərbaycanın 2020-ci il 10 noyabr Bəyanatında göstərilən öhdəliklərə tam şəkildə əməl etməsinə baxmayaraq, İrəvan müxtəlif bəhanələrlə silahlı qüvvələrinin tör-töküntüsünü Azərbaycanın Qarabağ iqtisadi rayonundan çıxarılması ilə bağlı şərti yerinə yetirməyə tələsmirdi. Bu azmış kimi, torpaqlarımızın Ermənistandan daşınan minalarla “zibillənməsi” davam edirdi. Sülhməramlı hərbi kontingentin erməni vandalların bu təxribatına “göz yumması” rəsmi Bakıda təbii qıcıq yaradırdı. Vəziyyət bu cür davam edə bilməzdi. Nəticədə, 2023-cü ilin sentyabrında Qarabağda açıq hərbi-siyasi təxribatla məşğul olan separatçı-xunta rejiminə qarşı antiterror tədbiri zərirətə çevrildi. Azərbaycan Ordusunun uğurla həyata keçirdiyi 23 saatlıq lokal antiterror əməliyyatından sonra ərazilərimiz qanunsuz hay silahlılarından təmizləndi, suverenliyimiz tam bərpa edildi və “münaqişə tərəfləri” deyilən anlayış avtomatik olaraq aradan qaldırılmış oldu. Bu o demək idi ki, Rusiya sülhməramlı hərbi kontingentinin Azərbaycan ərazisində yerinə yetirəcəyi funksiyaya ehtiyac qalmadı. Rəsmi Bakı bununla da münaqişəni bitmiş saydığını bəyan etdi.




* * *

Rusiya sülhməramlı hərbi kontingentin ərazimizi vaxtından əvvəl tərk etməsini şərtləndirən digər vacib amil Rusiyanın Ukraynada “xüsusi hərbi əməliyyatları” davam etdirməsi idi. Belə olan halda bu kontingentin Azərbaycanda funksiyasız, vəzifəsiz bir şəkildə qalması, təbii ki, Rusiyanın özünün maraqlarına uyğun deyildi. Beləliklə, Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən vaxtından əvvəl çıxarılmasını tərəflər reallıq kimi qəbul etdi. 2024-cü ilin aprel ayında Azərbaycan və Rusiya liderləri sülhməramlıların Qarabağdan çıxarılması məsələsini razılaşdırdılar. İki ölkənin ali rəhbərliyinin verdiyi qərarı həm də siyasi qərar kimi dəyərləndirmək olar. Bunun ardınca Azərbaycan və Rusiya Müdafiə nazirlikləri qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirməyə başladılar. Sülhməramlıların ərazidə nəzarət etdiyi 30 buraxılış məntəqəsinin hamısı ləğv edildi.

Sülhməramlıların yola salınması ilə bağlı tədbir Xocalıda təşkil olunmuşdu. 2024-cü il mayın 15-də Xocalı Hava Limanında Rusiya Federasiyası sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, eləcə də Rusiya Federasiyasının Müdafiə Nazirliyinin, sülhməramlı kontingentinin, Azərbaycan Respublikasındakı səfirliyinin rəsmi nümayəndələri, hərbi qulluqçular və media nümayəndələri iştirak edirdilər. Qarşılıqlı hörmətə söykənən, səmimi münasibətin hökm sürdüyü mərasimin iştirakçıları əvvəlcə Rusiya Federasiyasının sülhməramlı kontingentinin Qarabağ iqtisadi rayonu ərazisində fəaliyyətini əks etdirən fotosərgi ilə tanış oldular. Sonra xidməti vəzifəsini yerinə yetirərkən həlak olan hərbi qulluqçuların xatirəsi birdəqiqəlik sükutla yad edildi, Azərbaycanın və Rusiyanın Dövlət himnləri ifa olundu.

Təntənəli mərasimdə Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Quru Qoşunlarının Baş Qərargah rəisi Yevgeni Nikiforov çıxış etdilər. Onlar Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin fəaliyyətindən danışdılar. Y.Nikiforov Rusiya Federasiyasının Müdafiə naziri, Baş Qərargah rəisi və öz adından sülhməramlı kontingentin hərbi qulluqçularına xidməti vəzifələrini layiqincə yerinə yetirdiklərinə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi rəhbərliyinə isə səmərəli birgə əməkdaşlığa və əldə edilmiş anlayışa görə dərin minnətdarlığını bildirdi. Daha sonra Azərbaycan və Rusiya müdafiə nazirlərinin əmrləri ilə təltif olunan hərbi qulluqçulara medallar təqdim olundu və rəsmi qonaqlar arasında hədiyyə mübadiləsi edildi. Tədbirin sonunda isə Azərbaycan və Rusiya müdafiə nazirliklərinin yaradıcı kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olundu.

Beləliklə, Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizin ərazisindən çıxarılması prosesi cari il iyunun 12-də başa çatdı. Sülhməramlı kontingentin şəxsi heyəti, silah və texnikası ərazimizi tam tərk etdi. Yüksək əhval-ruhiyyədə, qarşılıqlı ehtiram və anlaşma şəraitində keçən yolasalma mərasimi həm beynəlxalq hüquqa, həm də iki dövlət arasındakı strateji əməkdaşlıq münasibətlərinə tam uyğun şəkildə icra olundu.

* * *

Yeri gəlmişkən, Rusiya sülhməramlılarının yola salınmasından xeyli əvvəl qonşu ölkənin hərbçilərinin Qəbələ RLS-dən çıxarılması həyata keçirilmişdi.

Azərbaycan və Rusiya hökumətləri arasında “Qəbələ RLS-in statusu, istifadə prinsipləri və şərtləri haqqında Saziş” 2002-ci ildə imzalanıb. 1984-cü ildə SSRİ-nin raket əleyhinə müdafiə sistemi kimi inşa edilmiş Qəbələ RLS Hind okeanı regionunda – 6 min kilometr radiusda ballistik raketlərin buraxılışını izləməyə imkan verirdi. 2002-ci ildə imzalanmış sazişə müvafiq olaraq, Rusiya RLS-in icarəsinə görə Azərbaycana ildə 7 milyon dollar ödəyirdi.

Yada salaq ki, Azərbaycan tərəfinin icarə haqqını artırması ilə əlaqədar Rusiya 2012-ci ilin dekabr ayından Qəbələ RLS-də fəaliyyətini dayandırmışdı. Bakı bu stansiyanın icarəyə verilməsi üçün Rusiyadan 300 milyon dollar tələb edirdi. İki ölkənin müdafiə nazirlikləri arasında Qəbələ RLS-lə bağlı müzakirələr tam hüquqi müstəvidə aparıb və məsələ məhz beynəlxalq hüquq çərçivəsində həll olundu. Qəbələ RLS ilə bağlı Rusiya ilə imzalanmış icarə müqaviləsinin müddəti başa çatdı və yeni sazişin bağlanması üçün şərtlər üzrə razılıq əldə olunmadı. Buna görə Qəbələdəki stansiyanın bağlanması qərarına gəlindi. Bundan sonra müvafiq komissiyalar Rusiyanın mülkiyyətində olan avadanlıqların oradan çıxarılması məsələləri kimi texniki məsələlərin həllinə başladılar. Rus hərbçiləri və yüklər Qəbələdən Azərbaycan Daxili Qoşunlarının mühafizəsi altında Rusiyaya ötürüldü. Bütün işlər 2013-cü ilin avqust ayında başa çatdırıldı.

* * *

Sonda bir məsələyə də toxunmağı vacib sayırıq. Bəzi bədxahlarımızın media resursları şübhəli mənbələrə istinadən Azərbaycan barədə həqiqəti əks etdirməyən, beynəlxalq ictimai rəyini çaşdırmağa yönəlmiş dezinformasiyalar yaymaqdadırlar. Guya, Azərbaycanda xarici dövlətin hərbi bazası yerləşir. Qərbin haypərəst düşərgəsinin yalan və məsuliyyətsiz açıqlama və bəyanatlarına baxmayaraq, bu gün Azərbaycan ərazisində heç bir xarici dövlətin hərbi bazası, yaxud hərbi kontingenti yoxdur. Bölgənin şəriksiz liderinə, söz sahibinə çevrilmiş, ən güclü ordusuna malik Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyin tam bərpa edib. Elə bu səbəbdən respublikamızın ərazisində hansısa xarici dövlətin hərbi kontingentinin yerləşməsi barədə deyilənlər və yazılanlar ağ yalandan başqa bir şey deyil.

***İ.HƏSƏNQALA***
***XQ***

# Həmrəyliyimizin möhtəşəm zirvələri

**Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



**(əvvəli 1-ci səhifədə)**

Yeni əsrin 24-cü ilində milli həmrəyliyin təkmilləşdirilməsi, Dünya Azərbaycanlılarının daha da təşkilatlanması istiqamətində əldə etdiyimiz nailiyyətlər, şahidi olduğumuz uğurlar barədə hazırladığımız qəzet materialını ötən ilin 30-da eşitdiyimiz fikirlərlə başlamaq istəyirdik. Ancaq həmin məqamı bir neçə abzas sonraya saxladıq.

Ondan başlayaq ki, tarixi Zəfərimiz – İkinci Qarabağ müharibəsindəki qələbəmiz, sonrakı antiterror əməliyyatı, torpaqlarımızın işğalçılardan tam azad olunması, separatçı rejimin çökməsi bütün azərbaycanlıların haqlı olaraq gənc müstəqil dövlətimizin və şəriksiz liderimizin ətrafında sıx birləşməsini təmin edir, dünyanın müxtəlif qütblərindəki soydaşlarımızı bir yumruq halına gətirir. Cənab Prezidentin dediyi kimi, "dəmir yumruq" bizim Zəfər salnaməmizin rəmzi idi.

Bundan başqa, bu ilin avqustunda Parisdə keçirilən Yay Olimpiya Oyunlarına göndərilmiş idmançılarımızın hamısı yarışa Avropada yaşayan soydaşlarımızın dəstəkli alqışları altında qatılırdılar. Sonradan idmançılarımızdan biri demişdi ki, zaldan eşitdiyim alqışlar məni çaşdırdı. Bir an elə bildim ki, Bakıda yarışıram. Yəni Avropadakı soydaşlarımız bizim üçün elə mühit yaratdılar.

Eləvcə də, AZAL-ın Bakı – Qroznı marşrutu ilə uçan təyyarəsinin başına gətirilmiş müsibət zamanı da həm beynəlxalq aləmdəki soydaşlarımız, həm də bütün Türk dünyası Azərbaycanın haqlı iddialarına misli görünməmiş bir dəstək verdilər. Nəticədə bütün Avropa və Qərb dünyasına qarşı təkbaşına mübarizə aparan, hansısa insidentə görə heç kəsdən heç zaman üzr istəməyən Kreml rəsmiləri Azərbaycan dövlətindən və xalqımızdan üzr istədilər. Xalq-iqtidar birliyinin və milli həmrəyliyin nəticəsi belə olur.

... Bəs adı çəkilən istiqamətdə builki uğurlarımızı sadalamaq istəyərkən ötən il dekabrın 30-nu yada salmaq istəyimiz nə ilə bağlıdır? Cavab verim. 2024-cü ilin yazında xarici ölkələrin birində səfərdə olarkən qonağı olduğum şəhərdə dünyanın ən məşhur azərbaycanlılarından birinin yaşadığını eşitdim. Onu da eşitdim ki, o şəxs Bakıda keçirilən dünya azərbaycanlılarının qurultaylarının heç birinə getməyib. Səbəbini soruşanda isə öyrəndim ki, ortada ciddi bir səbəb yoxdur. Sadəcə, bu soydaşımız, Azərbaycan Xalq Cümhuriyyətinin, xüsusən, Məhəmməd Əmin Rəsulzadə yaradıcılığının vurğunudur. Yəni ancaq Rəsulzadə ilə bağlı olan tədbirlərə gedir.

Həmin adamla görüşə bilməsəm də, onu tanıyanlara xatırlatdım ki, biz 2024-cü ilin yanvarında Məhəmməd Əmin Rəsulzadənın 140 illiyini ölkəmizdə yüksək səviyyədə qeyd etmişik. Həm də Prezident sərəncamı ilə. Əlavə etdim ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən il dekabrın 30-da Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

Xatırladım ki, dünyanın müxtəlif ölkələrində bu qəbildən olan insanlar var və həmin soydaşlarımızın mövcudluğu Azərbaycan dövlətinə də yaxşı məlumdur. Azərbaycan Prezidenti də məhz bu məqsədlə – bütün soydaşlarımızı Bakı ətrafında birləşdirmək məramı ilə lazım olan addımların hamısını atır.

Cənab Prezident adı çəkilən sərəncamda xatırladır ki, Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir: "Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır".

Xatırladaq ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası adı çəkilən sərəncamın icrası məqsədilə çoxsaylı tədbirlər reallaşdırmışlar. Yəni 2024-cü il bu əlamətdar fakt ilə başlanmışdır.

... 2024-cü il dünyanın müxtəlif ölkələrində yaşayan bütün soydaşlarımız üçün uğurlu oldu. Təbii ki, Aktau "səhifəsi" istisna olmaqla. Soydaşlarımızın hərəsi bu ildəki bir faktın önəmini daha çox qabartmağa çalır. Mən isə bu il sentyabrın 9-da Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Bakıda keçirilmiş "Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu"nu yada salmaq istəyirəm. Çünki evimizin ilki də Çin Universitetlərinin birində alimlik dərəcəsi almaq üzrədir.

Azərbaycan Prezidenti İlham Əliyev həmin forumun iştirakçılarına ünvanladığı məktubda deyirdi ki, xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır: "Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi istiqamətində ötən müddət ərzində təqdirəlayiq işlər görülmüşdür".

Dövlət başçımız əmin olduğunu bildirirdi ki, bu forum Azərbaycanda elmin dayanıqlı və innovativ inkişafı naminə ətraflı fikir mübadiləsi və dolğun müzakirələr şəraitində keçəcək, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə alimlərimizin öz bilik və təcrübələri ilə töhfə verə bilmələri üçün faydalı əməkdaşlıq yollarını müəyyən edəcəkdir.

... Diasporla İş üzrə Dövlət Komitəsinin 2024-cü ildəki fəaliyyəti barədə olan məlumatda oxuyuruq ki, diaspor təşkilatları və xaricdəki Azərbaycan icmalarının ayrı-ayrı üzvləri, eləcə də ölkə ictimaiyyəti ilə qurumun əlaqələrinin daha da genişləndiyini, intensivləşdiyini sübut edir. Komitə müasir forma və metodları tətbiq edərək Azərbaycan diasporu üçün məlumatların əlçatanlığının daha da artmasına nail olub. Belə ki, il ərzində diaspor təşkilatları və ayrı-ayrı icma üzvlərindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 500-dən çox təbrik, müraciət və təşəkkür məktubu ünvanlanıb. Eləcə də, xaricdəki Azərbaycan icmalarının üzvlərinin və diaspor təşkilatlarının müxtəlif mövzularla bağlı beynəlxalq təşkilatlara 150-yə qədər müraciət və bəyanatlar ünvanlayıblar. Bu tendensiya xüsusən, Qərbi Azərbaycan İcmasının fəaliyyətinə start veriləndən sonra – Böyük Qayıdış tezisinin dəstəklənməsi məqsədilə daha geniş vüsət almışdır. Əlavə edilir ki, bu il İTV ilə komitənin "YouTube" kanalı şəklində fəaliyyət göstərən "Diaspor TV"-nin ortaq layihəsi olan "Vətən uzaqda deyil" verilişinin ayda 2 buraxılışı hazırlanaraq İctimai TV-nin efirindən yayımlanıb. Verilişlərin çəkilişi ABŞ, Qazaxıstan, İtaliya, Türkiyə və Almaniyada, eləcə də diaspor nümayəndələrinin səfərləri zamanı Azərbaycanda aparılıb. Komitənin və xaricdə yaşayan azərbaycanlıların fəaliyyəti mütəmadi olaraq Diaspor FM-də səsləndirilib, radionun xaricdən və Azərbaycandan onlarca qonağı olub.

Təbii ki, qeyd edilməli məqamlar çoxdur. Hamısını yada salmaq mümkün deyil. Ancaq Diaspor Gənclərinin Yay Düşərgələri, Diaspor Gənclərinin Qış Düşərgələri, Qardaşlaşmış Qarabağ Məktəbləri, Liderliyin İnkişafı, Diaspor Gəncləri Şəbəkəsi, 1+1 Gənclər Proqramı, E-akademiya, Beyinqazanma, Diaspor Könüllüləri, Türkdilli Dövlətlərin Gənclərinin Forumları, Xaricdəki Azərbaycanlı Alimlərin Forumları, Xaricdəki Azərbaycanlı Həkimlərin Forumları, Xaricdəki Azərbaycanlı Mühəndislərin Forumları, Xaricdəki Azərbaycanlı Tələbələrin Forumları, Diasporun Qarabağ səfərləri və digər irihəcmli layihələri qeyd etməmək olmaz. Bu zaman daha aktual olan bir faktı da yada salaq. Azərbaycan Prezidenti İlham Əliyevin 6 iyul 2018-ci il tarixli fərmanına əsasən yaradılmış "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu" beynəlxalq aləmdəki soydaşlarımızla əməkdaşlığn stimullaşdırılmasında xüsusi rol oynayır. Bu fond artıq iki ildir ki, "Diaspor Akademiyası" adlı yeni layihənii icra edir. "Diaspor Akademiyası" diaspor fəaliyyətinin nəzəri və praktiki aspektlərini diaspor nümayəndələrinə aşılamağı nəzərdə tutan, bu məqsədlə müxtəlif təlim, seminar və konfranslar təşkil edəcək bir platformadır.

Sonda məmnuniyyətlə xatırladırıq ki, qüdrətli Azərbaycan dövlətinin beynəlxalq aləmdə güclü diasporu formalaşıb.

Dünya Azərbaycanlılarınımn Həmrəylik Günü bayramınız və Yeni iliniz mübarək!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Milli Məclisin son iclası

**Dekabrın 29-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2024-cü ilin payız sessiyasında sonuncu iclası keçirilib.**




Milli Məclisin sədri iclası açaraq Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edildiyini xatırladıb. O bildirib ki, Prezidentin bu qərarı xalqımızın və dövlətimizin konstitusiya dəyərlərinə və suverenlik prinsiplərinə sadiqliyini bir daha təsdiqləyir.

Sonra gündəmdə olan məsələlər ətrafında müzakirələr aparılıb.

Parlamentin sədri gündəliyə 10 məsələnin daxil edildiyini və ilk məsələnin Milli Məclis yanında Toponimiya komissiyasının tərkibi haqqında qərar layihəsi olduğunu deyib. O qeyd edib ki, komissiyanın üzvlüyünə Milli Məclisin deputatları, habelə Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Toponimika şöbəsinin müdiri Elçin İsmayılov, Xalq şairi Sabir Rüstəmxanlı və Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati ərazi və bələdiyyə məsələləri üzrə qanunvericilik sektorunun müdiri Cavid İskəndərov namizəd göstərilib. Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov məsələ barədə məlumat verib. Qərar layihəsi səsə qoyularaq qəbul edilib. Yenidən formalaşmış komissiyanın üzvü Sabir Rüstəmxanlı çıxış edərək, toponimiya sahəsində tarixilik, milli mənafelərin qorunması kimi amillərin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib. O, bu məsələlərin – birinci oxunuşda təqdim edilən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanununun layihəsi, habelə uyğunlaşdırma xarakteri daşıyan və müvafiq qanunvericiliyin tələbinə uyğun olaraq bir oxunuşda baxılaraq qəbul ediləcək Cəzaların İcrası Məcəlləsində, Miqrasiya Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu diqqətə çatdırıb. İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu məsələlər barədə məlumatı təqdim edib. İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim edilən məsələlər barədə bu komitənin rəyini bildirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin növbəti 3 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Xidməti və mülki silah haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Lotereyalar haqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Daha sonra komitə sədri Azər Əmiraslanov "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qanun layihələri səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Parlamentin sədri növbəti iki məsələnin uyğunlaşdırma xarakteri daşıdığını və bu qanun layihələrinin "Normativ hüquqi aktlar haqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda baxılıb, qəbul ediləcəyini bildirib. Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Mülki Məcəllədə və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Məktəbəqədər təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyətindən bəhs edib. Qanun layihələri səsə qoyularaq qəbul edilib.

Daha sonra Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi diqqətə çatdırıb. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonuncu məsələ isə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin Müraciətinin təsdiq edilməsi haqqında olub.

Deputat Samir Vəliyev müraciəti oxuduqdan sonra sənəd səsə qoyularaq qəbul edilib.

Bununla da VII çağırış Milli Məclisin ilk sessiyası olan 2024-cü ilin payız sessiyasının başa çatıb.

Sonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

**XQ**

# Mixeil Kavelaşvili Prezident səlahiyyətlərinin icrasına başlayıb

## *Salome Zurabişvili isə prezident iqamətgahını tərk edib*

**"Fikirlərindən və siyasi mənsubiyyətindən asılı olmayaraq Gürcüstanın hər bir vətəndaşı mənim üçün əzizdir. Kiminsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, mən hamının prezidenti olmağı planlaşdırıram".**



Bunu Gürcüstan Prezidenti Mixeil Kavelaşvili parlamentin binasında keçirilən andiçmə mərasimində çıxış edərkən deyib. Onun sözlərinə görə, keçmişdə buraxılmış səhvlərin təhlili gələcək qərarların hər biri üçün başlanğıc nöqtəsi olmalıdır. "Biz yalnız milli maraqlarımızı rəhbər tutmalıyıq. Gürcü xalqı yaxşı bilir ki, sülh, yaşamaq və inkişafın əsas təminatıdır! Rifaha, davamlı inkişafa, təhlükəsiz və işıqlı gələcəyin təmin olunmasına nail olmaq, xoşbəxtliyə can atmaq o zaman mümkündür ki, mövcud çağırışlara diqqətlə yanaşaq, qarşımızda duran təhlükələri təhlil edib, emosiyalara deyil, dərk etməyə əsaslanan qərarlar qəbul edək".

O vurğulayıb ki, gürcü cəmiyyəti "qarşılıqlı hörmətə əsaslanan vətən, dəyərlər və qaydalar ətrafında" birləşməlidir: "İnanıram ki, biz öz tarixi təcrübəmizlə, dəyərlərimizlə, gürcü xarakterimizlə güc tapıb Vətənimizin ətrafında birləşə biləcəyik. İnanıram ki, sevgi qalib gələcək! Yaşasın birləşmiş, güclü və sevgi dolu Gürcüstan!... Mən, Gürcüstan Prezidenti, Allah və xalq qarşısında Gürcüstanın Konstitusiyasını, ölkənin müstəqilliyini, bütövlüyünü və bölünməzliyini qoruyacağıma, prezidentin vəzifələrini vicdanla yerinə yetirəcəyimə, ölkəmin vətəndaşlarının təhlükəsizliyi və rifahının, xalqımın və Vətənimin dirçəlişi və qüdrətinin qayğısına qalacağıma and içirəm".

Beləliklə, Kavelaşvili Gürcüstanın altıncı prezidenti olub. O, ölkə tarixində ilk qadın prezidenti – Salome Zurabişvilini əvəz edib. Andiçmə mərasimində parlament deputatları, yerli özünüidarəetmə orqanlarının, həmçinin Acarıstan və Abxaziya Ali şuralarının, Gürcüstan hökumətinin, konstitusiya orqanlarının nümayəndələrinin daxil olduğu Seçkilər Kollegiyasının üzvləri iştirak ediblər.

Qeyd edək ki, Kavelaşvili xüsusi olaraq çap edilmiş və parlamentin muzeyində saxlanılacaq konstitusiya nüsxəsinə and içib. Bu nüsxə sonradan parlament muzeyinə veriləcək və növbəti inaqurasiyalar üçün istifadə edilməsi planlaşdırılır. İnaqurasiyadan sonra Mixeil Kavelaşvili Orbeliani sarayında çalışacaq. Artıq o, ilk kadr təyinatına prezident kimi imza atıb. Kavelaşvili Ketevan Kvinikadzeni prezident administrasiyasının rəhbəri təyin edib. Kvinikadze bu təyinatadək Gürcüstan parlamentinin aparat rəhbəri vəzifəsini tuturdu. Həm qeyri-hökumət, həm də dövlət sektorunda iş təcrübəsi var.

Bu arada Orbeliani sarayı ilə bağlı da açıqlama gəlib. Parlamentin sədri Şalva Papuaşvili jurnalistlərə müsahibəsində deyib: " Bu bina Salome Zurabişviliyə miras qalmayıb, o, gürcü xalqına və onun prezidentinə məxsusdur. Andiçmə mərasimindən sonra xanım Salome Zurabişvili artıq Gürcüstanın prezidenti deyil. Mixeil Kavelaşvili isə Gürcüstanın yeni prezidentidir. Bu gündən etibarən xanım Zurabişvili gürcü xalqına məxsus olan və şəxsi dəbdəbəsinin obyekti olmayan bu iqamətgahı tərk etməlidir. Əminəm ki, edəcək. Baxmayaraq ki, bu və ya digər binada möhkəmlənmək üçün müxtəlif siyasi aktorlardan açıq məsləhətlər, arzular görürük. Bu barədə danışmaq qeyri-ciddidir".

Bu barədə Salome Zurabişvilidən də açıqlama gəlib. "Mən sarayda olsam da, sarayın xaricində olsam da. Mən buradan sizin yanınıza çıxacağam və sizinlə bir yerdə olacağam".

Onun sözlərinə görə, qanunilik xalqdan gəlir və buna görə o, məhz xalqla birlikdə olacaq: "Mən istəyirəm ki, sizinlə birlikdə qanuniliyin nə demək olduğunu düşünək – qanunilik yalnız bir mənbədən gəlir və bu mənbə sizsiniz. Xalqın etimadı olmayan yerdə qanunilik də ola bilməz. Buna görə mən buradan çıxacağam və sizinlə birlikdə olacağam".

Gürcüstanın 5-ci Prezidenti Salome Zurabişvili çıxışı zamanı gələcək planları barədə danışıb: "Çoxşaxəli görüşlərə başlayacağam – cəmiyyətin müxtəlif təbəqələri ilə əlaqə qurmalıyam".

Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə Mixael Kavelaşvilini təbrik edib və ölkə üçün uğurlu fəaliyyət göstərəcəyini bildirib. Müxalifətlə bağlı jurnalistlərin suallarını da cavablandırıb: "Yeganə özünü məhv etmə rejimində olanlar müxalifətdir, çünki onlar Gürcüstan xalqının iradəsini, o cümlədən, öz seçicilərinin iradəsini qəbul etmirlər". O, bir daha xatırladıb ki, 1 milyon 120 mindən çox seçici radikal müxalifəti yox, "Gürcü Arzusu" partiyasını dəstəkləyib.

**P.ƏFƏNDİYEV**
**XQ**

Xarici media səhifələrində

# “Qoy ədalət zəfər çalsın!”

## Bu müsahibə 43 il əvvəl keçmiş ittifaqda böyük əks-səda doğurmuşdu



**Postsovet məkanında oxucular arasında populyar olan “Literaturnaya qazeta”ya (“LQ”) 1981-ci ilin 8 noyabr tarixli nömrəsində Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyevin verdiyi geniş müsahibə belə adlanırdı. Dahi Nizami Gəncəviyə məxsus olan bu şah misranın Ulu öndər tərəfindən həmin müsahibəyə başlıq seçilməsi də təsadüfi ola bilməzdi. Həmin yazıda o dövrdə cəmiyyəti narahat edən bir çox neqativ hallara qarşı mübarizədən bəhs edilirdi.**

**Redaksiyadan:** Qeyd etmək lazımdır ki, həmin illərdə yüksək vəzifəli partiya funksionerləri, xüsusilə də müttəfiq respublikaların rəhbərləri mövcud problemləri belə açıq və kəskin şəkildə dilə gətirmirdilər. Bu müsahibədə isə ilk dəfə olaraq məhz bir çox tabu və qadağalar pozulmuşdu. Heydər Əliyev açıq mətnlə bəyan etmişdi ki, qohumbazlıq, harınlıq və məmur özbaşınalığı və sair bu kimi mənfi halları ört-basdır etmək əvəzinə bunlarla qəti surətdə mübarizə aparmaq lazımdır və vacibdir.

Müsahibə Kremldə açıq-aşkar çaşqınlıq yaratmışdı. Deyilənlərə görə, Baş katib Leonid Brejnev Bakıya telefon açaraq Heydər Əliyevdən təəccüblə soruşmuşdu:

– Əziz Heydər Əlirza oğlu, siz qəzetə müsahibənizdə nə demisiniz ki, indi bütün ölkə bu barədə danışır?

Heydər Əliyevin cavabı qəti və prinsipial idi:

– Leonid İliç, o hədəfləri ki, siz nöqsanlara qarşı mübarizədə müəyyən edibsiniz, məhz bu barədə Azərbaycanda görülən işlərdən bəhs etmişəm.

Baş katibin respublika rəhbərinin daşdan keçən arqumetli cavabı ilə razılaşmamaqdan başqa çarəsi qalmamışdı.

Brejnevi, eləcə də o dövrün yüksək partiya elitasını narahat edən nə olmuşdur? Ümumiyyətlə, müsahibə necə araya-ərsəyə gəlmişdi? Bu yazı niyə bu qədər oxucu rəğbəti qazanmışdı?

“LQ”-nin həmin dönəmdə Azərbaycan üzrə xüsusi müxbiri olmuş Emil Ağayev müsahibənin araya-ərsəyə gəlməsi ilə bağlı incə məqamlara xatirələrində aydınlıq gətirir.

2024-ci il noyabrın 7-də Rusiyada nəşr olunan “Literaturnıye qazeta” az qala 43 il sonra yenidən həmin tarixi müsahibəyə öz səhifələrində yer vermişdir. Sadəcə, müəllifdən icazəsiz oxucuların diqqətini cəlb etmək üçün müsahibənin başlığına əl gəzdirmişdir. Biz isə həmin müsahibəni ilkin variantda olduğu kimi “Xalq qəzeti”nin oxucularına təqdim edirik.

Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, Heydər Əliyevin jurnalistlərə münasibəti digər yaradıcı zümrələr – yazıçı, rəssam və musiqiçilərə olan münasibətindən fərqlənirdi. Belə ki, jurnalistlər ideoloji cəbhəyə aid edilirdi və partiyanın yaxın köməkçiləri hesab edilirdilər. Siyasi Büro üzvləri arasında siyasətçinin karyerasında piarın xüsusi əhəmiyyət daşıdığını Heydər Əliyev qədər bəlkə də heç kəs bilmirdi. Bu dahi siyasətçi mətbuatla işləməyi yaxşı bacarırdı. Qəzet və jurnalları izləyir, bir çox hallarda oxunaqlı yazılar barədə rəyini bildirirdi. Eyni zamanda, jurnalistlərin əmək və məişət şəraitinin yaxşılaşdırılmasına qayğı ilə yanaşırdı.

...Moskvada “LQ”nin redaksiyasında Heydər Əliyevdən respublikada neqativ hallara qarşı geniş vüsət almış mübarizə haqqında müsahibə hazırlamaq ideyası meydana çıxanda, bu təklifə vaxt yubatmadan müsbət cavab verilmişdi.

Müsahibə almaq üçün Bakıya ezam olunan müxbir xanıma da hamı kimi yaxşı bəlli idi ki, bir çox respublikalardan fərqli olaraq Azərbaycanda rüşvətxorluq və korrpupsiyaya qarşı ciddi mübarizə aparılır. Belə ki, xidməti vəzifələrindən sui-istifadə edənlərin, var-dövlət, sərvət toplamaq niyyətinə düşənlərin başlarını sığallamırlar. Cəmiyyətdə tutduqları vəzifəlrdən asılı olmayaraq övladlarına nümayişkaranə təmtəraqlı toy edənlər, dəbdəbəli ad günləri keçirənlər, bir sözlə harın, həddini aşan şəxslər layiqli cəzadan kənarda qala bilməzlər.

Bundan başqa respublikada rəhbər işçilərin, eləcədə hüquq-mühahfizə orqanlarında yüksək vəzifədə çalışan şəxslərin uşaqlarının universitetlərin hüquq fakültələrinə daxil olmalarına, onların qanunsuz yollarla bahalı avtomobillər əldə etmələrinə qadağa və məhdudiyyətlər tətbiq edilir.

Təəssüf ki, əhalinin böyük əksəriyyətinin dəstəklədiyi bu prinsipial siyasəti nədənsə Moskvada başa düşməyənlər də vardı.

Bakıya təşrif buyuran müxbir, görünür, həm respublika rəhbərinin nöqsanlara qarşı sərt davrandığına işarə edərək, həm də original görünmək üçün görüşün əvvəlində belə bir replika atmışdı:

– Heydər Əliyeviç, axı, biz hüquqi dövlətdən bəhs edirik...

Azərbaycanın rəhbərinin cavabı belə olmuşdu:

– Adamları işə götürəndə, onlara bu barədə açıq və birmənalı şəkildə xəbərdarlıq edirik.

Yəni, söhbət məsuliyyətdən gedir. Heç kim cəmiyyətin mənəvi-etik dəyərlərini gözardı edə bilməz və etməməlidir. Əxlaq və mənəviyyat hər şeyin fövqündə durmalıdır.

Müsahibənin necə hazırlanmasına gəlincə…

…Heydər Əliyevin kabinetində iri qlobus vardı. Gözlərimiz qarşısında sanki bütün planet əks olunmuşdu. Görünür, bu, kabinetə daxil olanları burada baş verənlərin miqyası və əhəmiyyəti barədə düşüncələrə kökləyirdi.

Beləliklə, biz kabinetdə uzun masanın axasında əyləşmişik. Kabinetin sahibi mehribancasına gülümsəyərək soruşur:

– Yaxşı, necə yerləşibsiniz?

Antonina Borisovna (qonağı belə çağırırdılar-E.A) kiçik bir pauzadan sonra qaldığı mehmanxana otağı barədə yersiz olaraq söylədi ki, sanuzeldə tualet kağızı qoymağı unudublar.

Şübhəsiz jurnalist həddini aşmışdı. Variantlar az idi. Sadəcə olaraq qovmaq, sonra hökumət telefonu ilə baş redaktora zəng edib “gör kimi göndərmisən” demək...

Eyni zamanda hər şeyi bir zarafata salmaq olardı.

– Problem deyil, əgər etiraz etmirsinizsə, sizi bizim MK ilə yanaşı olan mehmanxanaya dəyişdirərik. Sizə hansı nömrə əl verir? Birotaqlı, ikiotaqlı, yoxsa üçotaqlı?

– Heydər Əliyeviç, nədən otaqların sayı bu qədər çox olsun ki?!. Yoxsa, qonaq gəlmək istəyirsiniz?

Otaqda gərginlik yenidən artdı..

Heydər Əliyevin cavabı bir qədər sərt oldu...

– Siz elə güman edirsiniz ki, biz burda ancaq iclas keçirməklə məşğuluq... Bəzən bizdə istirahət edirik, hərdən bir qədəh içkidən də vaz keçmirik..

Daha sonra Heydər Əliyev üzünü mənə tərəf tutdu.

– Ağayev, xanımı “Gülüstan”a dəvət etmisənmi?

– Hələlik, macal tapmamışam...

...Həmin axşam biz “Gülüstan”da ən yaxşı masada əyləşmişdik. Müxbir xanım iştahla yeyib-içirdi və bəlkə də özünü buludların üzərində hiss edirdi.

Bundan sonra...isə o, bütün həftəni Birinci katibin qəbulunu gözləməklə keçirdi və qəbul baş tutmadı. Ona dedilər ki, Heydər Əliyeviç çox məşğuldur.

Moskvalı jurnalist daha beş dəfə Bakıya uçub gəlməli oldu. Müsahibənin 1-ci variantını Heydər Əliyev büsbütün kəsib doğramışdı.

İkinci variantını da başdan ayağa qaralamışdı. Redaktə edilmiş mətnə nəzər salanda gördüm ki, o, redaktor kimi də qeyri-adidir. Hətta mətnin üslubunda olduqca dəqiq düzəlişlər edilmişdi. Bu, məni xüsusilə heyrətləndirdi, çünki onun Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra ictimaiyyət qarşısındakı çıxışlarını dinləmişdim. O, rus dilində, o dövrdə tələb olunduğu kimi, əla, tamamilə sərbəst danışırdı, amma ləhcə zəif də olsa, hiss olunurdu. “Sən bir işə bax! O, rus dilini necə də təkmilləşdirib! Nəzərə alsaq ki, onun işi olduqca çoxdur, buna nail olmaq heç də asan deyil”, - deyə mən düşündüm.

Jurnalist xanım Moskvadan Bakıya altıncı dəfə uçub gəlməli oldu, yenidən qəbul üçün bir xeyli gözləyəndən sonra həmin böyük qlobus olan tanış kabinetə daxil olduq. Bu dəfə jurnalist xanım az qala yalvarmağa başladı:

– Heydər Əliyeviç, baxın, bu müsahibəyə görə barmağımda dəyənək əmələ gəlib… mənə yazığınız gəlsin...

Onda əvvəlki özünə məftunluqdan əsər-əlamət belə qalmamışdı. Heydər Əliyev ehmalca başını yelləyib mənə tərəf döndü və sakit tərzdə:

– Nə etməli?!. Yenidən işləmək lazım gələcək...

O, təkcə xanımı yerində oturtmamışdı, onun içindəki eqonu dartıb çıxarmışdı”.

Bu müsahibə jurnalistin əvvəlki müsahibələrindən əhəmiyyətli dərəcədə fərqlənirdi, redaksiya heyəti tərəfindən təriflənməklə yanaşı, necə deyərlər nümunə kimi qəzetin şərəf lövhəsindən asılmışdı.

***Akif ƏHMƏDGİL***
***“Literaturnıye znakomstva”nın xüsusi müxbiri***

**“Literaturnaya qazeta”, 6–12 noyabr 2024-cü il**

# “Böyük manipulyator”

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22, 24, 25, 26, 27 dekabr tarixli saylarında)***

Sözün əsl mənasında, çox müəmmalı bir adam olan Lüdovik Şaker prezidentin adından dövlətin bir neçə yüksək vəzifəli şəxslərinin yanına gedib onlardan “məxfi müqavilələr” imzalamağı tələb edir. Qəribə və sirli bir adamdır bu Şaker. Bəzilərinə o hətta özünü “xüsusi təyinatlı qrupun keçmiş üzvü” kimi təqdim edir. WikiLeaks tərəfindən aşkar edilən sənədlərdən bəlli olur ki, "Hərəkətdə!" hərəkatının daxilində Lüdovik Şaker özünü “44-cü piyada alayının keçmiş hərbçisi” kimi qələmə verir.

Kəşfiyyat agentləri yaxşı bilirlər ki, 44-cü alay DGSE (xarici kəşfiyyat) üçün kadrlar hazırlayır. Deməli, belə çıxır ki, keçmişdə Lüdovik Şaker casus olub. Bu informasiyanı sözügedən şəxs nə təkzib, nə də təsdiq etdi. Biz ancaq onu bilirik ki, Şaker Yelisey sarayına gələndən sonar onun DGSE (xarici kəşfiyyat) ilə əməkdaşlığı dayandırıldı. 2018-ci il sentyabrın 5-də xarici kəşfiyyatın rəhbər işçilərindən biri olan Jan-Dominik Merşe L’Opinion gündəlik qəzetinə verdiyi müsahibəsində qeyd edir ki, “Yelisey sarayının missiya icraçısı Lüdovik Şaker, artıq DGSEdə (xarici kəşfiyyat) işləmir”. Şaker də öz yerləşən fransızların Çindəki Mədəniyyət Mərkəzinin müşaviri Fransis Nizet ilə yaxından tanış olur. Sağçılar partiyası ilə Fransa Demokratik Partiyası arasında var-gəl edən Nizet, sağçılar partiyasından Makronu ilk dəstəkləyən Reno Dütrey ilə yaxın dostdur. Çində olanda, Şaker, həmçinin Jan-Pier Raff aran (keçmiş Baş nazir) və Tur şəhərinin ovaxtkı meri – öz şəhərini Çində tanıtmaq üçün tez-tez ora səfər edən Jan Jerman ilə də görüşür.

### Jue-le-Tur şəhərciyindəki turist

Jue-le-Tur Centre-Val de Luire bölgəsində, İndre-et-Luara departamentində, Tur şəhərinin cənub-qərbində yerləşən şəhərcikdir. Əhalisi, təxminən, 39 000 nəfərdir.

2009-cu ilin yayında Lüdovik Şaker Fransaya qayıdır və tezliklə Juele-Tur şəhərciyinin meriyasında kabinet müdiri təyin olunur. Nəyə görə? Lüdovik Şaker hara, meriyada kabinet müdiri olmaq hara? Bu təyinatdan təəccüblənən meriyadakı məmurlar heç nə başa düşə bilmirlər. Onların həm özlərinə, həm də bir-birlərinə verdikləri suallar cavabsız qalır. Əvvəla, Lüdovik Şakerin yerli hakimiyyət orqanlarında heç bir təcrübəsi




növbəsində bu uğursuzluğu daha yaxşı “həzm” etməkdən ötəri bəzi həmsöhbətlərinin qarşısında öyünməkdən çəkinmir və DGSE-də (xarici kəşfiyyat) olduğu vaxtlarda ona tapşırılan missiyalardan həvəslə danışır.

Kölgədə olan bu adamın tərcümeyi-halı xeyli sualla Kölgədə olan bu adamın tərcümeyi-halı xeyli suallar doğurur. Nim şəhərindən bir neçə kilometr aralıda, Aveyron departamentinin San-Jandü-Brüel adlanan kiçik bir kəndində doğulan bu adam 1990-cı illərin sonunda, 18 yaşında paytaxta gəlir. Elə həmin il Parisin 19-cu rayonunda kunq-fu ustası Lianq Çao ilə tanış olur. Parisin Villett məhəlləsinin yaxınlığındakı idman sarayında onunla məşq edir və tezliklə Lianq Çaonun sevimli şagirdinə çevrilir. Buna görə gələcək prezidentin seçki kampaniyasındakı yoldaşları ona “ninja” ləqəbi verəcəklər. Lianq Çao ilə tanışlıqdan sonra Şaker Asiya ilə çox maraqlanır və Çin Mandarin dilini öyrənməyə başlayır. Çox keçmir ki, o, Milli Beynəlxalq Əlaqələr və Dillər İnstitutunun, eləcə də Şərq sivilizasiyaları (INALCO) və CELSA ünsiyyət məktəbinin diplomlarını alır. Məhz elə o zaman bu adamda müdafi ə məsələlərinə qarşı maraq oyanır. Beləliklə, cəmisi 24 yaşında Şaker mütəmadi olaraq IHEDN-in (Milli Müdafiə Araşdırmaları İnstitutu) kurslarında iştirak etməyə başlayır və özünə yaxşı çevrə toplayır.

Müəllimlərinin dediyinə görə, o, çox parlaq və istedadlı bir tələbə olub. Çünki cəmisi bircə il sonra Şaker Parisdəki Siyasi Elmlər İnstitunun ictimaiəlaqələr üzrə magistr dərəcəsini alır.

Bütün bu diplomlarla silahlanan cavan oğlan 2007-ci ildə ilk dəfə olaraq Çinə yola düşür. Orada, daha doğrusu, Fransanın Şanxaydakı baş konsulluğunda müqavilə ilə universitetlərarası rəsmi əlaqələr üzrə baş icraçı kimi fəaliyyətə başlayır. Jurnalist Frank Renonun sözlərinə görə, “o, (Lüdovik Şaker) Çini yaxşı tanıyırdı və fəaliyyət göstərdiyi sahə, onun, əslində, kim olduğunu və nə mənsəbə qulluq elədiyini ört-basdır etmək üçün yaxşı bir pərdə idi...”. Konsulluğun əməkdaşlarından biri onu da qeyd edir ki, “o, (Lüdovik Şaker) xüsusi bir missiya üçün Şanxay şəhərindən çıxanda, biz onun hara getdiyini və getdiyi yerdə nə işlər gördüyünü bilmirdik...” Şaker tez-tez Konsulluğun təhlükəsizlik şöbəsinin rəisi ilə bir yerdə olur. Bundan başqa, o, konsulun əmri ilə “adanın başçısı” təyin olunur. Yəni ölkə (Çin) böhran vəziyyətinə düşərsə, fransız vətəndaşlarının qayğısına qalmaq, onlara ölkədən (Çin) çıxarıb vətənlərinə qayıtmağa kömək göstərən qrupun rəhbəri. Onda qəribə bir vərdiş də var: Şaker həmişə üstündə kunq-fu bıçağı gəzdirir.

Məhz o dövrdə gənc Lüdovik bir yerdə yaşadığı bolqar qızı ilə mülki nikah kəsdirməyə qərar verir. 2010-cü il Ümumdünya Sərgisindən bir neçə ay əvvəl, o, Şanxayda, Fransa–Çin şəbəkələri ilə də əlaqəyə girir, xüsusilə Pekində

yoxdur. Bundan başqa, onun heç Sosialist Partiyasına mənsub olduğunu sübut edən kartı da yoxdur. (Lüdovik Şaker sosialist də deyil). Məsələ burasındadır ki, bu təyinat Jue-le-Tur şəhərciyinin meri sosialist Filip Le Bretonun şəxsi qərarıdır. Turizm və aqlomerasiyanın iqtisadi inkişafı üzrə vitse-prezident olan Filip Le Breton bu cavan oğlanla harada və necə tanış olduğunu, onu bu vəzifəyə nə üçün təyin etdiyini heç kimə açıqlamır. Ancaq iclasların birində qısaca qeyd edir ki, onun (Lüdovik Şaker) daşdan keçən bir CV-si var. “Hobbisi də balıqçılıqdır”, – deyə heyrətə düşən müavinlərinin qarşısında hələ zarafat da edir.

Tezliklə hamı hiss edir ki, bu Lüdovik Şaker adi bir kabinet müdiri deyil. “Biz çox tez başa düşdük, o, klassik müdir deyil. Hamımızda belə bir təəssürat yarandı ki, o turistdir, bura gəzməyə gəlib. Öz işinə o qədər də can yandırmırdı. Hiss olunurdu ki, bu adam tamamilə başqa bir işlə məşğuldur...”, – deyə meriyanın keçmiş müavinlərindən biri etiraf edir. Bu hiss meriyanın bütün işçilərində var, çünki orada çalışdığı iki il ərzində Lüdovik Şaker ayda bir dəfə iki-üç gün harasa yoxa çıxırdı. Məsələn, bir dəfə heç kimə izahat vermədən on beş gün ərzində Pakistana, onun Əfqanıstanla sərhədlərinə yaxın bölgələrinə səfər edir. Bu səfərdən sonra Pakistanın milli geyimində meriyaya qayıdan kabinet müdiri onu təəccüblə süzən həmkarlarına elə də açıqlama vermir. “Bizədedi ki, baqajını itirib”, – deyə onun keçmiş həmkarlarından biri ironiya ilə gülümsəyir.

Çin dilində təmiz danışmaqla yanaşı, Lüdovik Şaker ərəb dilini də mükəmməl bilir. “Onun əsli Əlcəzairdəndir”, – deyə onunla meriyada işləyən əməkdaşlardan biri qətiyyətlə iddia edir. Şaker Yəmən mənşəli bir addır və Yaxın Şərqdə, eləcə də Məğribdə çox yayılıb. Bu cavan oğlan İslamın bütün ənənələrinə əlinin içi kimi bələddir. Bir vaxtlar o, DGSİnin (xarici kəşfi yyat) nəzdində Rabier rayonundakı böyük məscidin fəaliyyəti ilə məşğul olub.

Onun Jue-le-Tur şəhərciyindəki fəaliyyəti haqqında yuxarıda deyilənlərdən başqa məlumat əldə edə bilmədik. Meriyada onunla bir yerdə işləyən əməkdaşların dediyinə görə, Şaker, demək olar ki, heç vaxt öz işi haqqında heç kimə heç nə danışmırdı... şəxsi həyatı haqqında isə daha az danışırdı. Onun başqa bir hobbisi Wuxia assosiasiyasının nəzdində kunq-fu dərnəyi açıb, çin döyüş sənətini gənclərə öyrətmək idi. O, tez-tez gənc şagirdləri ilə böyük ustadı Lianq Çao arasında görüşlər təşkil edirdi. Onun Asiyaya olan sevgisi böyükdür. Meriyadakı kabinetinin divarından Çin qılıncı asılmışdı. O həm də mütəmadi olaraq Tur şəhərinin restoranlarında təşkil olunan “Şanxay axşamları” tədbirində iştirak edir və Çindəki təcrübəsini hamıyla bölüşürdü.

**(ardı var)**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 546** **Bakı şəhəri, 28 dekabr 2024-cü il**

**“Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 mart tarixli 45 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 234 (Cild I) ilə təsdiq edilmiş “Meşələrin iqtisadi qiymətləndirilməsinin Metodikası”nın 3.3-cü bəndinin ikinci abzasında “çoxillik əkmələr və dincə qoyulmuş torpaqların” sözləri “və çoxillik əkmələrin altında olan torpaqların” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 244 (Cild I) ilə təsdiq edilmiş “Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları”nın 15-ci hissəsinin cədvəlinin 1-ci sütunundan “(uqodiyaların)” sözü çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I); 2024, № 2, maddələr 208, 229) ilə təsdiq edilmiş “Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi Qaydaları”nın 1-ci hissəsinin birinci cümləsinə “ehtiyat torpaq fonduna” sözlərindən əvvəl “müvafiq” sözü əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 4 sentyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 684 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş “Şəhərsalma sənədlərinin tərkibi, tərtibatı, razılaşdırılması, dövlət ekspertizası aparılması və təsdiq olunması Qaydaları”na 11 nömrəli əlavə - “Rayon planlaşdırma sxemi və layihəsinin əsas texniki-iqtisadi göstəriciləri”n 1-ci cədvəlinin “Göstəricilər” bölməsinin beşinci sətrində “çoxillik əkmələr, dincə qoyulmuş” sözləri “çoxillik əkmələrin altında olan torpaqlar” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 oktyabr tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 904 (Cild I) ilə təsdiq edilmiş “Mərzçəkmə qaydaları və mərz nişanlarının formalarının nümunələri”nin 9.4.6-cı və 9.4.7-ci yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

“9.4.6. torpaq sahəsinin kateqoriyası;

9.4.7. torpaq sahəsinin məqsədli təyinatı;”.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 noyabr tarixli 512 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2459 (Cild I); 2024, № 3, maddə 299) ilə təsdiq edilmiş “Torpaq sahəsindən istifadənin iqtisadi əsaslandırılmasının (icarəyə götürülməsi nəzərdə tutulan dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahəsi barədə) Forması”nın 2.2-ci bəndindən “(uqodiya)” sözü çıxarılsın.

**7.** “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 124 (Cild I); 2024, № 4, maddə 440) ləğv edilsin.

**8.** Bu Qərar 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 549** **Bakı şəhəri, 28 dekabr 2024-cü il**

**Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin formasının təsdiq edilməsi və “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi blankının ciddi hesabat sənədi kimi uçotu Qaydaları”nın və Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 39 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 52-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 8 noyabr tarixli 230 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin forması” təsdiq edilsin (əlavə olunur).

**2.** “Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsi blankının ciddi hesabat sənədi kimi uçotu Qaydaları”nın və Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə verilən iş icazəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 194 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 547** **Bakı şəhəri, 28 dekabr 2024-cü il**

**“Dövlət ehtiyatları üçün malların tədarükü, saxlanılması, buraxılması, uçotu və bu sahədə nəzarətin həyata keçirilməsi, habelə dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu barədə hesabatın forması və təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət ehtiyatları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli 2463 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Dövlət ehtiyatları üçün malların tədarükü, saxlanılması, buraxılması, uçotu və bu sahədə nəzarətin həyata keçirilməsi, habelə dövlət ehtiyatlarına aid olan malların hərəkəti və mövcudluğu barədə hesabatın forması və təqdim edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 550** **Bakı şəhəri, 29 dekabr 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət investisiya proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 257 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391 (Cild I) ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə üzrə:

1.1. 2.5-ci və 2.6-cı bəndlərə “proqramının” sözündən sonra “istiqamətlər üzrə” sözləri əlavə edilsin;

1.2. 2.22-ci bənddə “investisiya proqramı dəqiqləşdirilərək” sözləri “büdcəsinə uyğunlaşdırmaq məqsədilə dövlət investisiya proqramının istiqamətlər üzrə dəqiqləşdirilmiş layihəsi” sözləri ilə əvəz edilsin.

**2.** 4.2-1-ci bənddə “sonunadək Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir” sözləri “10-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 553** **Bakı şəhəri, 29 dekabr 2024-cü il**

**“Viza blankının doldurulması Qaydası”nın, “Viza almaq üçün ərizə-anket”in nümunəsinin və “Azərbaycan Respublikasına əcnəbini və ya vətəndaşlığı olmayan şəxsi dəvət edən tərəfin vəsatəti”nin nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı ilə təsdiq edilmiş “ASAN Viza” sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 iyul tarixli 152 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 318 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – “Viza almaq üçün ərizə-anket”in nümunəsinin 28-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan elmi uğurlarını qoruyub zənginləşdirir

## *Lakin həllini gözləyən problemlər də var*

**Son illər Azərbaycan elminin dünya elminə inteqrasiyası, onun beynəlmilliləşməsi istiqamətində tədbirlər həyata keçirilir. Azərbaycan Milli Elmlər Akademiyasının tabeçiliyində olan təbiət və dəqiq elmlər üzrə ixtisaslaşmış 30-a yaxın elmi-tədqiqat institutu və digər təşkilatların Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi də bu məqsədə xidmət edir.**

**Bu və digər məsələlərlə bağlı Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru, dövlət mükafatı laureatı, professor Əfsun Sucayevin münasibətini öyrəndik.**

**– Azərbaycan elminin dünya elminə inteqrasiyası istiqamətində görülən işləri necə qiymətləndirmək olar?**

– Azərbaycan elminin beynəlmiləlləşməsinin ən vacib elementi fundamental elmi tədqiqatların aparılması, əldə edilən nəticələrin nüfuzlu jurnallarda dərc olunmasıdır. Hansı ki, həmin nəticələr dünyanın aparıcı elm mərkəzləri tərəfindən qəbul olunur və o işlərə istinadlar edilir. Amma bu sahədə vəziyyət o qədər ürəkaçan deyil. Bunun da obyektiv subyektiv səbəbləri var. Əsas məsələ ondadır ki, Azərbaycan elmi 70 il ərzində sovetlər birliyinin tərkibində dünya elmindən təcrid vəziyyətdə olub. Elmi tədqiqat institutlarımızın elmi əlaqələri, əsasən, ittifaq respublikaları ilə idi.

Alimlərimizin məqalələri ən yaxşı halda Rusiya jurnallarında dərc olunurdu, onlar da qlobal elmi bazalara daxil deyildi. İstər fundamental, istər tətbiqi işlərinin nəticələri ilə dünya alimlərinin tanış olması, onlara istinad edilməsi yox dərəcədə idi. Halbuki kimya, fizika, riyaziyyat, geologiya, tibb və sair elm sahələrində o dövrlərdə elə fundamental nəticələr əldə edilib ki, onlar əgər qlobal elmmetrik bazalarda arxivləşən jurnallarda çap olsaydı, həmin əsərlərə saysız-hesabsız istinadlar gələrdi. Bunun nəticəsidir ki, sovet dövründə yaranmış elmi-tədqiqat institutlarının yerli jurnallarda çap olunan əsərlərinin böyük əksəriyyətinə elmi bazalarda rast gəlinmir.

Hazırkı elmmetrik göstəricilər müstəqillik illərində “Web of Science” və “Scopus” bazalarına daxil olan jurnallarda yayımlanan məqalələrin və onlara olan istinadların sayı ilə formalaşır. Tutaq ki, kimya profilli 4 akademik institutun yarandığı vaxtdan indiyədək dərc olunan məqalələrinin sayı 100 mindən çoxdur. Ancaq onların “Web of Science” bazasında arxivləşən jurnallarda dərc olunanları çox azdır. Cəmi 2200 məqaləyə 9500 istinad edilib. Eyni mənzərəni riyaziyyat–texnika, yer elmləri. tibb-biologiya bölmələrinə daxil olan institutlarda da bir qədər yuxarı və aşağı göstəricilərlə müşahidə etmək mümkündür. Humanitar və ictimai elmlərdə isə vəziyyət daha acınacaqlıdır. Ona görə də, istər universitetlər, istərsə də akademik institutlarımızın




sırasında H-indeksi 100 olan demək olar ki, universitet və ya institut yoxdur. Ancaq bu o demək deyil ki, kimya institutlarında çap olunmuş 100 min məqalənin elmi bazaya düşməyən hissəsi aktual və maraqlı olmayıb. Böyük əksəriyyəti həm fundamental əhəmiyyət daşıyıb, həm də SSRİ və ya respublika iqtisadiyyatına milyonlar qazandıran tətbiqi işləmələr təşkil edib. Sadəcə o nəticələri dərc edən jurnalların qlobal bazalara çıxış imkanları olmayıb, nəticə etibarilə istinadlar da edilməyib. Yəni keyfiyyətli tədqiqat işlərinin az olması yalnız institutların və ya orada çalışan alimlərin günahı deyil.

Sovetlər birliyi dağıldıqdan sonra akademik elmi müəssisələr uzun tənəzzül dövrü yaşayıb, ancaq yaşamaq uğrunda mübarizə aparıb. Yalnız 2000-ci illərdən başlayaraq dövlət başçımız cənab İlham Əliyevin dəstəyi ilə akademik institutlar əsaslı şəkildə təmir olunub, müasir fiziki-kimyəvi cihaz və avadanlıqlarla təchiz edilib. Bundan sonra institutların və alimlərimizin elmi fəaliyyətində canlanma baş verib. Əgər elmmetrik göstəricilərə baxsaq görərik ki, nüfuzlu xarici jurnallarda daha çox məqalə çapına məhz son 15-20 ildə rast gəlmək olar.

Bu sahədə daha böyük uğurlar qazanılması üçün elmi infrastruktur modernləşdirilməli və optimallaşdırılmalıdır. Elmi-tədqiqat institutlarının texniki bazası möhkəmləndirilməlidir. Bu günlərdə Elm və Ali təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə “Elm və ali təhsilin beynəlmiləlləşməsi” mövzusunda keçirilən aktual və olduqca vacib bir tədbirdə qeyd etdiyiniz məsələ kifayət qədər müzakirə olundu.

**– Ölkəmizdə universitetlər və elmi-tədqiqat institutların sayı çoxdur, onlarda aparılan mühüm elmi tədqiqat işlərinin sayı isə azdır?**

– Bu günlərdə Elm və Təhsil naziri Emin Əmrullayev mətbuata açıqlamalarının birində Azərbaycanda mövcud ali və elmi-tədqiqat müəssisələrinin fəaliyyətinin kəmiyyət və keyfiyyət məsələsi ilə bağlı müzakirələrə səbəb olan bir fikir səsləndirib. Nazirin sözlərinə görə, ölkəmizdə həm ali, həm də elmi-tədqiqat müəssisələrinin sayı bizimlə eyni qədər əhalisi olan ölkələrlə müqayisədə çoxdur. Amma təəssüf ki, bu saya uyğun elmi-tədqiqat işləri yoxdur.

Əslində, bu bir həqiqətdir və bu günün problemi deyil. Eyni zamanda əldə olunan fundamental və tətbiqi xarakterli mühüm elmi nəticələr daha çox ayrı-ayrı alimlərin individual fəaliyyətinin nəticəsi kimi ortaya çıxır. Fərdlərlə müqayisədə kolektiv işin nəticələri az müşahidə olunur. Ancaq burada məsələyə kompleks yanaşmaq lazımdır. Hesab edirəm ki, problemi doğuran səbəb, ilk növbədə, mövcud institutlarda olan tədqiqat mühitinin dünyanın müasir çağırışlarına cavab verməməsidir.

Hazırda texnologiya əsrində yaşayırıq. Bu gün ABŞ və ya Avropanın inkişaf etmiş istənilən ölkəsində çalışan elm adamlarının yenilənən texnologiyalara çıxış imkanları, texnikanın son nailiyyətlərindən istifadə edib, öz tədqiqatlarını zənginləşdirməsi, dərinləşdirməsi iki vur iki qədər asandır. Ancaq Azərbaycanın dəqiq və təbiət elmləri üzrə fəaliyyət göstərən ən aparıcı elmi-tədqiqat institutunda son nəsil texnologiyalara tam şəkildə rast gəlinməsi nadir haldır. İnstitutların böyük əksəriyyətində alimlərin istifadəsində olan əsas və mühüm fiziki-kimyəvi cihazlar mənəvi aşınmış vəziyyətdədir. Məsələ ondadır ki, yeni cihazların alınması bir yana qalsın, mövcud olanların işində nasazlıq olanda, onları təmir edib, təkrar istifadəyə vermək aylar, bəzən illər çəkir. Bu problemləri aradan qaldıra biləcək ixtisaslı mütəxəssislər çatışmır.

Təmsil etdiyim elmi istiqamət üzrə konkret bir nümunə ilə fikrimə aydınlıq gətirə bilərəm. Akademik tədqiqatlar aparan 4 kimya institutu və ixtisaslaşmış elmi-tədqiqat kimya laboratoriyaları olan universitetlərin sintez olunan yeni materialların quruluşunu təsdiq etmək üçün köhnəlmiş, inkişaf etmiş ölkələrdə istifadə müddətini artıq başa vurmuş cəmi 2 ədəd NMR və 1 ədəd X-ray cihazları var. Onlar da tez-tez sıradan çıxmaqla elmdə yenilik etmək istəyən alimlərimizin işlərinə əməlli-başlı mane olur. Siyahını kifayət qədər uzatmaq olar. Belə problemli tədqiqat mühütündə elmi işlərin keyfiyyət göstəricilərinin əsaslı şəkildə artırılması qeyri mümkündür.

Bütün bunlara baxmayaraq şəxsi bilik və bacarıqlarını səfərbər edərək beynəlxalq tədqiqat qruplarına qoşularaq Azərbaycan adına elmi nəticələr əldə edən, onları nüfuzlu xarici jurnallarda çap etdirən, həmin əsərləri dünya alimlərinin istinad mənbəyinə çevirə bilən, bir sözlə, minimum şərtlərlə maksimum nəticə ortaya qoya bilən alimlərə təşəkkür etmək və onların əməyini daha çox qiymətləndirmək lazımdır.

Bu nöqteyi-nəzərdən hesab edirəm ki, Elm və Təhsil Nazirliyinin elmi fəaliyyətə görə fərqlənən alimlər üçün aylıq maddi mükafat təsis etməsi təqdirəlayiq haldır, alqışlanmalıdır. Onlar bu prosesə yeni yanaşma gətiriblər. Ancaq bu prosesi seçim meyarlarını təkmilləşdirməklə, ən əsası sağlam rəqabət mühütü yaratmaqla, bu imkanlardan həqiqi elmlə məşğul olan, ona töhfə verən alimlərin faydalanmasından ötrü irəli aparmaq vacibdir.

**– Elmi fəaliyyəti zəif olan elmi tədqiqat institutların bağlanması və ya birləşdirilməsi məsələsi də tez-tez gündəmə gətirilir?**

– Mən bu məsələyə bir qədər fərqli yanaşıram. Bir elmi institut bağlamaq, onu yaratmaqdan asandır. Heç bir mübaliğəyə yol vermədən deyə bilərəm ki, dəqiq və təbiət elmlər üzrə ixtisaslaşmış institutların hər biri öz sahəsində bir elmi məktəb olub. Onların formalaşmasına illər xərclənib. Dünya təcrübəsində isə heç bir elmi məktəbi, heç bir elm məbədini bağlamırlar, onu daha da müasirləşdirmək, təkmilləşdirməklə irəliyə aparırlar. Bağlamaq heç bir halda problemin həll yolu deyil.

Uğurlu elmi nəticələrin az olması heç də tədqiqat aparan institutların və ya universitetlərin sayının çox olması ilə əlaqəli deyil. Çünki elmin dünyada şaxələnməsi o qədər sürətli hal alıb ki, bir elmin prioritet istiqamətləri üzrə ixtisaslaşmış bir neçə elmi institutları yaradılır və uğurlu fəaliyyət göstərib konkret nəticələr də ortaya qoya bilir. Halbuki dünya təcrübəsində dəfələrlə rast gəlinib ki, institutlar müxtəlif istiqamətlər üzrə bir tədqiqat mərkəzində cəmləşəndə, uğurlu elmi nəticə əldə etmək mümkün olmur. Söz yox ki, keyfiyyətli elmi tədqiqatlar aparılmayan elmi mərkəzlər bu şəkildə fəaliyyət göstərə bilməz. İlk növbədə onlarda olan mövcud tədqiqat mühütü araşdırılmalıdır. Problemi yaradan səbəblər aradan qaldırılmalı, institutlarda tədqiqat obyektinə və subyektinə çevrilən məsələlər, mövzular dövrlər üzrə müqayisəli şəkildə araşdırılmalı, məqsədli nəticələri olmayan, süni təkrarçılığa yol verilən mövzular, Azərbaycan reallığı və dünyanın müasir, aktual elmi trendləri ilə səsləşən problematik mövzularla əvəz olunmalıdır. Belə olan halda elmi-tədqiqat institutları arasında sağlam rəqabət yaradan tədbirləri reallaşdırmaqla institutların fəaliyyətlərinin keyfiyyət göstəriciləri həndəsi silsilə ilə artacaq.

**– Dünya ölkələrində olduğu kimi elmi tam şəkildə universitetlərə necə gətirmək olar?**

– Bütün ali məktəblərin tədqiqat universitetinə çevrilməsi şərt deyil. Tək Azərbaycanda deyil, dünyanın əksər inkişaf etmiş ABŞ, Avropa ölkələrində yalnız təhsillə, digər tərəfdən ali təhsil və elmlə bir yerdə məşğul olan universitetlər (elmi fəaliyyəti onların nəzdində yaradılan tədqqiat institutları həyata keçirir) və ayrıca elmi institutlar mövcuddur. Bunlar birlikdə güclü tandem təşkil edir və ölkə elmini inkişaf etdirirlər.

Cənab nazirin də qeyd etdiyi kimi, elə universitetlər var ki, onların laboratoriyaları yoxdur, onun tədqiqat universitetinə çevrilməsinin heç bir mənası yoxdur. Amma bu gün elmi tədqqiatları ilə fərqlənən bir çox universitetlərimiz var ki, onlar artıq keçid mərhələsindədir. Hesab edirəm ki, elmlə təhsilin tam inteqrasiyası universitetlərlə institutların əlaqələndirilmiş birgə fəaliyyətindən aslıdır. Bu müştərək fəaliyyətdə birinin rolunu artırmaq, digərinin rolunu azaltmaqla mümkün deyil. Çox düzgün olaraq Elm və Ali təhsil üzrə Dövlət Agentliyi tərəfindən bəzi universitetlərin ayrı-ayrı elmi-tədqiqat institutları ilə fəaliyyətlərinin əlaqələndirilməsi tədbirləri həyata keçirilir. Tam əminliklə deyə bilərik ki, hazırda dünya universitetlərin reytinqinə düşən Azərbaycan universitetlərinin sayının artması həm də bu amillə əlaqədardır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# 2025-ci ildə də ölkənin maliyyə sabitliyi qorunacaq

**Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi iqtisadi strategiyanın uğurla həyata keçirilməsi nəticəsində 2024-cü ildə də ölkədə makroiqtisadi sabitlik qorunub və iqtisadi artım davam edib. Bu sahədə əldə olunan nəticələr gələn ilin makroiqtisadi sabitliyi üçün də zəmin yaradır.**



Mərkəzi Bankın 2025-ci ilin pul siyasətinin əsas istiqamətləri barədə Bəyanatında bununla bağlı bildirilir ki, maliyyə qurumu cari il qiymət sabitliyinə yönələn uğurlu pul siyasəti həyata keçirib. Bu istiqamətdə qərarlar inflyasiyanın risk balansında baş verən dəyişikliklər nəzərə alınmaqla verilib. Bunun nəticəsidir ki, 2024-cü ildə illik inflyasiyanın hədəf diapazonu proqnozlaşdırılan səviyyədə (4±2%) olub. Pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi və bununla faiz kanalının ötürücülüyünün gücləndirilməsi üzrə islahatlar davam etdirilib.

Mərkəzi Bankın gələn il üçün nəzərdə tutulan pul siyasəti də inflyasiyanın aşağı və sabit səviyyədə saxlanılmasına yönəldiləcək. Pul siyasəti qərarları yenilənən makroiqtisadi proqnozlar, inflyasiyanın ortamüddətli dövrdə xarici və daxili amilləri üzrə risk balansının dəyişimi əsasında veriləcək.

Bəyanatda bununla bağlı həm də bildirilir ki, 2024-cü ildə pul siyasəti maliyyə bazarlarının göstəriciləri olan faiz, məzənnə və s. vasitəsilə inflyasiyanın hədəf daxilində saxlanılmasına yönəldilib, bu siyasətin kənar təsirlərdən qorunması diqqətdə saxlanılıb. Bu fikir Dövlət Statistika Komitəsinin müvafiq göstəriciləri ilə təsdiqini tapıb. Belə ki, 2024-cü ilin noyabrında 12 aylıq inflyasiya 4,4 faiz olub, ərzaq məhsulları üzrə illik 4,4 faizlik inflyasiya qeydə alınıb, qeyri-ərzaq məhsulları 2,2 faiz bahalaşıb. İllik xidmət inflyasiyası isə bu dövrdə 6 faiz təşkil edib. Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsullarının qiymət dəyişimi nəzərə alınmadan hesablanan illik baza inflyasiyası noyabrda 3,9 faiz olub.

İllik inflyasiyaya cari ildə bir sıra xarici və daxili amillər təsir göstərib. Tərəfdaş ölkələr üzrə orta çəkili inflyasiyanın pik səviyyələrlə müqayisədə düşməsi, eləcə də manatın nominal səmərəli məzənnəsinin möhkəmlənməsi inflyasiyaya azaldıcı təsir edib. Bu ilin 11 ayında manatın qeyri-neft ticarət çəkili məzənnəsi 7,1 faiz bahalaşıb. İnflyasiyanın azalmasına hökumətin və Mərkəzi Bankın qiymətlər sabitliyinin reallaşdırılması istiqamətində son illər həyata keçirdiyi siyasət də öz töhfəsini verib.

Cari ildə valyuta bazarında da sabitlik olub, Mərkəzi Bankda Dövlət Neft Fondunun valyuta satışlarının həyata keçirilməsi üzrə 87 hərrac reallaşıb. Bu hərraclarda bazarın xarici valyutaya tələbatı tam ödənilib. 2024-cü ildə Mərkəzi Bankın valyuta bazarında satışlar əsasən, dövlət layihələrindən və xarici valyutada öhdəliklərin azaldılmasından irəli gələn strateji əhəmiyyətli dövlət xərclərinin icrasına dəstək məqsədilə həyata keçirilib.

Mərkəzi Bankın 2025-ci ildə pul siyasəti, əsasən, qiymət sabitliyinin təmin edilməsinə, inflyasiyanın müəyyənləşdirilən hədəf daxilində sabitləşməsinə yönəldiləcək. Bu siyasət çərçivəsinin təkmilləşdirilməsi istiqamətində islahatlar davam etdiriləcək. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı proqnozlaşdırılan səviyyədə (4±2 faiz) saxlamaqdan ibarət olacaq. Əvvəlki illərdə olduğu kimi, növbəti ildə də hədəf göstəricisi Dövlət Statistika Komitəsinin hesabladığı istehlak qiymətləri indeksinin son 12 ayda dəyişimi əsasında hesablanacaq.

Mərkəzi Bankın maliyyə dərinliyinin artırılması, maliyyə sabitliyinin qorunması, rəqəmsal ödənişlərin genişləndirilməsi kimi prioritetləri də pul siyasətinin səmərəliliyinə müsbət təsir edən amillər sırasında olacaq. Monetar siyasətdə iqlim dəyişikliyindən və eləcə də "yaşıl" keçiddən qaynaqlanan inflyasiyanın təsirləri üzrə təhlillər davam etdiriləcək. COP29 ərəfəsində Mərkəzi Bankın İdarə Heyətinin təsdiqlədiyi "Yaşıl taksonomiya" perspektivdə zəruri hallarda "yaşıl" keçidə pul siyasəti ilə dəstək verəcək.

Azərbaycan iqtisadiyyatının real sektorunda gələn il ərzində də artımın davam edəcəyi proqnozlaşdırılır. Mərkəzi Bankın 2024-cü ilin oktyabr proqnozlarına görə, 2025-ci ildə real iqtisadi artım tempinin 3,3 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 5,1 faiz olacağı gözlənilir. Hökumətin, beynəlxalq maliyyə-kredit təşkilatlarının və aparıcı reytinq agentliklərinin də Azərbaycandakı iqtisadi artımın perspektivləri ilə bağlı gözləntiləri nikbindir.

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın dekabr sayına əsasən, 2024-cü ilin yanvar–noyabr ayları ərzində Azərbaycanın qeyri-neft-qaz ixracı 2023-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3,1 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə yeyinti məhsullarının ixracı 12,3 faiz çoxalaraq 923 milyon dollara bərabər olub.**

# Qeyri-neft ixracı 2 faiz artıb

Cari ilin 11 ayı ərzində ixraca yönəldilən şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 65,4 faiz artaraq 37,5 milyon dollar, pambıq lifi 52,6 faiz artaraq 170 milyon dollar, bitki mənşəli yağlar və piylər 32 faiz artaraq 25,5 milyon dollar, qiymətli metallar 29 faiz artaraq 189,8 milyon dollar, kimya sənayesi məhsulları 19,6 faiz artaraq 265,6 milyon dollar təşkil edib.

Hesabat dövründə aqrar məhsulların ixracı 4,4 faiz artaraq 701,7 milyon dollara, aqrar-sənaye məhsullarının ixracı 58,3 faiz artaraq 287,3 milyon dollara yüksəlib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 15,9 faiz çoxalaraq 989 milyon dollar olub. Qeyri-neft sektoruna aid malların siyahısında isə qızıl (186,6 milyon dollar) birinci olub. Bu siyahıda pambıq mahlıcı (168,9 milyon dollar) ikinci, tomat (155,4 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.



Hesabat dövründə Rusiya Federasiyasına 1,1 milyard, Türkiyəyə 507,1 milyon, Gürcüstana 252,9 milyon, İsveçrəyə 193,6 milyon, ABŞ-yə isə 129,6 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

2024-cü ilin noyabr ayında ixraca yönəldilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (33,6 milyon dollar) birinci, qızıl (23,2 milyon dollar) ikinci, meşə fındığı (18,9 milyon dollar) üçüncü olub.

Cari ilin noyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (111,2 milyon dollar) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (30,1 milyon dollar) ikinci, İsveçrə (24,7 milyon ABŞ dolları) üçüncü sırada yer alıb.

İİTKM-in məlumatında hesabat dövründə "Azərkosmos" tərəfindən dünyanın 50 ölkəsinə 16,9 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. Qurumun xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 73 faizini təşkil edib. 2024-cü ilin noyabr ayında isə "Azərkosmos"un dünyanın 40 ölkəsinə ixrac dəyəri 1,5 milyon dollara yüksəlib.

2024-cü ilin 11 ayı ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 5,4 milyon dollar ilə Birləşmiş Krallıq, 3,5 milyon dollar ilə Lüksemburq, 826,1 min dollar ilə BƏƏ, 639,5 min dollar ilə Pakistan, 600,4 min dollar ilə Türkiyə qərarlaşıb.

# TAP: "Köhnə qitə"nin yeni qaz marşrutu

*Azərbaycanın "mavi" yanacaq ixrac etdiyi 12 ölkənin 10-u Avropada yerləşir*

**Azərbaycanı Avropanın mötəbər enerji tərəfdaşına çevirən Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) istismara verilməsindən 4 il ötür. "Köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən bu nəhəng ixrac marşrutu getdikcə daha çox aktuallıq kəsb edir. Bu da təsadüfi deyil. Çünki "mavi yanacağ"a tələbatın artdığı indiki şəraitdə Avropa istehlakçıları ölkəmizi potensial qaz tədarükçüsü kimi görürlər. Elə hazırda Azərbaycanın qaz ixrac etdiyi 12 ölkənin 10-nun Avropada yerləşməsi də bunun əyani sübutudur.**

Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin həyata vəsiqə alması Azərbaycanın enerji sahəsində Qərbin fəal əməkdaşlıq edə biləcəyi bir ölkə kimi qazandığı yüksək inam və etimadın nəticəsi idi. Məhz bu səbəbdən Avropa Birliyi tərəddüd etmədən üzünü qaz ehtiyatları ilə zəngin, mühüm tədarükçü rolunda gördüyü Azərbaycana tərəf çevirdi. Nəticədə, XXI əsrdə Avropanın enerji xəritəsini zənginləşdirəcək yeni bir qaz dəhlizinin formalaşdırılmasına əsaslı zəmin yarandı.




Trans–Adriatik Boru Kəməri Azərbaycan qazının böyük bazarlara çıxarılmasını təmin edən infrastrukturdur. TAP-ın ərsəyə gəlməsində ölkəmizin çox böyük rolu olub. Təsadüfi deyil ki, 2013-cü ildə boru kəmərinin tikintisi ilə bağlı imzalanmış müqavilənin iştirakçıları olan təsisçi şirkətlərin 60 faizi məhz Azərbaycandakı hasilatçılar idi. Bunlar, əsasən, hər biri 20 faiz iştirak payına malik SOCAR, BP və Statoyl şirkətləri idi. Yəni, TAP-ın ərsəyə gəlməsinə sərf olunan əziyyətin, çəkilən xərcin yarıdan çoxu Azərbaycan və tərəfdaşlarının payına düşür.

Trans–Adriatik Qaz Boru Kəmərinin tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının 2-ci işlənmə mərhələsi çərçivəsində hasil edilən təbii qazın TAP kəməri vasitəsilə Avropaya nəqlinə isə həmin il dekabrın 31-də başlanılıb. Həmin gün kəmərlə 10,7 milyon kubmetr Azərbaycan qazının Avropaya ixracı qeydə alınıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmağa nail olub. 2021-ci ildə ölkəmizdən "köhnə qitə"yə 8 milyard 150 milyon kubmetr təbii qaz ixrac olunub. Bu ilin yanvar-noyabr aylarında isə Trans-Adriatik Boru Kəməri ilə Azərbaycandan Avropaya ixrac edilən "mavi yanacağ"ın həcmi 11,7 milyard kubmetr təşkil edib. Bütövlükdə isə, ötən 4 il ərzində Cənub Qaz Dəhlizinin tamamlayıcı hissəsi olan TAP vasitəsilə Avropadakı enerji tərəfdaşlarımıza 43 milyard kubmetrə yaxın təbii qaz göndərilib.

Trans–Adriatik Qaz Boru Kəmərinin ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. 2027-ci ilin sonunadək isə bu həcmin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub.

Yeri gəlmişkən, dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirmək imkanı əldə edib. Elə Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan TAP vasitəsilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə bir milyard kubmetr həcmində qaz nəqli olunması da məhz ixrac infrastrukturunun şaxələndirilməsinin nəticəsidir. Yeri gəlmişkən, Bolqarıstana "mavi yanacağ"ın nəqli TAP-a birləşdirilən Yunanıstan–Bolqarıstan interkonnektoru (birləşdirici kəmər) vasitəsilə həyata keçirilir. Ümumi uzunluğu 182 kilometr olan interkonnektorun 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Yaxın gələcəkdə boru kəmərinin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetrə çatdırılacağı gözlənilir. Hələlik isə "Bulgargaz EAD" dövlət şirkəti ilə Şahdəniz konsorsiumu arasında imzalanmış müqaviləyə əsasən Bolqarıstan ölkəmizdən ildə 1 milyard kubmetr qaz alır.

Qarşıdakı illərdə Avropanın Azərbaycan qazına tələbatın artması ilə əlaqədar TAP-ın mövcud nəqletmə gücünün iki dəfəyədək artırılması, eləcə də Avropa ölkələlərinin qaz şəbəkələrini sözügedən kəmərlə əlaqələndirən yeni interkonnektorların inşası gözlənilir. Məlum olduğu kimi, illik ötürücülük qabiliyyəti 10 milyard kubmetr təşkil edən TAP-ın yeni borular çəkməyə ehtiyac olmadan mərhələli şəkildə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Hazırda isə TAP konsorsiumu tərəfindən kəmərin genişləndirmənin birinci mərhələsi üzrə işlər davam etdirilir.

Yeri gəlmişkən, Trans–Adriatik Qaz Boru Kəməri "yaşıl" hidrogen nəqli üçün də potensial imkanlara malikdir. TAP-ın icraçı direktoru Luka Skyeppati deyib ki, 2021-ci ildə aparılan ilkin tədqiqat TAP-ın gələcəkdə təbii qaz və hidrogen qarışığının nəqli üçün texniki potensialını təsdiqləyib. Bu isə boru kəmərinin enerji keçidinin tələblərinə uyğunlaşdırılması üçün əlavə perspektivlər açıb. Onun sözlərinə görə, TAP konsorsuiumu özünü Paris Sazişinin məqsədlərinin həyata keçirilməsində mühüm tərəfdaş kimi görür. Bu marşrutun potensial olaraq Avropa İttifaqını hidrogen və biometan kimi karbon neytral enerji mənbələri ilə təmin edə biləcəyini vurğulayan icraçı direktor qeyd edib ki, TAP Balkan regionunda əlavə enerji mənbəyi kimi xidmət edə bilər.

Konsorsiumun adı çəkilən boru kəmərini hidrogen nəqli üçün uyğunlaşdırmağı hədəflədiyini bildirən direktoru Luka Skyeppatinin sözlərinə görə, qurum mövcud infrastrukturun təbii qaz və hidrogen qarışığının nəqli üçün texniki baxımdan nə dərəcədə mümkün olduğunu yüksək qiymətləndirir. O deyib ki, bunun üçün orta və uzunmüddətli perspektivdə belə qarışıqların, o cümlədən digər bərpaolunan qaz növlərinin nəqlinə hazırlığı təmin edəcək yol xəritəsi hazırlanıb: "Hazırda boru kəmərinin materiallarının beynəlxalq laboratoriyada sınaqları keçirilir. Bu məlumatlara əsasən, TAP nəticələri qiymətləndirəcək və 2025-ci ildə əlavə sınaqların zəruriliyini müəyyənləşdirəcək. Bununla yanaşı, bu il yerüstü qurğular üçün boşluq analizinə başlanılıb və bu işlər gələn il də davam etdiriləcək".

# "Yaşıl Dəhliz Birliyi" Birgə Müəssisəsi

**"Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in həyata keçirilməsi məqsədilə "Azərenerji" ASC, "Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti" və "Özbəkistan Milli Elektrik Şəbəkəsi" Səhmdar Cəmiyyəti arasında "Yaşıl Dəhliz Birliyi" Birgə Müəssisəsinin Bakı şəhərində yaradılmasını nəzərdə tutan "Təsis müqaviləsi" imzalanıb.**

Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Qazaxıstanın energetika naziri Almasadam Satkaliyev, Özbəkistanın energetika nazirinin müavini Umid Mamadaminovun iştirakı ilə hibrid formatda keçirilən mərasimdə sənəd "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev, "Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti"nin idarə heyətinin sədri Nabi Aytjanov və "Özbəkistan Milli Elektrik Şəbəkəsi"nin idarə heyəti sədrinin müavini Feruz Kurbonov tərəfindən imzalanıb.

Xatırladaq ki, "Yaşıl Dəhliz Birliyi" Birgə Müəssisəsi "yaşıl" enerjinin Azərbaycan ərazisindən keçməklə Avropaya ixracı ("Mərkəzi Asiya –Azərbaycan Yaşıl Enerji Dəhlizi") layihəsinin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasından irəli gələn zəruri tədbirləri həyata keçirəcək. Müəssisə regionda bərpaolunan enerji layihələrinin, dayanıqlı enerji sistemlərinin və beynəlxalq enerji dəhlizlərinin inkişafını gücləndirmək istiqamətində birgə hədəflərin həyata keçirilməsinə təkan verəcək.

Birgə müəssisənin idarəetmə sistemi şirkətin ali idarəetmə orqanı kimi ümumi yığıncaq vasitəsilə tənzimlənəcək. Onun fəaliyyətinə rəhbərlik isə baş direktor tərəfindən həyata keçiriləcək. Bu vəzifə hər üç ildən bir tərəflər arasında bərabər rotasiya əsasında dəyişdiriləcək.

İmzalanma mərasimində çıxış edən nazirlər layihənin ölkələrimizin enerji təhlükəsizliyinin, "yaşıl" enerji tərəfdaşlığının möhkəmləndirilməsinə və Orta Dəhlizin inkişafına mühüm töhfə verməklə yanaşı, Avropaya təmiz enerjinin tədarükü üçün imkanlar yaradacaq.



Yeri gəlmişkən, "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" dövlət başçıları tərəfindən bu il noyabrın 13-də COP29 çərçivəsində imzalanıb.

# Ballıcalılar da tale şirinliyinə qovuşdular



## Xocalının bu tarixi kəndində Qayıdış həyəcanı

**Xocalıya – rayonun Ballıca kəndinə növbəti köç var. Daha 21 ailə məcburi köçkünlüklə əbədi olaraq vidalaşır, 119 nəfər Böyük Qayıdışın həyəcanını yaşayır. Bu insanlar 32 ildə ilk dəfədir ki, köçdükləri üçün bu qədər sevinirlər. Ev köçürmək, yeni yerdə məskunlaşmaq asan deyil axı.**

### Can Qarabağ, bitdi həsrət acısı...

Bu dəfə istiqamət Vətən içində Vətənə – Xocalıyadır. İllərin həsrəti, nisgili sona çatır, çoxdan gözlənilən vüsal anı yetişib. Ona görə də köç karvanına qoşulan hər kəs bir-birinə gözaydınlığı verir, yeni yurdda xöşbəxtlik diləyir. Hamı kimin evinin hansı nömrəli olması, kəndin harasında yerləşməsi ilə maraqlanır...

Mən budəfəki köçdə təkcə peşə vəzifəsini yerinə yetirən, hər qayıdış zamanı sevincdən qürurlanan, gözləri yaşaran qarabağlı jurnalist kimi iştirak etmirəm. Bu gün həm də Vətən yolunda bir oğul şəhid vermiş anamın, 10 yaşından bu günün xəyalları ilə yaşayan qardaşımın və ailəsinin sözlə ifadə edilməsi asan olmayan hisslərini, həyəcanlarını onlarla birgə yaşayıram. Maşınlar yüklənir, illərlə bizə qucaq açmış əziz Gəncəylə sağollaşıb, onun gözəl insanlarına minnətdarlıq duyğusu ilə yola düşürük. Azərbaycanın müxtəlif bölgələrindən geri qayıdan xocalılılarla Ağdamın girişində görüşüb oradan birlikdə əbədi ünvana üz tutacağıq.

Hər dəfə doğma yurd həsrəti bitən, daimi məskunlaşmaq üçün Qarabağda, Şərqi Zəngəzurda yenidən tikilmiş, bərpa edilmiş evlərinə qayıdan keçmiş məcburi köçkünlərdən hansı hisslər keçirdiklərini soruşanda əksərən həyəcandan fikirlərini ifadə etməkdə şətinlik çəkdiklərini bildiriblər. Bax, indi onları elə gözəl başa düşürəm ki!

Dilimizdə Vətənin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin müqəddəs ruhlarına dualar səslənir, bizə bu xoşbəxt anları yaşadan möhtərəm Prezidentimizə, müzəffər Ali Baş Komandanımıza uzun ömür, cansağlığı, qazilərimizə şəfalar diləyirik. Ürəyimdən misra-misra duyğular axır:

**Can Qarabağ, bitdi həsrət acısı...**
**Vüsalından kam almağa gəlirik!**

### Köçkün "QAZ 53"...

Hamı toplaşandan sonra köç karvanımız hərəkətə başlayır. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ("Qaçqınkom") tərəfindən keçmiş məcburi köçkünlərin Böyük Qayıdışı zamanı təçkilatçılıq yüksək səviyyədə təşkil edilir, bütün lazımi tədbirlər görülür. Fərdi olaraq hərbir şəxsin qayğıları diqqətdə saxlanmaqla yanaşı, insanların ləyaqətlə, hörmətlə qayıdışı təmin olunur. Hər zamankı kimi, bu dəfə də köş karvanını polis və təcili tibbi yardım maşınları müşayiət edir.

Ard-arda düzülmüş minik və yük avtomobillərinin içərisində biri hamının marağına səbəb olur. Üstündə ev əşyaları, kabininin böyründə üçrəngli bayrağımız dalğalanan bu köhnə "QAZ 53"-ü də, sahibi Əliev Vidadini də yaxşı tanıyıram. Kəndlimizdir. 1992-ci ildə erməni vəhşilərinin amansız hücumlarından canını götürüb qaçmağa məcbur olanda ailəsi ilə birlikdə Qarabağı bu avtomobildə tərk etmişdi. Mənzil başına çatanda əlüstü söhbət edirik. Bildirir ki, elə bu maşınla da doğma yurda qayıtmaq ən böyük arzusu olub:

– Uzun illər ümidimi itirmədən bu günün gələcəyini gözləmişəm. Əmin idim ki, bu, nə vaxtsa baş verəcək. Dövlətimiz var olsun, dedilər, yük maşını verək köçmək üçün. Cavab verdim ki, lazım deyil, "QAZ 53"-üm də mənim kimi, 32 il əvvəl gəldiyi yolları geri dönməyi gözləyir. Köhnəlsə də, "qocalsa" da, o da mənim kimi arzusuna çatdı!

### Yeni dövranın açarları

Ballıcada bayram əhval-ruhiyyəsi hakimdir. "Qaçqınkom"un, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, qeyd edilən ərazilər üzrə Bərpa, Tikinti və İdarətmə Xidmətinin əməkdaşları, bir neçə gün əvvəl buraya ilk köç etmiş 152 nəfər (27 ailə) yeni gələn sakinləri qarşılamaq üçün kəndin mərkəzinə toplaşıblar.

Sevinc-sevincə qarışıb, uzun illərdir respublikamızın müxtəlif ərazilərində məskunlaşmış qohumlar burada qucaqlaşıb görüşür, hal-əhval tutur, bir-birilərini təbrik edirlər. Hamısı üçün həm Vətən, həm qohum həsrəti başa çatır. Daha bundan sonra onlar abadlaşan, yenidən qurulan Ballıcada illər əvvəl olduğu kimi birlikdə yaşayacaqlar, tez-tez bir-birilərinə qonaq gedib-gələcəklər.

Böyük Qayıdışın ən həyəcanlı anlarından biri evlərin açarlarının təqdimedilmə mərasimidir. Bu dəfə mərasim torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizlə yanaşı, dekabrın 25-də AZAL-ın Bakı-Qroznı reysi ilə uçan təyyarəsinin qəzaya uğraması nəticəsində facilə şəkildə həlak olmuş vətəndaşların xatirələrinin ehtiramla yad edilməsi ilə başladı.

Yeni sakinləri salamlayan Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsin icraçı direktoru Telman Kərimli onları təbrik edərək, Ballıca kəndində xoşbəxt və firavan həyat sürmələrini arzuladı. Bildirdi ki, dövlətimiz bundan sonra da öz yurdlarına qayıtmış sakinlərin yanında olacaq, onların bütün qayğıları, həmçinin məşğulluq məsələləri diqqətdə saxlanılacaq. Daha sonra mənzillərin açarları kiçik qırmızı qutularda ailələrə təqdim edildi. Yeni dövrana qapı açan bu açarlar 21 ailə tərəfindən daimi ünvanlarının simvolu kimi sevinc hissi ilə qarşılandı.

Yeni ballıcalılar yerləşmək üçün təmirli, rahat evlərinə üz tutmağa başladılar. Bir məqamı da qeyd edim ki, Xidmət tərəfindən yükərinin boşaldılmasına yardım etmək, yeni mənzilində yerləşməsinə kömək göstərmək, mümkün xırda çatışmazlıqları operativ şəkildə aradan qaldırmaq məqsədilə hər ailəyə bir nəfər xüsusi nümayəndə təyin edilmişdi. Evlərinə çatar-çatmaz uzaq yoldan gəlmiş sakinlərə isti yeməklər də çatdırıldı. Göründüyü kimi, hər şey incəliyinə qədər nəzərə alınıb.

### Yeni ünvanımız – 15-ci ev!

Ballıcada gündən-günə həyat canlanmaqdadır. Böyük Qayıdışla bağlı burada bütün infrastruktur yenidən qurulub. Kənd elektrik enerjisi, içməli su, təbii qaz və yüksəksürətli internetlə təmin olunub.



Ailəmizə verilmiş evə çatırıq. Qırmızı qutunun içindəki açar yeni ünvanımızın – 15-ci evin qapısını açır, mənzillə tanışlıq başlayır. Otaqları gəzdikcə anamın üzündəki sevinc, razılıq ifadəsi daha aydın hiss olunur. "Necədir?", - deyə, soruşuram. Bir az da kövrəklik dolu notlarla cavab verir:

– Hər şey çox gözəldir. Özün bilirsən, biz otuz iki il çox əziyyətlər çəkdik. Məcburi köçkün kimi Gəncə ətrafında məskunlaşmışdıq. Ora ilə bağlı acılı-şirinli çox xatirələrimiz var. Sağ olsunlar, Gəncə camaatı bizə qarşı həmişə mehriban olub, dövlətimizin də ki, dəstəyini hər an hiss etmişik. Ancaq Qarabağa qayıtmaq istəyimizi həmişə ürəyimizdə yaşatmışıq. Bu gün şəhid Arazımın da, Birinci Qarabağ müharibəsində ağır döyüşlərdə iştirak etmiş rəhmətlik atanın da ruhları şaddır. Çünki onlar da bu günləri arzulayırdılar. Allah Prezidentimizi qorusun! Onun sayəsində bütün şəhidlərimizin qisası alındı, torpaqlarımız düşmən tapdağından azad edildi. Allah şəhidlərimizə rəhmət eləsin! Bütün geri qayıdanların gözü aydın olsun! Bütün keçmiş məcburi köçkünlər tezliklə bu xoşbəxtliyi yaşasın, inşallah!

Bu gözəl dualara qoşularaq mən də yüklərin yerbəyer edilməsinə yardım etməyə başlayıram. Belə məqamlarda hərə mütləq bir işin qulpundan yapışmalıdır. Həm də mən özüm də bir müddət bu evdə yaşayacam, "Xalq Qəzeti"nin bölgə müxbiri kimi buradan işləyəcəm axı...

### Dirçələn Xocalının qanadlı duyğuları

İlk dəfədir ki, Xocalıdan yazıram. Haqqında deyil, məhz Xocalıdan, Ballıca kəndinin özündən. Yaza-yaza da düşünürəm ki, ermənisiz Qarabağa, Şərqi Zəngəzura qayıdan insanların sevincini bölüşmək, o hədsiz sevincdən dadmaq, bu azad yurd yerlərimizdə həvəslə, qürurla işləyənlərin, bu yerləri yenidən cənnətə çevirənlərin qısa müddətdə yaratdıqları möcüzələri izləmək, bu qədər möhtəşəm tarixi hadisələrin şahidi olmaq böyük xoşbəxtlikdir. Həm böyük xoşbəxtlikdir, həm də böyük məsuliyyət.

Bütün qeyd etdiklərimin sevincindən pay düşdüyü kimi, məsuliyyətindən də hamımıza pay düşür. Biz xalq, millət olaraq Vətən müharibəsində mənfur düşmənə, ermənilərin havadarlarına dövlətimizin, möhtərəm Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşməyimiz sayəsində qalib gəldik. İndi isə Qarabağı, Şərqi Zəngəzuru yenə birliyimizlə bərpa edəcəyik, abadlaşdıracağıq.

Dünya bu dəfə də Azərbaycan xalqının birliyi, iradəsi qarşısında heyrətlənəcək. Dostlar sevinəcək, düşmənlərin bağırları partlayacaq. Bu gün Ballıcada olduğu kimi, bütün kəndlərimizdə, şəhərlərimizdə həyat canlanacaq, bu gün biz Ballıcaya qayıtdığımız kimi, bütün keçmiş məcburi köçkünlər də öz doğma ata-baba ocaqlarına dönəcəklər. Özü də tezliklə!

## Qayıdış ünvanlarında

**Azad Xankəndi yeni – 2025-ci ili bayram əhval-ruhiyyəsində qarşılamağa hazırlaşır. Qarabağ xanının kəndi kimi salınmış bu yaşayış məntəqəsi azadlığına qovuşub, qanlı erməni xuntasının bəd nəfəsindən, tör-töküntüsündən aranıb-paklanandan sonra gözlərimiz qarşısında Qarabağın Xan şəhəri kimi canlanır.**

# Yeni ilin mübarək, Xankəndi!

## Azadlığına qovuşmuş Qarabağın Xan şəhərində bayram şənliyi






34 il sonra burada təşkil olunan "Qış nağılı" yarmarkasına axışan insanlar burada sanki sehrli aləmə düşürlər. Yarmarkanın keçirildiyi ərazidə quraşdırılan rəngarəng işıq effektləri, foto çəkdirmək üçün bir-birindən maraqlı stendlər, əyləncə attraksionları, satışa çıxarılan müxtəlif məhsullar, istirahət üçün nəzərdə tutulan kiçik taxta evlər bu məkanı daha da cazibədar edir.

Dekabr soyuğuna baxmayaraq hamının üzündən sevinc, xoşbəxtlik yağır, çöhrələri təbəssüm bəzəyir. Burada hətta bir-birini tanımayan insanlar da doğma, yaxın kimi salamlaşır, mehribanlıqla bayramlaşırlar. Zəfər meydanının gözəlliyinə gözəllik qatan həm də valideynləri ilə yarmarkaya, bayram konsertinə gələn uşaqların sevinci, onların şən gülüşləridir. "Xalq qəzeti"nin Qarabağ bürosu olaraq sakinlərin bir neçəsi ilə həmsöhbət olub, onların həyəcanlarına, xoş duyğularına şərik olduq.

**Əli Muradov:** – Hər şeydən öncə, qəzetiniz vasitəsilə bütün xalqımızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə Xankəndidən təbrik etmək istəyirəm. Mən burada doğulmuşam. Qarabağda erməni separatizmi baş qaldıranda bu doğma şəhəri atamın qucağında tərk etmişəm. Həmin vaxt mənim cəmi iki yaşım vardı. İndi isə həyat yoldaşımla, biri qucağımda olmaqla üç qızımla geri qayıtmışam.

Möhtərəm Prezidentimizin müdrik siyasəti, qətiyyəti, sarsılmaz iradəsi sayəsində bütün torpaqlarımız işğaldan azad edilib. Bu gün Xankəndidə bayram konsertində iştirak etmək, Yeni il qarşılamaq mənim üçün ən böyük xoşbəxtlikdir. Fəxr edirəm ki, övladlarım burada təhsil alırlar, burada böyüyüb Vətənə, millətə layiq olmağa çalışacaqlar.

**Orxan Əhmədzadə:** – Ağdam rayonu Quzanlı qəsəbə sakiniyəm. Bir neçə aydır ki, Xankəndidə işləyirəm. Burada Yeni ili qarşılamaq, bu gözəl bayram əhval-ruhiyyəsini yaşamaq çox möhtəşəm hisslərdir. Allahdan xalqımıza, millətimizə hər zaman zəfər sədalı illər arzulayıram!

**Gülay Kərimova:** – Biz ailəlikcə Şuşadan Xankəndiyə qonaq gəlmişik. Bu sözləri işlətmək insana şirin yuxu kimi gəlir. Şuşada gözəl mənzillə təmin olunmuşuq, hər şəraitimiz var. Bugünlərə min şükür. Xatırlayıram ki, uşaq olanda da Xankəndiyə festivalda iştirak etməyə gəlmişdik. İndi elə bil həmin illərə qayıdıb uşaqlığımı yenidən yaşayıram. Allah bizə bu günləri nəsib edən şəhidlərimizə rəhmət eləsin! Allah Prezidentimizi qorusun, ordumuzu hər zaman müzəffər etsin!

**Aydın Abbasov:** – Ailəmi, nəvələrimi də götürüb gəlmişik Xankəndidəki "Qış nağılı" yarmarkasını gəzək, bayram konsertində iştirak edək. Bu gün həm sevinirik, həm də qürur duyuruq. Keçirdiyimiz hissləri sözlə ifadəetmək asan deyil. Bütün xalqımızın gözü aydın olsun!

Zəfər meydanında keçirilən bayram konserti Azərbaycanın Dövlət Himninin səsləndirilməsi və Vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Bir neçə saat davam edən konsertdə ölkənin tanınmış incəsənət xadimlərinin, rəqs kollektivlərinin çıxışları gurultulu alqışlarla qarşılandı.

Qeyd edək ki, bayram sevincinə qərq olmuş Xankəndidə son bir ildə geniş abadlıq və tikinti-quruculuq işləri aparıb. 2024-cü ilin yekunları haqqında Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, 2023-cü ilin sentyabrından başlayaraq adları qeyd edilən ərazilərdə ölkə başçısının müəyyən etdiyi tapşırıqların icrası çərçivəsində iqtisadiyyatın bərpası, məskunlaşma, məşğulluğun təmin edilməsi, zəruri infrastrukturun yaradılması və quruculuq sahəsində əhəmiyyətli işlər görülüb.

İlk növbədə, burada inzibati idarəetmənin təşkili, əhalinin müxtəlif sahələr üzrə ehtiyaclarının ödənilməsi və xidmətlərdən faydalanması məqsədilə bir çox dövlət orqanları və təşkilatlarının regional fəaliyyəti təmin edilib.

Xankəndidə, Ağdərə və Xocalı rayonlarında iqtisadi fəaliyyətin dəstəklənməsi, o cümlədən özəl sahibkarlıq subyektləri tərəfindən investisiyaların cəlb edilməsi sahəsində mühüm nailiyyətlər əldə olunub. Belə ki, hazırda həmin ərazilərdə istehsal, xidmət, ictimai iaşə və kənd təsərrüfatı kimi sahələr üzrə yüzlərlə sahibkarlıq obyekti fəaliyyət göstərməyə başlayıb ki, bu da on milyonlarla manat investisiyanın reallaşdırılması və yüzlərlə insanın işlə təmin olunması deməkdir.

Ərazidə xarici investisiyanın cəlb edilməsi ilə yaradılan və məşğulluğun təmin edilməsində böyük rol oynayan müəssisə kimi Xankəndi tikiş fabrikini qeyd etmək olar. Cari ilin noyabr ayında Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə videobağlantı vasitəsilə açılışı olmuş, Özbəkistanın investisiyası əsasında fəaliyyət göstərən müəssisdə ilkin mərhələdə 400, gələcəkdə isə 800 nəfərin daimi işlə təmin edilməsi planlaşdırılır.

Müəssisədə 300 nəfər işləyir. Fabrik həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərir. Regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək müəssisədə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək.

Bütün işğaldan azad edilmiş ərazilərdə olduğu kimi, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında da həyata keçirilən bərpa-quruculuq layihələri Azərbaycan Prezidentinin birbaşa nəzarəti altında reallaşdırılır və bu işlərlə yerində tanışlıq məqsədilə ölkə başçısı ərazilərə tez-tez səfər edir.

Prezident İlham Əliyevin iştirakı ilə cari ilin 28 may tarixində Xocalı şəhərinə ilk 46 ailənin köçürülməsi əraziyə keçmiş məcburi köçkünlərin Böyük Qayıdışı prosesinə start verib. Belə ki, dekabrın 13-də Xocalı rayonunun Ballıca kəndinə 27, dekabrın 27-də isə daha 21 ailə köçürülüb. Yaxın müddətdə Xankəndidən olan keçmiş məcburi köçkünlərin məskunlaşması prosesi də başlayacaq. Hazırda isə şəhərdə 8 minə yaxın insan məskunlaşıb və bu say gündən-günə artmaqdadır.

Ötən dövr ərzində ölkə rəhbərinin iştirakı ilə mühüm əhəmiyyətli obyektlərin təməlqoyma mərasimləri və açılışları baş tutub.

5 iyul 2024-cü il tarixli səfəri zamanı Prezident İlham Əliyev tərəfindən Xocalı Hava Limanının ərazisinə baxış keçirilib və fəaliyyətinin bərpası ilə bağlı tapşırıqlar verilib. Ərazinin loqistik imkanlarının artırılması baxımından sözügedən hava limanının fəaliyyətinin bərpası mühüm əhəmiyyət kəsb edir.

Bundan başqa, səfər çərçivəsində dövlət başçısı Qarabağ Universitetində görülən işlərlə tanış olub, Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Qarabağ" və "Palace" otellərinin açılışında iştirak edib, yaradılan şəraitlə tanış olub. Qeyd edilən səfər zamanı ölkə rəhbəri, həmçinin Xankəndi Konqres Mərkəzinin təməlini qoyub. Qarabağın özünəməxsus memarlıq üslubunda inşa ediləcək Mərkəz və onunla bir kompleksdə yer alacaq "Xankəndi" hotelinin layihəsi barədə dövlət başçısına məlumat verilib.

20 sentyabr 2024-cü il tarixində Prezidentin Xankəndiyə növbəti səfəri çərçivəsində Qarabağ Universitetinin, yeni istifadəyə verilmiş orta məktəb və uşaq bağçasının açılışı olub. Qeyd edək ki, Qarabağ Universitetində müasir tədris korpusları, eləcə də universitetin tələbə və müəllimləri üçün müasir standartlara uyğun yataqxana və mənzillər təqdim edilib.

Eyni zamanda, Azərbaycan Prezidenti Xankəndi şəhərinin "Zəfər meydanı"nda Konqres Mərkəzinin tikintisi və "Bulud" hotelinin təmir-bərpa işləri ilə də tanış olub. Mərkəzdə ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ən müasir tələblərə uyğun şərait yaradılacaq.

Səfər çərçivəsində dövlət başçısı tərəfindən yerli əhəmiyyətli mədəniyyət abidəsi olan Xankəndi Dövlət Dram Teatrının binasına baxış keçirilib və binanın bərpası ilə bağlı mühüm tapşırıqlar verilib.

Xankəndi şəhərində bərpa-quruculuq işlərinin davam etdirilməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi, abadlaşdırma və əhalinin geri dönüşü istiqamətində yaşayış məntəqələrində aparılan işlərin maliyyələşdirilməsi məqsədilə 2024-cü ildə Azərbaycan Prezidenti tərəfindən bir sıra mühüm sərəncamlar imzalanıb.

Yola saldığımız ildə Xankəndidə əhalinin istirahəti və şəhərin görkəminin yaxşılaşdırılması məqsədilə "Zəfər parkı", "Zəfər muzeyi" və "Mədəniyyət mərkəzi"nin yaradılması istiqamətində işlərə başlanılıb. Eyni zamanda, hazırda dünyada nüfuzlu şirkətlərdən olan "Chapman Taylor" tərəfindən Xankəndi şəhərinin Baş planının hazırlanması davam etdirilir.

Qarşıdan gələn 2025-ci ildə də Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında bir sıra mühüm infrastruktur obyektlərinin istismara verilməsi, yeni xidmət obyektlərinin fəaliyyətə başlaması, yaşayış məntəqələrində bərpa-quruculuq işlərinin aparılması və keçmiş məcburi köçkünlərin geri qayıdışı planlaşdırılır.

*Səhifəni hazırladı:*
***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı–Xankəndi**

# Böyük vətənpərvər

**Azərbaycan xalqının görkəmli dövlət xadimi, səhiyyə və elm təşkilatçısı polkovnik-komissar Əziz Məmmədkərim oğlu Əliyev 1897-ci il yanvarın 1-də Zəngəzurda, Hamamlı kəndində dünyaya gəlib. 1917-ci ildə İrəvan gimnaziyasını qızıl medalla bitirən Əziz Əliyev Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi, maliyyə yardımı ilə həmin il Petroqrada gedib. Hərbi Tibb Akademiyasına daxil olur.**

Birinci kursu bitirəndə –1918-ci ildə erməni daşnaklarının azərbaycanlılara qarşı qətliamları başlanır. On minlərlə azərbaycanlı İrəvandan, Zəngəzurdan, Qərbi Azərbaycandan didərgin düşür. Əziz Əliyev isə üstəlik, Petroqrad Hərbi Tibb Akademiyasından ayrılmaq məcburiyyətində qalır, Şərura, Şahtaxtı kəndinə köçür. Daşnaklar Naxçıvana ayaq açdıqdan sonra qanlı qırğınlar başlanır. Qan-qadadan canını qurtaran ailə bu dəfə Güney Azərbaycana, Ərəblər kəndinə pənah aparır. Naxçıvan Mirzə Nəsrulla bəy Əmirovun qurduğu Müdafiə Komitəsinin igidlərinin, IX İslam Ordusunun komandanı Kazım Qarabəkir paşanın və əsgərlərinin rəşadəti nəticəsində Andranikin, Ozanyanın hücumlarından xilas olduqdan sonra yenə Şahtaxtıya qayıdırlar.

Əziz Əliyev bu illərdə valideynlərini itirir, anası Zəhra xanım o tayda dünyasını dəyişir. Arazın bu tayında da, o tayında da həkim məntəqələrində çalışaraq xəstələrə şəfa verən Əziz Əliyev əhali arasında dərin hörmət qazanır. O, Şahtaxtıda İrəvanın zadəgan soylarından olan Leyli xanımla ailə qurur. İlk övladları – Zərifə və Tamerlan orada dünyaya gəlir. Sonra onun taleyinin Bakı üzü başlayır. Öncə Nəriman Nərimanovun qayğısı ilə Xalq Komissarları Sovetində kargüzarlıq şöbəsində müdir müavini olur, daha sonra müdir kimi fəaliyyətə başlayır. Eyni zamanda, Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə daxil olur.

Gənc yaşlarında namizədlik və doktorluq dissertasiyaları müdafiə edən Əziz Əliyev nəzəri, elmi biliklərə yiyələnməklə yanaşı, praktik məktəb keçərək alim, həm də qurucu – təşkilatçı kimi formalaşmışdı. Tibb İnstitutunu bitirdikdən sonar o, Xalq Səhiyyə Komissarlığı yanında müalicə şöbəsinin müdiri, Xalq Səhiyyə Komissarının birinci müavini, Dövlət Klinik İnstitutunun direktoru, Bakı Şəhər Soveti səhiyyə şöbəsinin müdiri, yenidən Tibb İnstitutunun direktoru, 1937-ci ilin dəhşətli repressiyaları zamanı həm də, Azərbaycan Dövlət Universitetinin rektoru kimi fəaliyyət göstərmişdi. “1930-cu ildə Azərbaycan Dövlət Universitetinin bir fakültəsi kimi sadəcə elan edilmiş Tibb İnstitutunun yaradıcısı Əziz Əliyevdir. Onun rəhbərliyi dövründə ən yaxşı mütəxəssislər cəlb edilərək müvafiq kafedralar yaradılmış, elmi kadrlar yetişdirilmiş, həkimlər ixtisas artırmaq, tədqiqatçılar elmi işlərini davam etdirmək üçün Moskvaya, Leninqrada göndərilmiş, onlarca dərslik və dərs vəsaitləri yazılmış, institutun maddi-texniki bazası formalaşdırılmışdır.

1938-ci ildə Azərbaycan SSR Ali Sovetinin katibi seçilən Əziz Əliyev bir il sonra Azərbaycan SSR Xalq Səhiyyə komissarı təyin edilir, ölkənin bütün bölgələrində səhiyyə ocaqlarının açılması, ixtisaslı kadrlarla təmin edilməsi, maddi-texniki bazasının yaradılması istiqamətində mühüm işlər görür.

İkinci Dünya müharibəsi başlananda



Əziz Əliyev kimi ciddi dövlət xadimlərinə təkcə Azərbaycanda, Bakıda deyil, Mərkəzdə, Moskvada da ehtiyac duyulurdu. Belə bir vaxtda Əziz Əliyev Azərbaycan K(b)P MK-nın katibi seçilir. Əziz Əliyev o dövrdə Azərbaycan sənayesinin kompleks inkişafının təmin olunması, xüsusilə neft məhsullarının cəbhəyə çatdırılması sahəsində mühüm işlər görür, təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Belə bir vaxtda Sovet İttifaqının Yaxın və Orta Şərq, İran istiqamətində də problemləri yaranır. Onun qarşısını almaq üçün Əziz Əliyev ciddi bir rəhbər kadr kimi önə çəkilir. Sovet ordusunun tərkibində “Güney Azərbaycan missiyası”nın rəhbəri kimi İrana təbliğat-təşviqat məqsədi ilə ezam olunan Əziz Əliyev burada ilk ana dilli mətbu orqanı – “Vətən yolunda” qəzetini qurur. Xalq yazıçısı Mirzə İbrahimovun rəhbərliyi ilə işıq üzü görən qəzet ana dili məsələlərini təbliğ edir. Əziz Əliyev bununla kifayətlənmir. Təbrizdə ana dilində ilk məktəb açır, ilk səhiyyə ocaqlarını təşkil edir.

“1941-ci ilin sentyabrından Təbrizdəki 47-ci ordunun Hərbi Şurasının üzvü təyin olunan Əziz Əliyev 6-7 ay ərzində Güney Azərbaycanda inanılmaz dərəcədə böyük işlər gördü. Onun təşəbbüsü və səyləri ilə “Gülüstan” parkında teatr, musiqi dərnəkləri təşkil olunur, 1941-ci ilin noyabr–dekabr aylarında Azərbaycan Dövlət Opera və Balet Teatrının qastrolu təşkil edilir.”

Onun Güney Azərbaycanda gerçəkləşdirdiyi mühüm layihələr, millət quruculuğu istiqamətində gördüyü işlər, Azərbaycanın birliyi, bütövlüyü naminə atdığı addımlar İran şahını və Mikoyan– Beriya cütlüyünü qane etmədiyindən polkovnik-komissar Əziz Əliyev geri çağırılır…

Müharibənin ilk çağlarında alman faşistləri Mozdoka qədər irəliləmiş, Qroznı neftini ələ keçirmişdi. Mahaçqalaya doğru irəliləyən faşist ordusu Dağıstanı işğal etməklə Bakını, Xəzər hövzəsini, Abşeron neftini ələ keçirmək, Güney Azərbaycanda möhkəmlənməklə sovetlərin Yaxın və Orta Şərqə qapısını bağlamaq istəyirdi.

Əziz Əliyev 1942-ci ilin sentyabr ayında Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi seçilir. Elə bir vaxt idi ki, Dağıstan darda, intizarda idi. Çeçənlər, inquşlar, bulqarlar, çərkəzlər, Ahıska türkləri, Krım tatarları kimi, dağlıların da köçü yol üstündəydi. Onlar Şeyx Şamilin varisləri kimi, Şura hökumətinə etimadsızlıqda, sadəcə müsəlman olduqlarına, Osmanlıya isti münasibətlərinə görə ləkələnir, casusluqda ittiham olunurdular. Bu damğaları qəbul etməyən dağlılar isə ölümü sovet ordusundan xidmətdən üstün tuturdular. Əziz Əliyev Dağıstana gəlişi ilə dağlılarda dövlətə inam, Sovet dövlətində isə onlara etimad qazandırdı. Məhz onun çağırışı ilə iki ay içərisində 25 mindən çox dağlı igid səfərbər olub ön cəbhəyə yollandı.

Dağıstan Vilayət Partiya Komitəsinin katibi, 48-ci cəbhənin komandanı Əziz Məmmədkərim oğlu Əliyevin təqdim etdiyi bayrağı Mahaçqaladan Berlinə, Reyxstaqa qədər qürurla aparırdı.



Əziz Əliyev təkcə ön cəbhənin deyil, həm də arxa cəbhənin xilaskarı kimi tarix yaratdı. Müharibə şəraitində Dağıstanı yenidən tikdi, qurdu, 32-dən çox xalqın milli teatrının, məktəbinin, mətbu orqanlarının təməlini qoydu. Qələm sahiblərini, şair, yazıçı və bəstəkarlarını, teatr xadimlərini, istedadlı insanlarını SSRİ-nin ən ucqar nöqtələrində tanıtdı. Ayrı-ayrı institutların, Dağıstan Elmi Mərkəzinin qurucusu oldu. Səhiyyə ocaqlarını, tibb məntəqələrini qurmaqla onların sağlamlıq problemlərini həll etdi. Milli kadr potensialını formalaşdırmaqla onun mərkəzdən asılılığının qarşısını aldı. Qadınların təhsilə cəlb olunması məsələsini dövlət siyasəti səviyyəsinə qaldırmaqla, “Savadlı qadın, savadlı millət və gələcək!” konsepsiyasına böyük töhfələr verdi. Samur–Dəvəçi kanalını qurmaqla dağlar diyarına can gətirdi. Bu səbəbdən də istər Dağıstanda, istər də mərkəzdə, Moskvada “Qurucu Əziz” titulu ilə adını 1941–1945-ci illər müharibəsi zamanı tarixə yazdı.

Düz altı il, 1942-ci ildən 1948-ci ilə qədər Dağıstanın siyasi taleyini həll edən, kompleks inkişafına nail olub gələcəyini müəyyənləşdirən lider kimi hər bir dağlının qəlbində abidəsini ucaltdı. Bu səbəbdən də adı çəkiləndə tarixi bir kəlam səslənir: “Dağıstanın və dağlıların ağır illərində Əziz Məmmədkərim oğlu Əliyev bir çıraq kimi yandı, hər yana nur çilədi!”

O dövrdə Qərbi Azərbaycanın böyük bir hissəsinin – Qərbi Zəngəzurun boşaldılması məsələsini qaldıran erməni daşnakları bu torpaqların tarixi sakinlərinin köçürülməsi planını irəli sürmüşdü. Bu, Zəngəzurda doğulan Əziz Əliyevi qəzəbləndirmiş, onun etirazına səbəb olmuşdu. Öncə xarici işlər nazirinin müavini Malenkovla, sonra nazir Molotovla, daha sonra isə Stalinlə danışıqlara gedən Əziz Əliyevin bütün xidmətləri unudulmuş, o, arzuolunmaz kadra çevrilmişdi. Onun üzərindən isə bir anın içərisində xətt çəkmək mümkün deyildi. Hər halda o, sovetlərin yetişdirdiyi ciddi dövlət xadimi və müharibənin taleyini həll edən tarixi simalardan biri idi.

“Elə buna görə də 1948-ci ildə Əziz Əliyev Moskvaya çağırılır, bir il İctimai Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən Ali partiya kurslarında təhsil alır və Sov.İKP MK-da inspektor vəzifəsində çalışır. 1950-ci ildə Mircəfər Bağırovun istəyi ilə Əziz Əliyev Azərbaycana göndərilir və Nazirlər Soveti Sədrinin müavini təyin olunur. Bu təyinat, əslində, Əziz Məmmədkərimoğlunu “vurmaq” üçün şərait yaratmağa, zəmin hazırlamağa xidmət edirdi və əvvəlcədən düşünülmüşdü”.

Ulu öndər Heydər Əliyev həmin dövrü xatırlayaraq Əziz Əliyevin yubiley mərasimində qeyd etmişdi: “Əziz Əliyev mənə danışırdı ki, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına baş həkim müavini göndərdilər və o, üç il orada işlədi. Bu, onun o vaxtkı rejimin, bilavasitə Mircəfər Bağırov tərəfindən həyata keçirilən repressiyalara məruz qaldığı dövr idi”.

Əziz Əliyev qüdrətli dövlət və elm xadimi, səhiyyə təşkilatçısı, ən əsas dar məqamlarda, çətin zamanlarda iradənin gücü, xarakterin əyilməzliyi ilə tarix yaradan qüdrətli şəxsiyyət idi. 44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, tarixi Zəfərə, Böyük Qələbəyə məhz qüdrətli genetik kodlara malik lider imza ata bilər! Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin damarlarında iki müqəddəs genetik kodun daşıyıcısının, tarixi şəxsiyyətin, bütün həyatını Azərbaycanın inkişafına, tərəqqisinə həsr edən müdrik dövlət xadiminin – ümummilli lider Heydər Əlirza oğlu Əliyevin, odlar yurdu Azərbaycanın və dağlar diyarı Dağıstanın xilaskarı Əziz Məmmədkərim oğlu Əliyevin qanı axır.

Bu il dövlət müstəqilliyimizin 33-cü ili tamam oldu. Tarix üçün qısa, milli dövlətçilik tariximiz üçün isə keşməkeşli olan bu illərdə biz ulu öndər Heydər Əliyevin, Prezident cənab İlham Əliyevin iradəsi, xilaskarlıq missiyası ilə Qayıdış və Qurtuluş dastanlarını yazdıq. Bu dastanların təntənəsini Şuşa qalasında, Xankəndidə dalğalanan Azərbaycan Bayrağının əzəmətində yaşadıq. Qurucu Əzizin nəvəsinin Qarabağda, Şərqi Zəngəzurda gerçəkləşdirdiyi layihələri, möhtəşəm işləri gördükcə isə, qəlbimiz qürurla döyündü.

Akademik Mustafa bəy Topçubaşovun dili ilə desək “Əziz Əliyevin – bu “qeyri-adi insan”ın ömründən keçən illər bizim tariximizdir. Onu oxumaq, öyrənmək, tədqiq və təbliğ etmək isə tariximiz və parlaq tarixi şəxsiyyətimiz qarşısında vicdan və vəfa borcumuzdur.

*Şərəf CƏLİLLİ*

# 2024 – diplomatik uğurlar və siyasi sabitlik ili

**(əvvəli 1-ci səhifədə)**

### Tərəfdaşlarımızın sayı artmaqdadır

Azərbaycanın cari ildə xarici siyasət sahəsində əldə etdiyi uğurlardan danışan politoloq belə bir qeyri-müəyyən qlobal dövrdə strateji partnyorlarımızın və müttəfiqlərimizin sayını artırmasını mühüm irəliləyiş kimi qeyd etdi: “Azərbaycan 2024-cü ildə Avropada və Asiyada beş dövlətlə strateji tərəfdaşlıq haqqında memorandum imzaladı. Bundan əlavə, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında müttəfiqlik haqqında Bəyannamənin imzalanması olduğuca vacib bir sənəd idi. Birləşmiş Ərəb Əmirlikləri ilə Memorandumun, eləcə də Slovakiya ilə qarşılıqlı əməkdaşlığa dair birgə Bəyannamənin imzalanmasını xüsusi qeyd etmək lazımdır. Bolqarıstanla strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Memorandum, Tacikistanla strateji tərəfdaşlığa dair Bəyannamənin və Özbəkistanla müttəfiqlik haqqında Müqavilənin imzalanması da bu qəbildəndir. Bütün bu sənədlər Azərbaycanın cari ildə müttəfiqlərinin sayının artırması baxımından önəmlidir”.

C.Vəliyev açıqlamasında Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu fəaliyyətinə də aydınlıq gətirdi: “2024-cü il Azərbaycan rəsmilərinin türk dövlətlərinə səfərlərinin çoxluğu ilə də yadda qalacaq. Bu sırada Mərkəzi Asiya dövlətləri ilə yanaşı, qardaş Türkiyə ilə təmasların artdığını qeyd etməliyik. Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzi Asiya ölkələri liderlərinin Astanada keçirilən VI məşvərət görüşündə iştirak etdi. Həmin görüşdəki çıxışında Prezident İlham Əliyev açıq şəkildə elan etdi ki, Azərbaycan Mərkəzi Asiya ilə vahid bir platforma yaratmaq barədə düşünür. Bu, olduqca vacib məsələdir. Çünki türkdilli ölkələri birləşdirən, sadəcə, eyni soykökə, ortaq mədəniyyətə, dilə malik olmağımız deyil, eyni zamanda, enerji və nəqliyyat layihələri, regiona təhdidlərə qarşı birlikdə çıxış etmək kimi ortaq maraqlarımızdır. Qlobal qeyri-müəyyənlik dövründə Azərbaycanın sərgilədiyi ən uğurlu siyasi mövqe müharibə edən tərəflərlə münasibətləri qoruyub saxlaması oldu. Həm beynəlxalq hüquq, həm xarici siyasətimiz baxımından Bakı özünün prinsipial mövqeyini də qorumağı bacardı. Bu çərçivədə tərəfdaşlarımızla münasibətlərimizi qorumağı da, beynəlxalq hüquqdan irəli gələn öhdəliklərimizə əməl etməyi də reallaşdırdıq. Azərbaycan bu müstəvidə özünün siyasi iradəsini bu gün də davam etdirməkdədir”.

### TDT və D8

Siyasi ekspert diqqəti 2024-cü ildə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da gücləndirməsi məsələsinə yönəltdi: “Bakıda beynəlxalq əhəmiyyətli bir sıra tədbirlər keçirildi. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi zirvə görüşünün Şuşada keçirilməsi və yekunda Qarabağ Bəyannaməsinin qəbul edilməsi çox vacib idi.

Bildiyiniz kimi, İlham Əliyev prezident seçkilərindən sonra Türk Dövlətləri Təşkilatının Azərbaycan üçün prioritet olduğunu elan etdi. “Bizim ailəmiz Türk dünyasıdır” tezisi konkret addımlarla təsdiqlənmiş oldu. Prezidentin TDT zirvəzinin ildə bir dəfə deyil, iki dəfə keçirilməsinin tərəfdarı olduğunu bildirməsi, Azərbaycanın qurumun katibliyinə ayırdığı yarım milyon dolları iki milyona qədər artırması təşkilatın güclənməsinə xidmət edirdi. Digər tərəfdən bu il, eyni zamanda, NATO-nun “Sülh Naminə Tərəfdaşlıq” proqramı çərçivəsində Azərbaycanın bu alyansla əməkdaşlığının 30 illiyinə təsadüf etdi. Bu zaman Azərbaycanın yeni bir beynəlxalq platformaya – Asiyada qarşılıqlı fəaliyyət və etimad tədbirləri üzrə müşavirə kimi nüfuzlu təşkilata 2026-cı ilə qədər sədr seçilməsi önəmli hadisə sayılmalıdır. Bu qərar dekabrın 17-də quruma üzv ölkələrin Nazirlər Şurasının Almatı toplantısında qəbul edildi.

Azərbaycanın İslam ölkələrini birləşdirən İqtisadi Əməkdaşlıq Təşkilatının D8 qurumuna üzvlüyə qəbul edilməsi də əlamətdar hadisədir. Dekabrın 19-da təşkilatın Misirin paytaxtı Qahirədə keçirilən XI Sammitində Azərbaycan yekdilliklə D8-ə üzv seçildi. Bu təşkilatın əsası 1996-cı ildə qoyulub və onun üzvlərinin sayı ilk dəfə, həm də Azərbaycanın timsalında yalnız indi artırıldı. Azərbaycan Prezidentinin Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən zirvə toplantısında iştirakı və orada ÇXR ilə imzaladığı strateji tərəfdaşlıq haqqında Bəyannamə ilin ən böyük diplomatik uğurlarından hesab edilməlidir”.

### İlin siyasi möhürü – COP29

“Əlbəttə ki, ilin ölkəmizin siyasi uğurlarının siyahısına düşən ən böyük hadisəsi kimi BMT-nin iqlim dəyişmələri üzrə konfransına – COP29-a ev sahibliyi etməsi oldu”. C.Vəliyev bu hadisəyə dünyanın üzləşdiyi qlobal problemlərin həllində Azərbaycanın oynadığı aktiv rolu nöqteyi-nəzərindən baxmalı və qiymətləndirməli olduğumuzu xüsusi vurğuladı: “BMT-nin Bakı İqlim Sammiti olduqca uğurlu keçdi və burada çox önəmli qərarlar qəbul edildi. Azərbaycanın sədrlik etdiyi bu konfransın qarşısında iki əsas məqsəd dururdu. Birincisi, iqlim maliyyəsi üzrə kollektiv hədəfin müəyyənləşdirilməsi, ikincisi isə Paris sazişi üzrə karbon bazarlarının 6-cı maddəsinin tam işlək vəziyyətə gətirilməsi idi. Bu məsələdə 2035-ci ilədək bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən iqlim maliyyəsinin illik 1,3 trilyon ABŞ dollarına qədər artırılması qərarlaşdırıldı. Bakı Sammitində ilk dəfə olaraq, büdcə iqlim dəyişikliyinin yaratdığı təhlükələrlə mübarizə çərçivəsində 300 milyon ABŞ dollarına yüksəldildi. Yəni, BMT-nin bu qlobal iqlim konfransı Azərbaycan üçün uğurlu sayılmalıdır. Noyabrın 12–13-də COP29 çərçivəsində Dünya liderlərinin zirvə görüşündə dünyanın səksənə yaxın dövlət və hökumət başçısı iştirak edirdi. Bu faktın özü bəzi dövlətlərin Azərbaycana qarşı apardıqları anti-təbliğat, dezinformasiya fonunda yüksək təmsilçiliyi demək idi. Milli maraqlarımızın qorunması, müstəqil xarici siyasətimiz baxımından bu beynəlxalq tədbirdə çox vacib addımlar atmış olduq. Həm də buna görə COP29-u Azərbaycan üçün ilin siyasi möhürü hesab etmək olar”.

### Prezidentin qətiyyəti

“Azərbaycan Hava Yolları”nın təyyarəsinin xarici müdaxilənin nəticəsində Aktauda qəzaya uğramasını ilin təəssüf doğuran, bəlkə də, yeganə yekunu olduğunu bildirən BMTM-nin şöbə müdiri hadisənin Rusiyanın Çeçenistan subyektinin ərazisində baş verməsini ayrıca vurğuladı: “Baş vermiş hadisəi ilə bağlı Prezident İlham Əliyev qəti siyasi iradə ortaya qoyaraq MDB dövlət başçılarının Sankt-Peterburqda keçiriləcək toplantısına gedərkən yarı yoldan qayıtdı və ekstern müşavirə keçirdi. Cənab Prezident vətəndaşlarımızın həlak olması ilə nəticələnən təyyarə qəzasının hərtərəfli araşdırılacağını birmənalı olaraq bəyan etdi. Bəli, qəza ilə bağlı Rusiya tərəfindən bəzi gözləntilər var idi. Nəhayət, Azərbaycan Prezidentinin siyasi qətiyyətinin və xalqın tələbinin nəticəsi olaraq Rusiyanın dövlət başçısı cənab Prezidentə zəng vuraraq üzrxahlığını bildirdi. Yəqin araşdırma sona çatandan sonra günahkarların cəzalandırılması, bu çərçivədə digər məsələlər də gündəmə gətiriləcək”.

Sonda Ermənistan – Azərbaycan münasibətlərinə də toxunan C.Vəliyev 2024-cü ildə bu prosesin müsbət aspektdə davam etməsini qeyd etdi: “Sülh sazişinin 17 bəndindən 15-i üzrə razılıq əldə edilib. Cənab Prezident həmin iki bənddə nələrin nəzərdə tutulduğunu bəyan etdi. Ümumilikdə, Bakının İrəvandan dörd fərqli gözləntisi var. Bunların ikisi sülh sazişi ilə, digər ikisi isə Ermənistanın konstitusiyasında məlum dəyişikliyin edilməsi tələbi və ATƏT-in Minsk qrupunun ləğvi ilə əlaqədardır. Sərhədlərin delimitasiyası istiqamətində addımın atılması, Qazaxın dörd kəndinin Azərbaycana qaytarılması ilin yaddaqalan diplomatik uğurlarındandır. Keçmiş köçkünlərin doğma yurdlarına qayıdışının sürətlənməsini də ayrıca qeyd etmək istərdik. Hesab edirik ki, qarşıdan gələn 2025-ci ildə həm bölgədə, həm də beynəlxalq müstəvidə əldə edəcəyimiz yeni siyasi uğurlarımızın, daha geniş üfüqlərə boylanacağımızın təməli artıq qoyulmuşdur”

**İmran BƏDİRXANLI**
**XQ**

Oqtay Bayramov–80

# Peşəkar qələm sahibi

**O, mətbuatda düz 50 il idman jurnalisti kimi çalışıb. Ölkə və dünya səviyyəli yarışlarda idmançılarımızın parlaq və heyrətamiz qələbələrindən şövqlə yazıb. Həm də azarkeşlik edib, idmanımızın və idmançılarımızın təəssübünü çəkib. Problemlərdən söz açanda da səmimi olub. İdman jurnalistikamızın inkişafında onun danılmaz xidmətləri var. Söhbət Azərbaycan Respublikasının Əməkdar jurnalisti Oqtay Bayramovdan gedir.**



Həyatda isə o, çox sadə və iddiasız insandır. Özü, yarım əsrdən çox bir zaman müddətində gördüyü işlər barədə danışmağı ağlına belə gətirmir. Jurnalistikaya gəlişinin isə maraqlı tarixçəsi var. 1968-ci ildə Azərbaycan Dövlət Pedaqoji Dillər İnstitutunun ispan dili fakültəsini bitirmişdi. Bir il əvvəl isə Kubada 1 illik stajirovka keçmişdi. O illərdə ispan dili ixtisası üzrə bitirən məzunlara təyinat vermirdilər. Görünür, tale ona arzusunda olduğu idman jurnalistikası sahəsində parlamaq üçün şans saxlamışdı.

Oqtay müəllim xatırlayır ki, ali məktəbi yenicə bitirdiyi günlərin birində tələbə yoldaşı Fərhad Əliyevlə birlikdə o illərdə gəzə-gəzə şəhərin mərkəzində yerləşən, Azərbaycan və rus dillərində nəşr olunan "İdman" ("Sport") qəzetlərinin redaksiyasına gəliblər. Fərhad ona burada işə düzəlmək üçün bəxtini sınamağı məsləhət görüb. Dostunun israrlı təklifi onu cəsarətləndirib. Baş redaktor Mirpaşa Miriyev isə qısa yoxlamadan sonra Oqtaya deyib ki, ayın əvvəlində gəl, səni işə götürürəm.

Beləliklə, o, şansını qaçırmayıb, sonrakı 27 il ərzində bu populyar qəzetdə əvvəlcə tərcüməçi, qısa müddət sonra ədəbi redaktor, şöbə müdiri, baş redaktorun müavini vəzifələrində çalışıb. 1980-ci ildən baş redaktorun I müavini vəzifəsinə irəli çəkilib. Sonra isə 1995-ci ildən 2018-ci ilədək "Xalq qəzeti"ndə idman şöbəsinə rəhbərlik edib. Hər iki kollektivdə istedadı və davranışı ilə dərin hörmət qazanıb.

1970-ci illərdə "İdman ("Sport") qəzetləri həftədə 3 dəfə nəşr olunurdu. Qəzetin Azərbaycan dilində tirajı 120–130 minə çatırdı. "Çovkan" və "Şahmat" əlavələri də çıxırdı. "İdman" qəzeti, təbii ki, daha çox populyar idi. Kiosklara daxil olması ilə satılıb qurtarırdı. Qəzetə daimi abunə olmaq üçün redaksiyaya gələrək minnətçi düşənlər də az olmurdu. Etiraf edək ki, bu gün çap mətbuatının çətin günlər yaşadığı dönəmdə, həmin dövr indi çoxlarımıza nağıl kimi gəlir.

Nə isə, qayıdaq bir qədər əvvələ. İdman mövzusunda jurnalistlər o dönəmdə, az qala, tanınmış futbolçular qədər populyar idilər. Gənc Oqtayın qəzetin səhifələrində maraqlı, oxunaqlı yazıları dərc olunurdu. İmzası tanınırdı, sevilirdi. Qələmə aldığı mövzuları dərin öyrənirdi. Redaksiyanın "əsas yükü"nü öz çiyinlərinə götürən əməkdaşlardan sayılırdı. O, heç vaxt nə həyatda, nə də yaradıcılığında "xaltura" etməyib. Xarakteri belədir!

Bəzən gənc jurnalistlərə idmandan yazmaq asan gəlir. Tam məsuliyyətlə deyə bilərik ki, bu, əslində, heç də belə deyil. Belə ki, idman jurnalistikası idmanın özü qədər geniş və çoxşaxəli sahədir. Əlbəttə, futbol mövzusu bir idman jurnalisti olaraq Oqtay müəllimə də "bir köynək" yaxındır. O, xasiyyətcə az danışan, təmkinli, necə deyərlər, abırlı adamdır. Amma, elə ki, "Neftçi"nin 1966-cı ildə bürünc medal almasından, əfsanəvi hücumçu Banişevskidən, eləcə də Tuayev, Hacıyev və başqalarından söz düşür, bir qayda olaraq dərhal simasında xoş bir təbəssüm yaranır. Belə anlarda onu dinləmək çox xoş olur.

Yeri gəlmişkən, ispan dili üzrə ali təhsil alması və dili əla bilməsi dəfələrlə karına gəlib. Fikrimizcə, burada 2 faktı qeyd etsək, kifayət edər. Birinci olay. 1986-ci ildə gənclər arasında futbol üzrə dünya çempionatı SSRİ-nin 4 böyük şəhərində – Moskva, Kiyev, Minsk və Bakıda keçirilirdi. Azərbaycan paytaxtına 4 komanda gəlmişdi. Onların arasında Meksika və Paraqvayın gənc futbolçulardan ibarət milli yığmaları da vardı.



Ötən əsrin 70-ci illərində "İdman" qəzetində. Oqtay Bayramov (soldan birinci) və həmkarları Faiq Əliyev, Paşa Əmirov, Elman Cəfərli.

İndiki Tofiq Bəhramov adına stadionda oyunların başlaması ilə əlaqədar mətbuat konfransı təşkil olunmuşdu. Qrupun digər qonaqları kimi, Meksika və Paraqvay yığma komandalarının məşqçiləri də jurnalistlər qarşısında çıxış etməli idilər. Kimsə deyib ki, ispan dilindən tərcüməçi yoxdur. Mətbuat konfransının aparıcısı, tanınmış idman jurnalisti Aqşin Kazımzadə dərhal söyləyib ki, "narahat olmayın, Oqtay Bayramov buradadır". O hadisənin canlı şahidi olan bir həmkarımız nəql edir ki, Oqtay müəllim mətbuat konfransında qonaqların fikirlərini çox məharətlə tərcümə edib. Bu, məşqçilərin "tərcüməçi"yə xüsusi bir ehtiramla baş əymələrindən hiss olunub.

İkinci olay. Oqtay Bayramov 1986-cı ildə SSRİ idman jurnalistlərinin tərkibində Meksikada futbol üzrə keçirilən dünya çempionatını işıqlandırmaq üçün ora yola düşmüşdü. Oqtay müəllim 3 həftə ərzində oradan bir-birindən maraqlı reportajlar hazırlayaraq göndərmişdi. Bakıya qayıdandan sonra isə planetin futbol həyəcanı barədə təəssüratlarını silsilə yazılarla oxuculara təqdim etmişdi.

Lakin belə bir məqamı isə çox az adam bilir ki, bakılı müxbir Meksikaya gələn sovet jurnalistlərinin çoxu üçün həm də "könüllü tərcüməçi" olmuş, təmənnasız köməyə görə orada həmkarlarından, azı, yüz kərə ürəkdolusu təşəkkür eşitmişdi. Axı, o illərdə xarici dilləri yaxşı bilən mütəxəssislər az idi. Oqtay Bayramov isə heç vaxt etdiyi yaxşılıqlar üçün heç kəsə minnət qoymayıb. Belə hallarda ömrü boyu lütfkarcasına deyibdir: "Burada nə var ki, borcumdur."

O, öz peşəsinə, idman şöbəsinin müdiri kimi vəzifə və öhdəliklərinə qarşı çox məsuliyyətlidir. Ondan heç vaxt və heç kim heç nə tələb etməyib. Hamı bilir ki, o, öz boynuna düşən hər bir şeyi vaxtında və ən yüksək səviyyədə yerinə yetirəcək. O, cərrah olsaydı, şəxsən biz böyük məmnuniyyətlə onun pasiyentləri olmaqdan çəkinməzdik.

Həm də tələbkardır. Redaksiyada hamı bilir ki, gecə növbətçiliyi, adətən, obyektiv səbəblərdən gərgin keçir. Bəzən növbətçi redaktorlar, səhifə növbətçiləri, korrektorlar sübhə qədər işləməli olurlar. Oqtay müəllim belə hallarda nə özünə, nə də başqalarına "rəhm" etməyib. Qəzetin hər bir yeni nömrəsinin xəta və səhvsiz çıxması üçün çalışıb. Onun növbətçi olduğu nömrələrdə kobud səhvlərə, demək olar ki, heç vaxt rast gəlinməyib.

Oqtay Bayramov "Xalq qəzeti"ndə çalışdığı illərdə müstəqil Azərbaycan dövlətinin idman siyasətinin məğzini, mahiyyətini şərh edən çox sayda publisistik məqalələr hazırlayaraq dərc etdirmişdir. 2018-ci ildə işıq üzü görən "Heydər Əliyev və Azərbaycan şahmatının zəfər salnaməsi" kitabının müəllifidir. Məşhur güləş mütəxəssisi, Azərbaycan və SSRİ-nin Əməkdar məşqçisi Ehsan Kərimova həsr olunan "İdmanda yaşanan şərəfli ömür" adlı nəşrin mətni də onun qələminin məhsuludur. Bundan başqa, məşhur futbol hakimi Eldar Əzimzadənin "Məhəbbətim mənim – futbol" (1998) kitabının redaktorudur. Təsadüfi deyil ki, Azərbaycan Ensiklopediyasının yeni nəşri hazırlanarkən idman bölməsinin materiallarının hazırlanmasını məhz Oqtay müəllimə etibar etdilər. O, 2018-ci ildən Əməkdar jurnalist, eyni zamanda, Azərbaycan Respublikası Fəxri Bədən Tərbiyəçisi və İdman işçisidir.

Xoşbəxtlikdən, təcrübəli jurnalist Oqtay Bayramov bu gün də XQ ilə yaradıcılıq əlaqələrini davam etdirir. Təkcə son 2 il 3 ayda onun doğma qəzetin səhifələrində 125 yeni yazısı dərc olunub. Qeyd etmək lazımdır ki, bunlar adi, sıradan bir yazılar deyil. Hər biri oxucu diqqəti cəlb edən dərin məzmunlu məqalə və reportajlardır. Təbii ki, Oqtay müəllimin imzası olan yerdə söhbət ancaq yüksək peşəkarlıqdan gedə bilər.

2025-ci il yanvarın 1-də Oqtay Bayramovun 80 yaşı tamam olacaq. Bəli, o, Azərbaycanın idman jurnalistləri cameəsində parlaq imzası ilə tanınmış sevilən, seçilən insanlardandır. Sadəliyi, insanpərvərliyi, peşəkarlığı hər kəsə bəllidir. Halal və dürüst adamdır. Belə şəxsiyyətlər, istedadlı qələm sahibləri, bütövlükdə jurnalistikamızın iftixarı, sərvəti hesab olunur. Oqtay müəllim, təbii ki, ailəsi, doğmaları tərəfindən çox sevilən, qarşılıqlı inam, hörmət, diqqət və qayğı ilə əhatə olunan xoşbəxt insandır. Onun buna tam mənəvi haqqı çatır. Ona görə ki, o, bütün insani münasibətlərdə çox etibarlı və dəyanətlidir. Etiraf edək ki, belə şəxslərin cəmiyyətdə dəyəri ən yüksək əyarlarla ölçülür.

Sonda yubilyara dərin rəğbət və ehtiramımızı bildirməyi özümüzə borc və şərəf bilirik. Bu, əlbəttə, həm də böyük bir kollektivin səmimi ürək sözləridir: Çox hörmətli Oqtay müəllim! Qocaman XQ-nin redaksiyası bundan sonra da sizə əziz və doğma ünvan olaraq qalacaq. Buraya hər gəlişiniz, hətta adi telefon zənginiz bizi sonsuz dərəcədə sevindirəcək. Doğum gününüz və Yeni iliniz mübarək olsun!

***Qabil YUSİFOĞLU,***
***Məsaim ABDULLAYEV***
***XQ***

# Oskanyan köhnə əyyamda ilişib qalıb

*Hələb ermənisi hələ də başa düşmür ki, onun qatarı çoxdan gedib*

**Azərbaycan torpaqlarında erməni separatizminin baş qaldırmasının qızğın təşəbbüskarı, ölkəmizə qarşı aparılan hərbi əməliyyatların, o cümlədən Xocalı soyqırımının bilavasitə iştirakçısı, sonralar Ermənistan prezidenti Levon Ter-Petrosyanı istefaya məcbur edərək onun kürsüsünə yiyələnən Robert Koçaryanın hakimiyyəti illərində (1998-2008) xarici işlər naziri olan Vardan Oskanyan öz ampluasındadır. O, vaxtaşırı ölkənin indiki hakimiyyətini müxtəlif məsələlərlə bağlı kəskin tənqid edir. Xüsusilə, Nikol Paşinyan iqtidarının xarici siyasət kursunu hədəfə alır. Eyni zamanda, Qarabağı öz xoşları ilə tərk etmiş ermənilərlə bağlı xüsusi canfəşanlıq edir. Vardan hazırda "Qarabağ xalqının kollektiv repatriasiyası (geri qayıdışı) və digər əsas hüquqları komitəsi"nə rəhbərlik edir. Yeri gəlmişkən qeyd edək ki, komitədə Oskanyanla yanaşı, Qarabağın "ombudsmanı" Qeqam Stepanyan, "Hay dat"ın Avropa bürosunun rəhbəri Qaspar Karapetyan, "Hayatsk" analitik mərkəzinin rəhbəri Karen Bekaryan, "Hay dat" mərkəzi bürosundan Mario Nalbadyan (Argentina), hüquqşünas və beynəlxalq əlaqələr üzrə mütəxəssis Qarnik Krkonyan (ABŞ) kimi separatçı, dağıdıcı ünsürlər təmsil olunurlar.**



V.Oskanyan 2024-cü ilin yazında erməni apostol kilsəsinin Tavuş vilayəti üzrə yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın qondarma hərəkat yaradıb Azərbaycanla sərhədyanı Kirants kəndindən İrəvan səfər etməsi və paytaxta yetişib burada mitinqlər keçirməsi zamanı vəcdə gəlmişdi. O, mitinqçilərə açıq dəstək vermiş, özü küçələrə çıxaraq onların sıralarına qoşulmuşdu.

"Facebook" sosial şəbəkəsində yerləşdirdiyi videomaterialda bildirmişdi ki, N.Paşinyanın istefasını tələb edən hərəkatın baş nazirliyə namizədi B.Qalstanyan olmalıdır: "Düşünürəm ki, Qalstanyan düzgün yoldadır. O, bəyan etdi ki, Paşinyana etimadsızlıq göstərilməsi prosesinə başlanması üçün parlamentdəki siyasi qüvvələrlə məsləhətləşmələr keçirəcək. Əlbəttə, konstitusiya, bu siyasi qüvvələrin də baş nazirliyə öz namizədlərini təqdim etmələrinə imkan verir. Hazırkı vəziyyətdə, hökumət başçısı postuna arxiyepiskop Baqrat Qalstanyan özü namizəd olmalıdır".

Oskanyan demişdi ki, detallar barədə məlumatlı deyil. Lakin düşünür ki, belə də olacaq. Çünki Baqratın başçılıq edəcəyi hökumət müvəqqəti, ola bilsin ki, bir il müddətinə mövcud olacaq. Sonra isə parlament seçkiləri keçiriləcək və onun nəticəsinə əsasən, ölkənin yeni baş naziri məlum olacaq: "Bu müddət ərzində bir sıra problemlər həll ediləcək, erməni xalqı belini dikəldəcək. Bundan sonra ədalətli seçkilər keçirmək olar. Bu keçid dövrü üçün ən uyğun namizəd bütün bu prosesi başladan, öz sədaqətini əməldə nümayiş etdirən və hədəflərinə nail olmaqda tam qətiyyətli şəxs olmalıdır".

Ancaq, məlum olduğu kimi, Baqratın bütün cəhdləri nəticəsiz qaldı və erməni xalqı yenidən müharibəyə çağırış edən radikal revanşist qüvvələrə öz yerini göstərdi. Oskanyan həmin qüvvələrin tipik nümayəndəsidir. Onun Ermənistan xarici siyasət idarəsinə rəhbərlik etdiyi dövr bizim yaxşı yadımızdadır. Həmin illərdə Azərbaycan işğal altındakı torpaqlarının danışıqlar yolu ilə azad olunacağına ümidini hələ tam itirməmişdi. Vardanyan xarici işlər naziri kimi danışıqlar prosesinin birbaşa iştirakçısı idi.

Müxtəlif ölkələrin paytaxtlarında azərbaycanlı həmkarı ilə keçirdiyi görüşlərdən sonra mətbuata verdiyi açıqlamalarda onun təkəbbürlü davranışı diqqəti dərhal cəlb edirdi. O illərdə Oskanyan özünü müharibədə qalib gəlmiş dövlətin naziri kimi aparır, lovğalığından yerə-göyə sığışmırdı. Onlar həmsədr dövlətlərlə birləşib xarici havadarlarına güvənərək, Azərbaycanı yaranmış vəziyyətlə barışmağa məcbur etmək istəyirdilər. Düşünürdülər ki, Bakı gec-tez mövcud status-kvonu qəbul edəcək. Ancaq rəsmi Bakı danışıqlar aparmaqla yanaşı, ordu quruculuğuna da xüsusi diqqət yetirirdi. 2016-cı ilin Aprel döyüşləri Azərbaycanın gücünün ilk göstəricisi oldu. Azərbaycan Ordusu düşmənin uzun illər ərzində qurub möhkəmləndirdiyi müdafiə xəttini yarıb keçdi. Nəticədə, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, o vaxtlar Madagiz adlanan Suqovuşan kəndi istiqamətində bəzi mövqelər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı və Goranboy rayonunun Gülüstan kəndi istiqamətində yollar düşməndən təmizləndi. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi. Bu zaman əl-ayağa düşən haylar Rusiya Müdafiə Nazirliyinə yalvararaq atəşkəs əldə edilməsinə nail oldular.

Düzdür, həmin vaxt Oskanyan daha XİN başçısı deyildi. Həmin dövrdə prezident postuna Qarabağ klanının digər nümayəndəsi Serj Sarkisyan yiyələnmiş, xarici siyasət idarəsinə isə Oskanyandan daha təkəbbürlü birisi – Edvard Nalbandyan başçılıq edirdi. Onlar eyni qruplaşmanı təmsil edirdilər və İkinci Qarabağ müharibəsi başlananda onların siyasi səhnədən silinib atılmalarından cəmi 2 il keçmişdi. Bu mənada Prezident İlham Əliyevin də çıxışlarında bildirdiyi kimi, biz 44 günlük müharibə zamanı Koçaryanın, Sarkisyanın qurub yaratdığı ordunu darmadağın etmişik. Eyni zamanda, Azərbaycan siyasi-diplomatik müstəvidə də Oskanyanın, Nalbandyanın vaxtilə rəhbərlik etdiyi qurumları mat vəziyyətinə salıb.

Gələn ay 70 yaşını qeyd edəcək bu Hələb ermənisi yaşının ötməsinə, xəstə halına baxmayaraq, sanki hələ də siyasi dövriyyədə olduğunu sübut etməyə çalışır. Deyib ki, N.Paşinyan tükənib, xalq məğlubiyyətlərdən, itkilərdən, sui-istifadələrdən, hakimiyyətdəkilərin həyasızlığından, onların manipulyasiyalarından bezib. Bu səbəbdən ölkənin baş naziri istefa verməlidir: "Paşinyanın istefa vermək barədə düşünməsinin vaxtıdır. Bu, indiki vəziyyətdən çıxa bilməsi üçün erməni xalqına ən yaxşı Yeni il hədiyyəsi olardı".

Vardan daha sonra separatçı xunta rejiminin Bakıda saxlanılan keçmiş başçıları barədə danışıb. "Məhbus" adlandırdığı şəxslərin uzun müddətdir "qeyri-qanuni" saxlanıldıqlarını iddia edib və deyib ki, iki ildir sülh müqaviləsi ilə bağlı danışıqlar davam edir: "Mən şübhə etmirəm ki, bütün oğlanlarımız (?) tezliklə qayıdacaqlar və bəlkə də Paşinyan, nəhayət, Azərbaycanla hansısa kağızı imzalayacaq. Bəlkə Türkiyə ilə sərhəd açılacaq, amma bu, bizə təsəlli verməyəcək. Çünki bu, Paşinyanın səhvlərinə görə, "Artsax"ı itirmək bahasına olacaq".

Oskanyan son günlərdə Ermənistan cəmiyyətində əsas müzakirə olunan məsələyə də toxunub. Deyib ki, N.Paşinyanla debatı baş tutsaydı, ATƏT-in keçmiş Minsk qrupu həmsədrlərinin 2007-ci ildə təqdim etdiyi Madrid prinsipləri ilə bağlı sənədi özü ilə gətirərdi. Vardan bu sənədi 1994-cü ildən davam edən danışıqların "kulminasiya sənədi" adlandırıb: "Əgər Paşinyan deyirsə ki, 1994-cü ildən "Artsax"ın Azərbaycana verilməsi ilə bağlı danışıqlar aparılıb, bu o deməkdir ki, "kulminasiya sənədi"ndə belə bir məqam öz əksini tapmalı idi. Amma, bu, sadəcə olaraq, təsbit edilməyib, əksinə, sənəddə "Dağlıq Qarabağ xalqı"nın (?) öz müqəddəratını təyinetmə hüququnu təsbit olunur. Bu, onu deməyə əsas verir ki, Nikol xalqa yalan danışır, amma bunu hansı məqsədlə etdiyini başa düşə bilmirəm. Paşinyan sıfır nöqtədən başlamalı, Madrid prinsipləri əsasında danışıqları davam etdirməli idi. Belə olan halda bu gün Laçın dəhlizi ilə birgə "Artsax" olardı, sərhədləri açıq normal Ermənistan–Azərbaycan və Ermənistan–Türkiyə münasibətləri qurulardı. Paşinyan "Artsax"ın itirilməsinin əsas günahkarıdır və buna görə cavabdehdir. Mən onu məsuliyyəti başqalarının üzərinə atmamağa, öz üzərinə götürməyə çağırıram".

**"World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** məsələ ilə bağlı XQ-yə şərhində bildirdi ki, Qarabağ ermənilərin ilə bağlı hazırda mövcud olan durumun yaranmasının baiskarı Paşinyan yox, əvvəlki Ermənistan iqtidarıdır. Onun sözlərinə görə, məhz R.Koçaryan, S.Sarkisyan və digər bu kimi ünsürlərin 1980-ci illərin sonlarından etibarən fəal rol oynadıqları "Qarabağ hərəkatı" 2023-cü ildə bölgədə yaşayan ermənilərin oranı tərk etmələri ilə nəticələndi. Eyni zamanda, Oskanyan, Nalbandyan kimiləri də bu prosesdə qızışdırıcı rol oynadılar. Onlar siyasi uzaqgörənlik edə, ölkəmizin gücünü yetərincə qiymətləndirə bilmədilər. Nəticədə, 2020-ci ildə İkinci Qarabağ müharibəsi və 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri baş verdi: "Oskanyanın açıqlaması həqiqətə uyğun deyil. Çünki Minsk qrupunun həmsədrləri bölgəyə yalnız turist səfərləri təşkil edirdilər. Üç ölkənin nümayəndələri münaqişəni həll etmək adı altında Ermənistana, Azərbaycana və Qarabağ bölgəsinə səfər edərək mənasız təşəbbüslərlə çıxış ediblər. Bununla onlar görüntü yaradıblar, yüksək əməkhaqqı alıblar. Minsk qrupunun fəaliyyəti qətiyyən təqdir oluna bilməz. Onların fəaliyyətinin nəticəsiz olduğunu sonda Rusiya və ABŞ da etiraf etməli oldu, Fransa isə cığallıq edərək bundan yayındı".

R.Məmmədova dedi ki, Qarabağ klanının baş vermiş hadisələrə görə N.Paşinyanı və onun hökumətini ittiham etməsi ilk dəfə deyil: "Təbii ki, biz Paşinyanı müdafiə etmək niyyətindən uzağıq. Amma qeyd etmək lazımdır ki, sonradan Azərbaycanla müharibənin başlanmasına gətirib çıxaran separatizm ocağını Xankəndidə məhz Qarabağ klanı alovlandırıb. Xocalı soyqırımının, xalqımızın başına gələn digər faciələrin təqsirkarları da məhz onlardır. Onlar Qarabağın azadlığı ilə nəticələnmiş 44 günlük müharibəni Ermənistan cəmiyyətinə Azərbaycan Ordusunun qələbəsi kimi deyil, Paşinyanın uğursuzluğu kimi qəbul etdirmək istəyirlər. Deyirlər ki, Paşinyan olmasaydı, Qarabağ ermənilərin olaraq qalacaqdı. Ancaq bu ermənilərin xarici havadarları tərəfindən ortalığa atılan, üçüncü dövlətlərə məxsus olan yanaşmadır. Onlar bu gün xarici havadarlarının belə cəfəng fikirlərini cəmiyyətə ötürməklə məşğuldurlar. Yəni öz uğursuzluqlarını Paşinyanın və komandasının üstünə atmaq istəyirlər. Halbuki, bu vəziyyət 20 ildən çox hakimiyyətdə olan Qarabağ klanının, o cümlədən Oskanyanın özfəaliyyətinin nəticəsidir".

Politoloq qeyd etdi ki, onların ucbatından Ermənistan nəinki müharibədə məğlub oldu, eyni zamanda, ölkənin iki qonşu dövlətlə, yəni Azərbaycan və Türkiyə ilə sərhədlərinin uzun illərdir bağlı olması Hayastanda sosial-iqtisadi problemlərin həllini tapmamasını şərtləndirir. Hazırda Ermənistanın düşdüyü geosiyasi dalan vəziyyətinin yaranması da onların "əməyinin" nəticəsidir. Bu səbəbdən onlar yaranmış vəziyyətin təqsirini Paşinyanın üzərinə atmamalı, özlərinə sual edib ona səmimi cavab verməlidirlər.

R.Məmmədova onu da bildirdi ki, həmsədrlər də Qarabağın və işğal olunmuş digər rayonların Azərbaycanın suveren ərazisi olduğunu çox yaxşı bilirdilər. Onlar Azərbaycanın Qarabağı geri qaytara bilməməsi üçün min cür oyun qurdular: "Oskanyan iddia edir ki, Bakı və İrəvanın danışıqlar üçün əsas kimi qəbul etdikləri Madrid prinsiplərində Azərbaycanın ərazi bütövlüyü haqqında bir kəlmə belə yoxdur. Oskanyanın açıqlaması bir daha sübut edir ki, ATƏT-in Minsk qrupu fəaliyyət göstərdiyi ərzində yalnız ermənilərin maraqlarına uyğun təşəbbüslər irəli sürüb. Bu mənada hazırda rəsmi Bakının qrupun ləğv olunması istiqamətində səy göstərməsi də tamamilə məntiqlidir. Ancaq Prezident İlham Əliyevin bu yaxınlarda bildirdiyi kimi, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir".

***Səxavət HƏMİD***
***XQ***




## FHN bayramda gücləndirilmiş rejimdə çalışacaq




**Fövqəladə Hallar Nazirliyi 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışacaq.**

Bununla bağlı fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov əmr imzalayıb.

Əmrə əsasən, vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ aradan qaldırılması işinin təşkili məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

**XQ**

# İli necə qarşılasan, elə də yola salarsan

## *Dünyada Yeni ilin əsas gecəsini necə qeyd edirlər?*

**Yeni il müxtəlif xalqlar üçün ənənəvi bayrama çevrilib. Belə deyirlər ki, ili necə qarşılasan, elə də yola salarsan. Bu bayramın yaranmasının, ən azı, 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Hazırda dünyanın bəzi xalqları zamanı ay-günəş təqvimilə hesabladıqlarından onların bəziləri üçün Yeni ilin başlanğıcı payıza, bəziləri üçün qışa və ya yaza düşür.**

Yeni ilin yanvarın 1-dən başlaması Roma imperatoru Yuli Sezarın adı ilə bağlıdır. Eramızdan əvvəl 46-cı ildə Yuli Sezar bu barədə qərar qəbul edib və onun şərəfinə adlanan Yuli təqvimi bütün Avropaya yayılıb. Ancaq Yuli təqviminin bütün Avropada yayılmasına rəğmən, heç də hamı Yeni ili yanvarın 1-dən qeyd etmirdi. Məsələn, 755-ci ilə qədər Fransada Yeni ilin başlandığı gün kimi dekabrın 25-i qeyd olunurdu. Daha sonra bu tarix martın 1-nə keçirildi. XII əsrdən isə Pasxa bayramının ilk günü həm də Yeni ilin başlanğıcı sayılırdı. Yalnız 1564-cü ildə IX Karlın göstərişi ilə Yeni il yanvarın 1-dən qeyd olunmağa başladı. Almaniyada XVI əsrin ortalarından İngiltərədə XVIII əsrdə Yeni il həmin gün qeyd olunur. Rusiyada da bayram uzun müddət martın sonlarında və ya Müqəddəs Pasxa bayramının başladığı günlərdə qeyd olunub. 1492-ci ildə isə knyaz III İohan Yeni ilin sentyabrın 1-dən başlanmasına dair qərar qəbul etdi. Bu ənənə 1698-ci ilə qədər çəkdi. 1699-cu ildə ruslar Yeni ili dekabrın 15-də qeyd etdilər. 1700-cü ildə Böyük Pyotr Yeni ilin Avropada olduğu kimi, yanvarın 1-də qeyd olunması barədə sərəncam verdi.

Bəs müxtəlif ölkələrdə ilin əsas gecəsini necə qeyd edirlər? Müxtəlif qitələrdə yaşayan insanlar hansı ənənələrə riayət edirlər?

### Yaponiya

Yaponiyada bəzi Yeni il ənənələri digər ölkələrdəkinə oxşayır. Məsələn, Gündoğan ölkədə də bayramı yeni paltarda qeyd edirlər, bu, sağlamlıq və uğur vəd edir. Onların öz müqəddəs ağacları da var. Yolka rolunu Yaponiyada motiban ağacı oynayır. Şam ağacının budaqları ilə giriş qapısını bəzəyirlər. Daha varlı yaponlar cırtdan şam ağacı, bambuk qələmi, kiçik gavalı və ya şaftalı ağacı alırlar.

Yeni il yeməkləri isə bizim yeməklərdən çox fərqlənir. Yaponiyada yeni il masasına "Paytaxt salatı" əvəzinə, ilk növbədə, əriştə, çəltik, sazan balığı və lobya qoyulur. Bunlar uzun ömürlüyün, bərəkətin, gücün və sağlamlığın simvollarıdır. Yaponların öz saatları da var. Yeni ilin gəlişi 108 zəng zərbəsi ilə bildirilir. İnanclara , zəng səsi insanın qüsurlarını aradan qaldırır, deməli, onu eşidənlər yeni ildə bir az da yaxşı olacaqlar.

Qeyd edək ki, Yaponiyada Yeni il bayramı "şoqatsu" adlanır və yanvarın 1-dən 3-nə qədər qeyd olunur. Yeni ilin ilk günü səhər erkən yaponların çoxu özlərinə və qohumlarına dualar etmək üçün "Sinto" adlanan müqəddəs yerlərə və buddist məbədlərinə baş çəkirlər. Sonra insanlar evə qayıdır, süfrələrə müxtəlif yeməklər, içkilər düzürlər, birlikdə bayramı qeyd edirlər. Yeni ildə yeyilən ənənəvi yeməklərdən biri düyü böyrəyidir. Bu yemək uzunömürlüyün simvolu hesab olunur.

### Rusiya

Yeni il Rusiyada ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər isə səadət, xoşbəxtlik gözləyir. Bu ənənə 3 əsrdən çoxdur ki davam edir. Ağac bəzəmək də o vaxtdan dəbdədir. Yeni il gecəsi süfrəyə müxtəlif yeməklər, salatlar, içkilər, piroqlar qoyulur. İnanca görə, süfrə nə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Süfrənin ortasına mütləq odda qızardılmış donuz potası qoyulur. Çünki donuz ruslarda bolluq və var-dövlət simvolu kimi tanınır. Süfrəyə quş ətindən heç nə qoyulmur, hesab edilir ki, evdən xoşbəxtlik uça bilər. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib gələn qonaqlara paylanır. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar, ayaqqabı almaq imkanı olsun. Bayram qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacaq atılır, pəncərə və güzgülər parıldayana qədər silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur, hamı səhərə kimi rəqs edir.



Milad küknarını qurmaq ənənəsi Rusiyada yalnız XIX-cu əsrin 20-ci illərində Peterburq almanları tərəfindən yayılıb. İlk dəfə Milad bayramı küknarla imperator ailəsində açıq qeyd edilməyə başlanıb. Birinci Nikolayın dövründə Qış sarayında hər il imperatorun uşaqları, qardaşı və bacısı uşaqları üçün küknar və hədiyyələrlə dolu bayramlar keçirilməyə başlanıb.

Daha sonra bu ənənə Peterburq zadəganları arasında yayılmağa başladı. Hətta Jukovskinin Puşkinə ünvanladığı məktubunda da deyilir: "Şənbə günü yolka olacaq". Bu zamanlar Milad ağacı Rusiyanın evlərində çox nadir hal idi, lakin dəbli yenilik kimi sürətlə populyarlıq qazanırdı və 1840-cı illərin sonlarından Peterburq bazarlarında küknar ağacı satılmağa başladı.

### Böyük Britaniya

İngiltərədə Yeni ildə ən çox sevinən uşaqlardır. Çünki bütün gecəni küçələrdə maraqlı oyuncaqlar, maskalar, hava şarları satılır. İngilis nağıllarının süjetləri əsasında uşaqlar üçün tamaşalar hazırlanır. Yeni ildə təbrik açıqcalarının mübadiləsi adəti məhz İngiltərədə yaranıb. İlk açıqca 1843-cü ildə Londonda çap olunub.

Yatmazdan əvvəl uşaqlar Şaxta babanın (Santa Klaus) onlara gətirəcəyi hədiyyələr üçün stolun üstünə boşqab qoyurlar. Bayram günü evdə ideal təmizliyə önəm verilir. Evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Dəhşətli hadisə, çatmaqaş adamın içəri girməsinə qarşı isə o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, Yeni ildə ailə ocağı daha gur yansın.

Zəng yeni ilin gəlişindən xəbər verir. Düzdür, o, gecə yarısından bir az əvvəl çalınır, lakin onun səsi çox zəif olur. Düz saat 12-də zənglər Yeni il şərəfinə yüksək səslə çalınır. Saat 12-ni vurduqda köhnə ili buraxmaq üçün evin arxa qapısı, saatın son vuruşu ilə isə yeni ilə girmək üçün ön qapı açılır. Yeni il axşamı ingilislər ənənəvi ağ pudinq yeyirlər. Lakin onlar bunu çox ehtiyatlı edirlər, çünki pudinqin içərisində yemək üçün yararsız şeylər də olur. Odur ki, pudinq lotereya kimidir, kimə yaxşısı, kimə pisi düşür. Klassik britaniyalı bayram süfrəsində kartoflu hinduşka, sous, şirniyyatlar və bişmiş Brüssel kələmi də olur.

*

Şotlandiyada Yeni il bayramı "Hogmany" adlanır. Küçələrdə bayram Robert Bernsin sözlərinə yazılmış Şotlandiya mahnısı ilə qeyd olunur. Adətə görə, Yeni il gecəsi çəlləkdə qətran yandırılır və onu bütün küçə boyu diyirlədirlər. Yanan çəlləyin mənasını açıqlayan 2 əfsanə var. Birinci bütpərəst inanclara əsaslanır, yanar çəlləklər günəşi bildirir. Şotlandlar onları dənizə atmaqla dəniz canlılarına işıq və istiliyin bir hissəsini verirlər ki, su aləminin xeyirxahlığından pay alsınlar. Digər inanca görə isə alov pis ruhlardan və iblislərdən təmizləyir. Şotlandlar üçün bu, köhnə ilin yandırılmasıdır. Bundan sonra Yeni ilə yol açılır.

Bu ölkədə hesab edirlər ki, Yeni ilin gəlişindən sonra evə girən ilk adam xoşbəxtlik və ya bədbəxtlik gətirir. Əgər evə hədiyyə ilə tündsaçlı kişi daxil olarsa, bu xoşbəxtlik əlamətidir. Bu ənənə "ilk ayaq" adlanır. Yeni il üçün xüsusi ənənəvi yeməklər hazırlanır: səhər yeməyi üçün adətən yulaf tortu, pudinq, xüsusi pendir növü (kebben), nahar üçün qaynadılmış qaz və ya bifşteks, pasta və ya xəmirdə bişmiş alma verilir. Qonaqlar yeni il peçə atmaq üçün mütləq özləri ilə kömür gətirməlidirlər. Gecə yarısı köhnə ili yola salıb Yeni ili qəbul etmək üçün qapılar taybatay açılır.

### İtaliya

Yeni il ərəfəsində köhnə əşyaları pəncərələrdən atmaq adətdir. İtalyanlar bu adəti çox sevirlər və bunu cənublulara xas ehtirasla yerinə yetirirlər: köhnə ütülər, stullar və digər əşyalar pəncərədən küçəyə atılır. İtalyanlar hesab edir ki, nə qədər çox mebel atılsa, Yeni il evlərinə bir o qədər çox sərvət gətirəcək. Onlar əmindilər ki, Yeni ilin astanasında bütün pis fikirlərdən və köhnə əşyalardan xilas olmaq lazımdır.

İtaliyalı uşaqların isə Şaxta babaları yox, Şaxta nənələri var. Onun adı Peri Befana nənədir. İnanca görə, o, sehrli süpürgə ilə uçur. O, balaca qızıl açarla qapıları açır və uşaqların yatdığı otağa daxil olaraq kamin (buxar) yanında xüsusi olaraq asılmış uşaq corablarını hədiyyələrlə doldurur. Zəif oxuyan və ya dəcəl, sözəbaxmayan uşaqlar üçün Befana bir çimdik kül və ya kömür qoyur. Ancaq İtaliyada bir sehrli baba da var, onun adı Babbo Nataledir.

Bu ölkədə Yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti mövcuddur. Ucadan danışmaq italyanlar üçün adi hal olsa da Yeni il gecəsi onlar öz səslərinə tam sərbəstlik verirlər. Beləcə köhnə illə vidalaşırlar.

İtalyanlar üçün yeni ildə ilk olaraq kiminlə görüşmək də önəmlidir. Yanvarın 1-də bir italiyalının gördüyü ilk şəxs rahib və ya keşişdirsə, bu pisdir. Kiçik bir uşaqla görüşmək də arzuolunmazdır, amma donqar baba ilə görüşmək şans gətirir.

Bayram günlərində Apennin adalarının sakinləri sağlamlıq, firavanlıq və uzun ömür rəmzi olan mərcimək, qoz-fındıq və üzüm yeyirlər.

### İspaniya

İspaniyada bayram günü hamı şəhərin mərkəzi meydanına axışır. Burada kütləvi şəkildə üzüm yeyirlər. Hər kəs müəyyən vaxt ərzində 12 salxım üzüm yeməlidir. İspan mağazalarında hətta qablarda çəyirdəksiz və qabıqsız üzüm satılır. 12 qab ilin 12 ayını bildirir.

Üzüm isə yerli fermerlərin hiyləgər marketinq gedişidir. Onlar 1908-ci ildən bu adətə görə pul qazanırlar. Beləliklə, ispanlar yeni ilə dolu ağızla girirlər. Daha bir maraqlı məqam: İspanlar qarşıdakı 12 ayda maliyyə problemi yaşamamaq üçün ili qırmızı alt paltarında qarşılayırlar. Ənənə həm kişilərə, həm də qadınlara aiddir. Qırmızı rəngin maliyyə cəhətdən uğur gətirdiyinə inanılır.

### Almaniya

Alman Şaxta baba, ingilislərdə olduğu kimi, uşaqlar üçün boşqablara hədiyyələr qoyur. O, ancaq eşşəklə səyahət edir. Böyüklər falçılıqla məşğul olur, stolüstü oyunlar və atəşfəşanlıqla əylənirlər. Elə ki, saatlar gecəyarını vurur, müxtəlif yaş təbəqəsinə aid insanlar masa, stul, kresloya minir və son saat zəngi çalınanda birlikdə Yeni ilə atlanırlar. Almanlar Yeni il gecəsi saat 12-ni vurarkən ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr, yeni il daha bərəkətli olacaq.

Almanlar qış bayramı üçün yüngül yeməklərə üstünlük verirlər. Balıq yeməkləri və kökə məşhurdur.



### Avstraliya

Avstraliyada Yeni il şənlikləri kifayət qədər ekzotik keçirilir. Qar, şam ağacı, maral və bayramın digər ənənəvi atributlarının olmaması səbəbindən Şaxta Baba Sidney çimərliyində parlaq rənglərlə bəzədilmiş sörfün üzərində üzgüçülük kostyumunda peyda olur. Bununla belə, Köhnə dünyanın ənənələrinə riayət edən Şaxta Babanın mütləq ağ saqqalı və qırmızı papağı olur. Yeni il axşamı açıq səma altında atəşfəşanlıqların keçirildiyi müxtəlif ictimai məkanlara baş çəkmək ənənəyə çevrilib. Avstraliyadakı Yeni il şənliklərinin özəlliyi ondan ibarətdir ki, gecə yarısından sonra bu cür atəşfəşanlıqlar müşahidə olunmur. İstirahət günü və ya bayram olmasına baxmayaraq, avstraliyalılar, adətən, səhər saat 5-6-da yuxudan oyanır, axşam saat 10-dan gec olmayaraq isə yatağa girirlər. Təbii ki, Yeni il gecəsi istisnadır. Amma bu bayram günündə də saat 00:10-da hamı yataqda olur.

### Finlandiya

Yeni il ərəfəsində finlər mumla fal açır, bayram süfrəsinə çoxlu yeməklər və içkilər qoyurlar. Şimallılar üçün ən çox arzulanan yemək şirin düyü sıyığı və gavalı jelesidir. Fin Şaxta babası Joulupukki adlanır. Bu ad "Milad keçisi" kimi tərcümə olunur. O, keçilərin çəkdiyi arabaya mindiyi üçün belə adlanır. Youlupukki xeyirxahdır, bütün arzuları yerinə yetirir. Şaxta Babanın çox yaxşı eşitmə qabiliyyəti var, o, pıçıltını da eşidə bilir. Qışqırmaqla arzu dilə gətirmək xoş qarşılanmır. Çünki arzunu pis ruhlar eşidə bilər və onun yerinə yetirməsinə heç kim zəmanət verməz.

### Fransa

Dekabrın 31-i ərəfəsində fransızlar evlərini ağacdan və gildən hazırlanmış heykəlciklərlə bəzəyirlər. Şaxta baba Per Noel, yəni Noel ata adlanır. Bayramın "kralı" isə uşaqlardır. İnanca görə, Noel ata Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklərsə bayram günü daha çox yeyib-içməyi sevirlər. Fransanın şərab ölkəsi olduğunu nəzərə alsaq, vəziyyəti təsəvvür etmək olar.

Bu ölkədə bayramın ən maraqlı tərəfi hədiyyələrdir. Amma bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa, kimdənsə hədiyyə olaraq ətir qəbul etməsi yaxşı hal hesab olunmur.

Bir çox Fransa əyalətlərində bu günə qədər köhnə bir ənənəyə əməl olunmaqdadır. Yeni ildə ilk olaraq su dalınca bulağa gedən ev sahibəsi ora qoğal və ya bulka qoyur. Bu bayram payını başqa bir qadın götürür, əvəzində özü gətirdiyini bulaq başında qoyur. Qadınlar axşam olana qədər bir-birilərini bu cür qonaq edirlər.

***Hazırladı:***
***PÜNHAN***
***XQ***

Nizaməddin Şəmsizadə – 70

# Azərbaycanşünas alim, xalqşünas ziyalı

**Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə yarım əsrdir ki, ədəbviyyata, söz sənətinə xidmət edir. Klassikanı mükəmməl öyrənən, çağdaş ədəbi prosesi dərindən izləyən alim milli ideologiyamız – azərbaycançılıq nəzəriyyəsi haqqında ilk kitabın müəllifidir.**



O, 1954-cü il dekabrın 30-da Qubanın qədim türk obası İspik kəndində dünyaya göz açıb. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini bitirib və həyatını bütünlüklə elmə həsr edib. Uzun illər Mədəniyyət və İncəsənət Universitetində pedoqoji fəaliyyətini davam etdirib. Elmi xidmətlərinə görə akademik Y.Məmmədəliyev mükafatının laureatıdır. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"(müştərək) kitabına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb.

"Ədəbi proses–78" (şərikli) "Ədəbi mübahisələr", "Azərbaycan ideologiyası", "Azərbaycan ədəbiyyatşünaslığı", "Türk təfəkkürü məcrasında", "Hıçqıran gülüşlər", "Əli Nazim", "Rejissor taleyi", "Tənqidin ədəbi prosesdə rolu", "Böyük nəslin davamçısı", "Azərbaycançılıq", "Ədəbi proses və ədəbi nəsil", "Yazıçı ömrünə uvertüra" monoqrafiyalarının, "Əgər onlar olmasaydı" ədəbi-tənqidi məqalələr kitabının, "Mən kiməm" adlı sənədli-fəlsəfi ömürnamənin, "Bürkü", "Tüstü", "Duman", "Səma", "Sonuncu daxma" hekayə, şeir və esselər, "Müdriklər bunları deməyib" kəlamlar kitablarının, 250-dən çox ədəbi-tənqidi, elmi-nəzəri və fəlsəfi-publisistik məqalənin müəllifidir. Üç cilddə "Seçilmiş əsərləri" çap olunub. Ali məktəblərində tədris olunan "Ədəbiyyat nəzəriyyəsi" adlı fundamental dərsliyin müəllifidir.

Azərbaycan Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov deyib: "Nizaməddin Şəmsizadə Azərbaycan ədəbi mühitində öz obrazını yaratmış şəxsiyyətdir. Təkcə adını demək kifayətdir ki, söhbətin nədən, kimdən gedəcəyi bəlli olsun. O, təkcə yüksək zövqlü tənqidçi yox, eyni zamanda, şeir və nəsr nümunələri yaradan ədəbiyyat adamıdır... Tənqidçi deyəndə əksəriyyətimiz düşüncəmizdə aqressiv bir adam canlandırırıq. Azərbaycan ədəbiyyatında belə tənqidçilər kifayət qədərdir. Amma Nizaməddin Şəmsizadə istər klassik, istərsə də müasir yazıçı və şairlərimiz barədə olan ən sərt tənqidini də elə səmimi, intellektual üslubda çatdırır ki, aqressivlik tamamilə arxa planda qalır".

Yubilyar filoloq həmişə özünə ustad saydığı görkəmli ədəbiyyatşünas alimləri ehtiramla xatırlayır, onların haqqında qədirşünaslıqla söz açır: "Mən akademik Məmməd Cəfərdən müstəqil və təmkinli olmağı, akademik Kamal Talıbzadədən türkçülüyü və ədəbiyyatı milli mənafelər baxımından təhlil etməyi, akademik Bəkir Nəbiyevdən dövlətçilik düşüncəsini, Əziz Mirəhmədovdan elmə ciddi yanaşmağı, prinsipiallığı, şair və alim Qasım Qasımzadədən sözü üzə deməyi, Abbas Zamanovdan vətəndaş cəsarətini, professor Qafar Kəndlidən alim təvazökarlığını, XX əsrin böyük mütəfəkkiri, elmi rəhbərim Yaşar Qarayevdən məntiqi düşünməyi və nəzəri-fəlsəfi mühakimə mədəniyyətini, poetik üslublu tənqid manerasını öyrənmişəm".

Nizaməddin müəllimin 70 illik yubiley günündə onun iki dahi yubilyar haqqında kitabından qısaca bəhs etmək istərdik. Məlum olduğu kimi, sona çatmaqda olan il ölkəmizdə İmadəddin Nəsiminin 655, Məhəmməd Füzulinin 530 illik yubileyləri ilidir. Bu ərəfədə görkəmli tənqidçinin "Nəsimi və Füzuli" adlı kitabı işıq üzü görüb. N. Şəmsizadə öz ənənəsinə sadiq qalaraq, orta əsrlərin söz dahiləri olan korifeylərimizin həyat və fəaliyyətinə geniş aspektdə nəzər salıb. Klassiklərin irsi kontekstində fərdi yaradıcılıqlarının bədii-fəlsəfi təkamülü məsələlərini araşdırıb. Müəllif nəzəri-analitik təhlil yolu ilə Nəsimi və Füzuli poeziyasının sehrini – bədii-fəlsəfi mənasını, unikal simvolik-metaforik formasını, bütövlükdə poetik sistemini açmağa çalışıb.

Səhhətində yaranmış ciddi problemlərə, ağır əməliyyatlar keçirməsinə baxmayaraq, elmə olan fədakar münasibəti səngiməyən, elmi yaradıcılığını inadla, inamla davam etdirən Nizaməddin müəllimin son illərdə neçə-neçə yeni kitabı çap olunub. Bütün bunlar barədə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında professorun 70 illik yubileyi münasibətilə hazırlanmış virtual kitab sərgisində ətraflı bilgilər toplanıb. Sərgidə onun müəllifi olduğu "Azərbaycanın elm və mədəniyyət xadimləri", "İdrakın üfüqləri", "Roman və tarix", "Turan yolu" və s. kitabları qısa annotasiyalarla təqdim olunub.

Dahi yunan filosofu Sokrat yazırdı: "Əsl ziyalı öz elmi təfəkkürünü təsdiq edən, intellektini həyata və cəmiyyətə tətbiq etməyi bacaran, müdrikliyi ilə örnək ola bilən insanlardır". Bu aspektdən yanaşsaq, Nizaməddin Şəmsizadə böyük ziyalılarımızdan biri sayılır.

Can sağlığı arzuları ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

# Hekayə ustaları narkomaniyaya "yox!" dedilər




**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Ulduz" jurnalı ilə birgə keçirdiyi "Narkomaniyaya yox deyək!" hekayə müsabiqəsinə yekun vurulub.**

Birliyin Natəvan klubunda təşkil olunan mərasimi "Ulduz"un baş redaktoru, Əməkdar jurnalist Qulu Ağsəs açaraq səhiyyə müəssisələri ilə yaradıcı təşkilatların əməkdaşlığının vacibliyini vurğulayıb. İSİM-in direktoru Qəhrəman Haqverdiyev qeyd edib ki, müsabiqənin təşkilində əsas məqsəd gənc nəsildə sağlam davranışların formalaşdırılması, zərərli vərdişlərin mənfi təsirləri barədə əhalinin məlumatlılığının artırılmasıdır.

AYB-nin katibi Elçin Hüseynbəylıi, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Əsəd Cahangir, İSİM-in Səhiyyə kommunikasiyası şöbəsinin müdiri Laura Quliyeva, yazıçı-həkim Nazilə Gültac, AYB-nin Lənkəran bölməsinin sədri Qafar Cəfərli çıxışlarında narkomaniya və digər zərərli vərdişlərə qarşı mübarizə aparmaq üçün müvafiq qurumların əlaqəli şəkildə fəaliyyət göstərməsini, əhali arasında geniş təbliğatın aprılmasını təqdir ediblər.

"Narkomaniyaya yox deyək!" mövzusunda təşkil olunan hekayə müsabiqəsinin finalçıları – Azər Qismət, Coşqun Xəliloğlu, Nemət Mətin, Günel Mehri, Qafar Cəfərli, Rövşən Qaragözov, Ruzbeh Məmməd, Məlahət Hümmətqızı, Nazilə Gültac və Tural Cəfərli qalib elan olunublar. Bildirilib ki, onların hekayələrindən ibarət "Həyatımızı sağlam yaşayaq!" adlı ədəbi toplu da nəşr olunub. Hekayələrdə narkotik maddələrdən istifadənin acı nəticələri bədii boyalarla təsirli şəkildə öz əksini tapıb.

***XQ***




# "Nur şəhəri"ndə bayram şənliyi



**Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramları münasibəti ilə Mingəçevir şəhər rəhbərliyi şəhid ailələrinin, qazilərin və veteranların uşaqlarını təbrik edib.**

Kür sahilindəki restoranların birində təşkil olunan bayram şənliyində şəhid ailələrinin, qazilərin, veteranların uşaqlarını təbrik etməyə şəhər icra hakimiyyəti aparatının işçiləri, ziyalılar, valideynlər, mətbuat nümayəndələri toplaşmışdılar. Mərkəzi Aran Regional Təhsil İdarəsinin nəzdində olan Mingəçevir Uşaq Gənclər İnkişaf Mərkəzinin müxtəlif dərnəklərinin şagirdlərinin təqdim etdiyi mahnı sovqatı, rəqslər, Vətənə, qəhrəmanlarımıza həsr olunmuş şeirlər tədbiri xüsusilə şənləndirib.

İcra başçısı İlham İsmayılov I Qarabağ müharibəsi, Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi, 2022-ci ilin sentyabr hadisələri və 2023-cü ilin antiterror əməliyyatları zamanı qəhrəmanlıq göstərən, düşmənə qarşı rəşadətlə döyüşən Vətən övladlarının torpaqlarımızı düşmən tapdağından qorumasından, azad etməsindən fərəhlə bəhs edib. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yazılan Zəfər tarixindən, müstəqil Azərbaycanın suverenliyinin tam bərpasından danışıb. Şəhər rəhbəri bu şənliyə toplaşan uşaqların Zəfər Yürüşü qəhrəmanlarının övladları kimi hər cür diqqət və qayğıya layiq olduqları bildirib. O, uşaqarın bayramını təbrik edərək, vətənpərvər ruhda böyüməyi, yurdumuzun layiqli vətəndaşı kimi yetişməyi onlara tövsiyə edib.

Bayram tədbiri Yeni il yolkasının ətrafında davam etdirilib. Uşaqlar deyib, gülüb, şənləniblər. Yeni ilin atributları olan Şaxta baba və Qar qız söhbətləri ilə, nağıl personajları, dovşanlar, klounlar məzhəkəli oyunları ilə balacaları sevindiriblər.

Şənlikdə icra hakimiyyəti tərəfindən 120 uşağa bayram hədiyyəsi verilib. Balacaların valideynləri – şəhid anaları, qazilər, müharibə veteranları minnətdarlıqlarını bildirməklə ölkə və şəhər rəhbərliyinə ən xoş arzularını çatdırıblar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
**Mingəçevir**



# BDU alimləri Daşkənddə



**Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru Gülçöhrə Rixsiyeva Bakı Dövlət Universitetinin prorektoru Əliş Ağamirzəyev və rektorun müşaviri Mirzə Mirzəyevlə görüşüb.**

Gülçöhrə Rixsiyeva qarşılıqlı maraq doğuran məsələlərdən danışaraq, görüşün iki ali təhsil müəssisəsi arasında əməkdaşlığın möhkəmlənməsinə təkan verəcəyini diqqətə çatdırıb. Əliş Ağamirzəyev akademik mübadilə imkanlarının inkişafının təmin edilməsi, elmi-tədqiqat işlərinin birgə həyata keçirilməsi kimi məsələlərdən danışıb.

Sonra qonaqlar Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə universitetdə yaradılan "Azərbaycanşünaslıq Mərkəzi" ilə tanış olublar.

***Qulu KƏNGƏRLİ ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***
**Daşkənd**




# Qədim türklərdə Şaxta baba obrazı və yolka kultu

**Miladi tarixi ilə yeni ilin bayram edilməsi bütün dünyada xristian bayramı kimi qəbul edilməsinə baxmayaraq, onu əsasən müsəlman olan türk xalqları da qeyd edirlər. Əslində, bu, hazırda milad təqvimindən istifadə edən bütün xalqların bayramına çevrilmişdir.**



Məlumdur ki, Türkiyə türkləri və postsovet ərazidə yaşayan müsəlmanlar, o cümlədən azərbaycanlılar bu bayramı qonşu xristian xalqlardan əxz etmişlər. Miladi Yeni il bayramının əsas atributları yolka bəzədilməsi və mifik Şaxta babanın gəlişidir.

Finlər Şaxta babanın Laplandiyada, ruslar isə Veliki Ustyuqda "doğulub boya-başa çatdığını" sübut etməyə çalışırlar. Dünyada ən çox yayılmış və qəbul olunmuş fərziyyəyə görə isə, təxminən, miladın 270-342-ci illəri arasında müasir Türkiyə ərazisində yaşamış keşiş Müqəddəs Nikolay (Türkiyə türkləri onu Noel baba, yolkanı isə "noel ağacı" adlandırırlar) Şaxta baba obrazının ("Santa Klaus"– Amerika, İngiltərə, "Per Noel" – Fransa, "Santa Nikolas" – Belçika, "Ded Moroz" – Rusiya, "Ded Mraz" –Xorvatiya, "Yolupukki" – Finlandiya və s.) prototipidir.

İlk baxışda adama elə gəlir ki, xaçpərəst Yeni ilinin, onun atributlarının əsasən müsəlman olan türk xalqları ilə heç bir əlaqəsi ola bilməz. Tarixin yaddaşı bu fikrin yanliş olduğunu təsdiqləyir.

Şaxta baba və yolka ilə bağlı ən qədim məlumatlar türklərin adı ilə səsləşir. Əslində, xristian dininin, mədəniyyətinin bir çox komponentləri qədim turklərlə, onların tapındıqları, alman alimi Q.Derferin də qeyd etdiyi kimi, dünyanın ilk monoteist (təkallahlı) dini olan tanrıçılıqla (tengirianstvo) bağlıdır. Məsələn, hələ xristianlıqdan əvvəl xaç (qədim adı "açı", "acı") türklərdə Yerlə Göyün Tanrıda (Allahda) ehtivasının rəmzi olmuşdur. Türklər bütpərəst Avropaya üzərində "açı" təsviri olan bayraqla daxil olmuşlar. Böyük sərkərdə Atillanın (Attila) və onun əsgərlərinin alnına da bu cür "açı" ("xaç" sözü ilə səsləşir) işarəsi həkk olunmuşdu. Qədim türklər Avropada müxtəlif adlarla tanınmışlar. Yunanlar onları "hunlar", romalılar "varvarlar", germanlar və normanlar isə "getlər" adlandırmışlar. Əcdadlarımız olan qədim türklər Avropaya mədəniyyət, vahid Yaradana – Tanrıya inam gətirmişlər. Təsadüfi deyil ki, ta XVI əsrə qədər Almaniyanın cənubunda türk dilində danışmışlar (Ensiklopediya, Releqii mira, "Avanta", Moskva, 1996, səh.216). Bu da bir faktdır ki, Yeni ildə yolka qoymaq və onu simvolik oyuncaqlarla bəzəmək ilk dəfə burada tətbiq olunmuşdur. Rusiya isə bu ənənəni məhz almanlardan qəbul etmişdir.

Qədim türklərin ən böyük bayramı dekabrın 25-nə düşən "Açı" ("acı") suyu" bayramı idi.

Həmin gün içərisinə açı (xaç) salınmış su ilə yuyunub təmizlənmək çox vacib sayılırdı ki, bu da Ulu Tanrıya biətin ifadəsi idi. O gün hər kəs evə müqəddəs sayılan, Tanrının əbədiliyi rəmzi olan yolka (küknar) budağı gətirməli idi.

Yolkanın (küknar fəsiləli bitkilərin) dirilik simvolu kimi müqəddəsləşdirilməsi tarixi isə qədim türklərdə hələ Tanri dinindən təxminən üç min il əvvələ gedib çıxır (tanrıçılıq dövründə yeni şəraitə uyğunlaşdırılmışdı). Bu daha qədim türk Allahı Yersu mifoiogiyası ilə bağlıdır. Yolkanın evə gətirilməsi Yersunun ərməğanı hesab edilirdi.

İnama görə, Yersu Allahın iqamətgahı yerin təkində və mərkəzində - "Yerin göbəyində" yerləşmişdir. Burada, məhz yerin göbəyində Dünya ağacının rəmzi olan nəhəng, müqəddəs yolka ağacı bitmişdir. Bu ağacın altında onun hamisi sayılan, əyninə üstdən uzun libas (xalat) geyinmiş sıx ağ saqqallı, sağlam görkəmli bir qoca əyləşmişdir. Bu Ülgən (ölgən) babadır ("Şaxta baba? - Ə.Ə.). "Ülgən" - yatmış, ölmüş (ölgən) mənalarındadır, yerin altında - göbəyində yaşadığına görə, ona bu ad verilmişdir.

Qeyd etmək lazımdır ki, qədim türklərdə "ülgən" sözündə olduğu kimi, ölüm məfhumu ilk mənada onların fəlsəfi dünyagörüşünü əks etdirən yuxuya getmək, yatmaq, yatıb ayılmaq, keçid, dəyişkənlik mənalarını kəsb etmişdir. Türk dillərinin inkişafında və differensiyasında ü, u, ö səs keçidlərini nəzərə alsaq, "ülgən" sözünün kök mənası müasir çuvaş dilindəki "üləm" (bir daha, yenidən, gələcəkdə), "ulşın"(dəyişmək, yenidən dəyişmək) kimi sözlərdə özünü qoruyub saxlamışdır.

Ülgən baba çox xeyirxah, amma hirsli-hikkəli qocadır, ildə bir dəfə qış vaxtı yerin üstünə çıxıb adamlara qonaq gəlir, böyük torbasında uşaqlara hədiyyə gətirir. Hədiyyələri paylamaqda uşaqlar ona kömək edirlər. Ülgən baba hər gələndə özü ilə yolka da gətirir. Uşaqlar və böyüklər həmin yolkanın ətrafında dövrə vuraraq səhərə qədər nəğmə oxuyub şənlənirlər. Sonralar

Ülgən babanın rolunu oynayan adamlara (bir növ Şaxta baba olanlara) "inderbay" ("yer altında yaşayan bəy" mənasındadır) adı da vermişlər.

Yolka o dərəcədə müqəddəs sayılırdı ki, hətta tanrıçılıq dövründə ölən adamların qəbirlərini yolka budaqcıqları ilə döşəyirdilər. Yolka ağacına ehtiram ənənəsini xalqların Böyük köçü dövründə türklər Şərqi və Mərkəzi Avropaya gətirdilər. Şaxta baba və yolka ənənəli bayramlar bu və ya digər formalarda Dunay, Don, Dnepr, Volqa (İtil) vadilərində güman edilir ki, Atilla zamanından üzübəri qeyd edilir. Miladi Yeni il bayramı isə müasir dəbdə Qərbi Avropada ancaq XIX əsrdən qeyd edilir.

Onu da vurğulayaq ki, slavyanlarda və romalılarda palıd, finlərdə şam, Cənubi almanlarda isə yolka müqəddəs sayılmışdır. Yolka ilə bağlı ilk məlumata 1500-cü ilin Elzas xronikalarında təsadüf edilir.

Miladi Yeni ilinin Şaxta baba və yolka atributları ilə əksər müsəlman xalqlardan fərqli olaraq bütün türkdilli xalqlar tərəfindən qutlanması (qaqauzlar, çuvaşlar, mişar (meşer) tatarları xristiandırlar) bəzi ictimai-siyasi məqamlara baxmayaraq, böyük tarixi təbəddülatlar yaşamış bu böyük qövmün, yəqin ki, qeyri-ixtiyari qan yaddaşı məsələsidir.

***Əliş ƏVƏZ***

**Moskva**

Yeni ilə gülə-gülə

# Gülüşə hopmuş təbriklərin müəllifi




**Yeni ilin ilk ayında 75 yaşı tamam olacaq tanınmış satirik Xeyrəddin Qoca uzun illərdən bəri idi ki, "Xalq qəzeti"nin oxucularını Yeni ildə gülüş sovqatı ilə təbrik edirdi. Bu il yazıçı-publisistlə razılaşdıq ki, onun bu çoxillik təbrik ənənəsini Xeyrəddin Qoca gülüşü barədə yazı ilə davam etdirək.**

## Yazıçı öncəgörməsi, yaxud 2020-ci il

Xeyrəddin Qocanın 1998-ci ildə çap etdirdiyi "Hərə öz payını götürsün" adlı kitabı onun Yeni il arzuları ilə açılırdı. "Marallar" qalereyasının müəllifi hələ 22 il əvvəl ilin ulduz falını belə incələyirdi: "Bu il hərə öz yerini biləcək... Yəni siyasətçi siyasətlə məşğul olacaq, qəzetçi yazısını yazıb qəzetini buraxacaq. Hamı öz halal maaşı ilə dolanacaq. Kasıbçılığın daşı atılacaq... Nazirlər həmişəki kimi hazıra nazir olmayacaqlar!".

Yazıçının qəlb ağrısına dönən çeşidli problemlərin qətiyyətlə dəf edilməsi prosesi 2020-ci ilin payına düşdü. Ölkəmizin başçısı bu sahədə islahatların dönmədən aparılacağını qətiyyətlə bəyan etdi. Böyük xalq dəstəyi qazanan qərarlar verdi. Hər kəs əmin oldu ki, doğrudan da, "bu il hərə öz yerini biləcək", hər kəs öz işi ilə məşğul olacaq, bütün sıxıntılar, problemlər geridə qalacaq.

Vətənini, xalqını, dövlətini ürəkdən sevən Xeyrəddin müəllimin bu xoşməramlı arzularının gerçəkləşməyə başladığı 2020-ci il həyatımıza qədəm basdı. Və yazıçı ömrünün 70-ni də özüylə bərabər gətirdi.

## "Hərə öz payını götürsün" – deyə...

Bütün publisistik, bədii yazılarını hərə öz payını götürsün istəyilə qələmə alan Xeyrəddin Qoca qısa mətndə bir kitablıq məna ifadə etməyin ustasıdı. Məsələn, belə:

– "Nə vaxt biz dünya mədəniyyətinə çatacağıq?

– Heç vaxt!

– Niyə?

– Çünki dünya mədəniyyəti bir yerdə dayanıb gözləmir".

Şərhə ehtiyac yoxdu. Yazıçı bu qısa mükalimə daxilində əsl vətəndaş-ziyalı münasibəti ilə mənsub olduğu millətdən, yaşadığı cəmiyyətdən gözlənilən, umulan yeniləşmək, sivil dünyayla ayaqlaşa bilmək istəyini bütün dolğunluğu ilə ifadə edə bilmişdir. Təkcə yumor dolu bu dörd sətirlik qısa mükalimə əsl sənətkar ustalığını ortaya qoya bilmək faktıdı. Qısa yazmağın və böyük mətləblər ifadə etməyin örnəyi belədi.

## "Biz bizə bənzərik..."

Uzun-uzadı götür-qoylar, "edim-etməyim"lər məngənəsində sıxıldığımız olur. İç dünyamızı çürüdürük. Dilimizə gələsi söz boğazımıza dirənib qalır. Keçməli olduğumuz ərazinin enini uzununa vura-vura qalır, nəfəsimizin çatıb-çatmayacağını hesablayırıq...

O isə heç nə olmamış kimi gəlir, o sözü deyir, o çayı keçir, o ərazini qət edir, bütün götür-qoylara son verir. Ona görə ki, etdiklərinin qarşılığında umacağı olmur. Gözükölgəli deyil, ürəyinin istədiyini edir.

Bizim belə olmağımız çatmır. Biz bizə bənzəyib qalırıq çox vaxt!

Amma onun üçün bu, adi həyat tərzidi. Təsadüfi deyil ki, zamanında çoxları liderlik xəstəliyinə tutulanda, "meydan qəhrəmanı"na dönəndə, gündəmə gəlmək xatirinə yollar, vasitələr axtaranda o, Vətənin, xalqın xilasını ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişində görürdü. Səhv etmirdi. Üstəlik də o zaman Kreml bayquşlarının yaramaz vasitəçiliyilə ümummilli liderə böhtan yağdıranlara qarşı tutarlı cavablar verir, təhdidlərə məhəl qoymadan haqq sözünü deyir, məqalələr yazırdı.

## "Satirik olmaq cəsur olmaqdır"

Akademik Nizami Cəfərov X.Qocadan bir yazıçı, ictimai xadim, Azərbaycan cəmiyyətinin inkişafına kifayət qədər böyük zəhmət, mənəvi enerji sərf etmiş, xarakterinə xas olan narahat bir yaradıcılıq həyatı yaşayan şəxsiyyət kimi bəhs edir. Pofessor Pənah Xəlilov haqlıdır ki, "mən Xeyrəddin Qocanın əsərlərini oxuyanda Əbdürrəhim bəy Haqverdiyevin "Marallar"ı yadıma düşür. "Demək istəyirəm ki, Xeyrəddin Qocanın əsərlərində o kişinin ruhu yaşayır...".

Xalq yazıçısı Anarın fikirləridir: "Satirik olmaq cəsur olmaqdır, heç nədən qorxmamaqdır. Bu gün həyatımızda olan bir çox nöqsanları görmək və göstərmək böyük cəsarətdir. Xeyrəddin Qoca heç nədən və heç kimdən qorxmur".

Bütün bu deyilənlərin əsasında o durur ki, həyatın sosial-mənəvi problemlərinə özünəməxsus münasibəti ilə seçilən yazıçı həmişə öz mövqeyini, sidq-ürəkdən duyduğu narahatlığı açıq-aydın şəkildə ortaya qoyur və öhdəsinə düşən hər bir işi – istedadını, vaxtını, enerjisini qətiyyən əsirgəmədən görür.

Kitabları içində ən çox "Lolita"nı sevən Vladimir Nabokov "Lolita"dan əxlaq dərsi hasil edə bilənlərə eşq olsun" yazırdı.

Eyni sözləri X.Qocanın "Bu da belə həyatdır", "Filankəslər", "Hərə öz payını götürsün", "Marallar", "Bu dünyadan məktublar..." və s. kitabları haqqında söyləmək olar. Oxuduqca millətini, cəmiyyəti sevməyin əxlaq dərsini almış olursan. Ancaq bu dərs nəsihətçilikdən uzaq bir dərsdi. Daha çox yumor, ironiya, Ezop dilinə hesablanıb. Anladır, oyadır və tərbiyə edir.

## Yalnız yazmaya biləndə yazır...

Sənətsevərlərin doğru qənaətidir ki, onun əsərlərində zamanın ahəngi döyünür. Çağdaş ictimai və ədəbi fikir həyatımızda özünəməxsus yeri var. Mövzuları həyati proseslərin axarından gəlir. Onun həyat və fəaliyyəti yolu maarifçilikdən publisistikaya, ictimai fəaliyyətdən rəsmi diplomatik işə, qəzetçilikdən satirik nəsrə qədər geniş bir dairəni özündə cəmləşdirir.

Heç vaxt gülüş xatirinə yazmır. Onun tənqidi də, satirası da insanlara olan hədsiz sevgisindən irəli gəlir. Özünün dediyi kimi, kövrək, hissiyyatlı adamdı. Yalnız yazmaya biləndə yazır. Özünün təqdim etdiyi avtoportretdən seçmələrdi: "Mənə görə ailə hər şeydən üstündür. Bütün həyatımı ailəmə həsr etmişəm... Sadə insanam, şəxsiyyətimi hər şeydən üstün tuturam... İndiki zəmanədə şərəfi qorumaq çox çətindir".

Həmkarları onun barəsində birmənalı olaraq "yerini bilən adam" – deyə söz açırlar: "Elə bu keyfiyyəti də ömür yolunun hərəkət proyektoriyasını cızıb. Atacağı addımların koordinatlarını əvvəlcədən müəyyənləşdirib... həmişə öz yolu ilə gedir".

Və bu yol hər kəs tərəfindən arzulanan yoldu.

***Sərvaz HÜSEYNOĞLU,***
***şair-publisist***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti
"Microsoft Office365 Apps " proqram
təminatı lisenziyalarının satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il yanvarın 10-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1132.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Bakelektromaşın" ASC səhmdarlarının nəzərinə!

18 fevral 2025-ci il saat 11.00-da "Bakelektromaşın" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə hesabatının təsdiq edilməsi (həmin dövr üçün maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabat).

2. Cəmiyyətin idarəetmə orqanlarının yeni tərkibinin seçilməsi.

3. Cəmiyyətin əmlakının səhmdarlar arasında bölünməsi.

4. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu- (077) 270-99-28.

Ünvan-Bakı şəhəri, Xəzər rayonu, Qala ŞTQ, Qala stansiyası.

***"Bakelektromaşın" ASC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 290 (30694) 30 dekabr 2024-cü il, bazar ertəsi

İdman

## “Top 8”in qalibləri

**Stolüstü tennis üzrə “Top 8” turnirinə yekun vurulub.**



Stolüstü Tennis Federasiyasından verilən məlumata görə, “Şüa İdman Kompleksi”ndə təşkil olunan ənənəvi yarışda ölkənin ən güclü stolüstü tennisçiləri bacarıqlarını göstəriblər. Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışda kişilər arasında Onur Quluzadə 1-ci yeri tutub. Rüstəm Hacılı və Vəzir Allahverdiyev sonrakı pillələrdə qərarlaşıblar.

Qadınların turniri Aylin Əsgərovanın qələbəsi ilə başa çatıb. Mərziyyə Nurmətova fəxri kürsünün 2-ci, Ləman Abdulhəmidova 3-cü pilləsinə qalxıb.

## Gürcüstanda uğurlu çıxış

**Azərbaycan ağırlıqqaldıranı İsa Rüstəmov (73 kq) Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən “Kakhi Cup 2024” beynəlxalq turnirində uğurla çıxış edib.**



O, birdən qaldırma hərəkətində 148, təkanla qaldırmada isə 181 kiloqram çəkini başının üstünə qaldırıb. Təmsilçimiz toplamda 329 kiloqram (148+181) nəticə ilə yarışı birinci pillədə başa vurub.

**L.QURBANOVA**
**XQ**

## Fotoqrafçıların “yaşıl” müsabiqəsi

**Azərbaycan Fotoqrafiya Federasiyası və Gilavar Foto Klubu ictimai birliyi “Yaşıl dünya naminə həmrəylik ili” və COP29 tədbirinə dəstək vermək məqsədi ilə “Dünyanı yenidən yaşıl edək” adlı beynəlxalq fotomüsabiqə təşkil edib.**



Müsabiqənin məqsədi dünyada baş verən iqlim dəyişmələrini insanlara fotolar vasitəsi ilə çatdırmaqdır. Bura sel və daşqınlar, quraqlıqlar, səhralaşmalar, meşə yanğınları, buzlaqların əriməsi, Ozon təbəqəsi, təbii su ehtiyyatlarından qeyri-səmərəli istifadə, günəş və külək elektrik stansiyaları, təbiətə atılan tullantılar və onların idarə olunması, havaya buraxılan qazlar və s. kimi fotolar daxildir.

Beynəlxalq Foto Sənəti Federasiyası (FIAP) və Beynəlxalq Bədii Fotoqraflar Assosiasiyasının (IAAP) himayədarlığı ilə keçirilən müsabiqəyə dünyanın 60 ölkəsindən 1800 foto təqdim edilib. Fotolar Azərbaycan, Türkiyə və Şimali Makedoniyadan olan münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Qeyd edək ki, Azərbaycan Fotoqrafiya Federasiyası və Gilavar Foto Klubu ictimai birliyi tərəfindən davamlı olaraq, foto sənətinin inkişafı istiqamətində müxtəlif layihələr, o cümlədən yerli və beynəlxalq səviyyəli fotomüsabiqələr, fotosərgilər, təlimlər, qrant və sosial layihələr həyata keçirilir.

***Fidan SALMANOVA***
***XQ***

## Naxçıvanda aztəminatlı ailələrə bayram sovqatları çatdırılıb



**Xalqımızın milli birliyini təcəssüm etdirən 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının təşəbbüsü ilə sosial yardıma ehtiyacı olan 304 ailəyə sovqat paylanılıb, onların bayramları təbrik edilib.**

Ali Məclisin Mətbuat xidmətindən XQ-yə verilən məlumatda bildirilib ki, deputatlar muxtar respublika vətəndaşları ilə işə xüsusi diqqət yetirir, təmsil etdikləri şəhər və rayonların inkişafı ilə bağlı səlahiyyətləri daxilində lazımi tədbirlər görürlər. Təkcə 2024-cü ilin payız sessiyası dövründə deputatlar 914 sakinin iştirakı ilə 218 qəbul keçirib, vətəndaşların müraciətlərinin həllinə nail olub, araşdırılmalı ehtiyac olan məsələlərlə bağlı dövlət orqanlarına 112 sorğu göndəriblər. Bu dövrdə şəhid və qazi ailələri ilə 213, gənclərlə 11 görüş keçirilib.

Qeyd edilib ki, muxtar respublikada həyata keçirilən islahatlar, ölkə Prezidentinin müvafiq fərmanı ilə yeni idarəetmə institutunun yaradılması bütün sahələrdə əhalinin üzləşdiyi çətinliklərin aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət kəsb edir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli sərəncamı muxtar respublika əhalisinə göstərilən növbəti diqqət və qayğının əyani ifadəsidir.

***XQ***

## Rabitəçilərin bayram xidməti

**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı günlərində əhalinin nəqliyyat, poçt, telekommunikasiya, o cümlədən internet, mobil rabitə xidmətləri və radio-televiziya yayımı ilə keyfiyyətli və davamlı şəkildə təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçirilib.**

AZƏRBAYCAN RESPUBLİKASI
RƏQƏMSAL İNKİŞAF VƏ
NƏQLİYYAT NAZİRLİYİ

Bununla əlaqədar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qurumlarına, eləcə də mobil və telekommunikasiya operatorlarına, internet xidmət provayderlərinə təlimat göndərilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən verilən məlumata görə, müvafiq struktur bölmələri xidmətlər üzrə baş verə biləcək problemlərin aradan qaldırılması məqsədilə tam hazır vəziyyətə gətirilib.

***Qəzənfər QASIMOV***
***XQ***

Yeni nəşrlər

# Qərbi Azərbaycanın tarixi əhali aynası

**Dünən Qərbi Azərbaycan İcmasının iclas salonunda yurdsevər tədqiqatçı Nazir Əhmədlinin bölgədə soydaşlarımızın tarixi məskunluğunu canlı surətdə əks etdirən, XIX əsrdə Yeni Bəyazid və Şərur– Dərələyəz qəzalarının əhalisinin aynası olan 2 kitabının təqdimat mərasimi keçirildi.**




Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bu bölgənin qədim türk yurdu olduğunu çoxsaylı tarixi şəhadət faktı, abidələr şəbəkəsi, mədəni irs nümunələrinin təkzibedilməz şəkildə sübut etdiyini söylədi. İcma rəhbəri bildirdi ki, fədakar araşdırmaçı alim Nazir Əhmədlinin Rusiya imperiyası dövründə Qərbi Azərbaycanda aparılmış siyahıyaalma materialları əsasında tərtib və nəşr etdirdiyi “Yeni Bəyazid qəzasının kameral təsviri” və “Şərur–Dərələyəz qəzasının kameral təsviri” icmal topluları isə çarizm erməniləri bu torpaqlara köçürənədək yerli əhalinin azərbaycanlılar olduğunu adbaad, ailə-ailə ortaya qoyur.

Dilçi akademik, Azərbaycanda Atatürk Mərkəzinin müdiri Nizami Cəfərov, tarixçi alim, Dövlət mükafatı laureatı Nazim Mustafa, türkoloq-folklorşünas Əli Şamil, AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan şöbəsinin müdiri Cəbi Bəhramov hər iki kitabın ictimai-siyasi və elmi-mədəni önəmini açıqladılar, tərtibçinin ağır və şərəfli zəhmətini yüksək qiymətləndirdilər. Onlar bildirdilər ki, Nazir Əhmədlinin Qafqazda soydaşlarımızın yaşadıqları tarixi bölgələr üzrə silsilə kameral siyahıyaalma topluları hazırlaması bir elmi qurumun fəaliyyətinə bərabərdir.

İcmanın rəhbər və yeli qurumlarının təmsilçilərindən professorlar Vahid Novruzov, İbrahim Bayramov, Eldar Abbasov, Aslan Bayramov və digər çıxış edənlər təqdim edilən nəşrlərin Qərbi Azərbaycana Qayıdış hərəkatına ciddi elmi-tarixi dəstək qazandırdığını vurğuladılar, alimə təşəkkürlərini bildirdilər.

Sonda müəllif xoş sözlərə görə razılığını ifadə etdi, kameral icmallarla bağlı yeni araşdırmalar apardığını söylədi.

***Tahir AYDINOĞLU***
***XQ***

Sağlamlıq

## Düşüncə necə sağaldır?



**Xəstələnən zaman çox vaxt həkimə də müraciət etmədən tez aptekə qaçırıq. Amma alternativ tibblə məşğul olanlar dərman əvəzinə düşüncələrlə müalicənin daha təsirli və zərərsiz olduğunu deyirlər. Düşüncə gücü ilə müalicə üsulları ilə tanış olaq.**

**Baş ağrısı:** Kresloda rahat oturun və keçən yay çəkdiyiniz gözəl mənzərə şəklinə baxın. Bütün təfərrüatları xatırlayın, sonra gözünüzü yumun və həmin anı yenidən canlandırıb özünüzü bu görüntüyə uyğunlaşdırın. Təsəvvür edin ki, siz sahildə yatırsınız və qarşıdan gələn dalğalar ağrınızı yuyub dənizə aparır.

**Depressiya və stress:** Okeanın ortasında kiçik qayalıq bir ada və özünüzü onun üstündə hündür, yaxşı qurulmuş mayak kimi təsəvvür edin. Mayakın divarları o qədər qalın və möhkəmdir ki, hətta güclü külək də onu silkələyə bilmir. İndi özünüzdə heç vaxt sönməyən daxili işıq mənbəyini hiss etməyə çalışın! Təsəvvür edin ki, siz yazıçısınız və sizi narahat edən epizod ədəbi qəhrəmanın həyatından sadəcə bir səhifədir. Həmin epizodu birinci şəxsin hekayəsi şəklində kağıza qoyun. Hadisələri təfərrüatı ilə yenidən yaradın və dialoqları bərpa edin. Sonra hekayəyə səhv və kobud bir layihə kimi baxın, yenidən istədiyiniz şəkildə yazın. Mənfi personajların hərəkətlərinin arxasında duran motivləri anlamağa çalışın, onların səhvlərini bağışlayın. Yeni dialoqlar yaradın və indi hiss etdiyinizi yazın. Sizə uyğun olan yeni bir sonluqla gəlin. Depressiya və stres yox olacaq!

**Arıqlamaq:** 5–10 il əvvəl çəkilmiş ən yaxşı şəklinizi tapın. Gözlərinizi yumun və zehni olaraq şəklin çəkildiyi anı xatırlayın. Şəkildəki kimi gənc, incə, gözəl və xoşbəxtsiniz. Şüuraltınız bu obrazı mənimsəyəcək və bədəninizi ona uyğunlaşmağa məcbur edəcək. Yağ hüceyrələri yanacaq və çəkiniz azalacaq.

**Qırışlara son:** Hava və günəş işığından istifadə edərək düşüncə gücü ilə qırışları hamarlamağa, onları dəriyə implantasiya etməyə çalışın və sonra onun hər hüceyrəsinin necə çəkildiyini, cavanlaşdığını və dartıldığını hiss edin.

**Soyuqdəymələr:** Parıldayan qarla örtülmüş dağ zirvəsinə zehni olaraq qalxın və təmiz şaxtalı havada dərindən nəfəs alın. Psixoloji sərtləşmə seansından sonra viruslara qalib gələcəksiniz!

Bunlar təcrübələrlə sübut olunmuş üsullardır.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

## İlin son günləri: yağışlı, dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir.**

Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 5-7°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 769 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° , gündüz 7-11° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Vaqif Bayramova əzizi

**VAHİD QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi iş yoldaşları Sahirə Dünyamalıyevaya oğlu

**SAMİR DÜNYAMALIYEVİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2989
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00